Xalqın qəzeti!

# Xalq qəzeti

№ 195 (30889) 13 sentyabr 2025-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Türkiyə həmişə Azərbaycanın "enerji yürüşü"nün yanındadır

*Bu əməkdaşlıq qlobal təhlükəsizlikdən "yaşıl" keçidə yön alıb*



**XXI əsrin enerji gündəliyi həm regional, həm də qlobal miqyasda dərin dəyişikliklərlə müşayiət olunur. Enerji resurslarının davamlılığı, onların şaxələndirilməsi, enerji təhlükəsizliyi və iqlim dəyişikliyi ilə mübarizə məsələləri artıq milli sərhədləri aşaraq beynəlxalq əməkdaşlığın mühüm istiqamətinə çevrilib. Bu mənada Azərbaycan və Türkiyənin enerji tərəfdaşlığı yalnız ikitərəfli münasibətlər çərçivəsində deyil, həm də regional və qlobal təhlükəsizliyin təmin olunması baxımından xüsusi önəm daşıyır.**

Azərbaycan – Türkiyə enerji əməkdaşlığının tarixi 1990-cı illərin sonlarında formalaşmağa başladı. 2006-cı ildə istismara verilən Bakı – Tbilisi – Ceyhan (BTC) neft kəməri (illik ötürmə gücü 50 milyon ton) iki qardaş ölkənin enerji sahəsində ortaq strateji maraqlarını təməlini qoydu. Dünya Bankının hesablamalarına görə, BTC-nin reallaşması region ölkələrinə on milyardlarla dollar əlavə gəlir qazandırdı və Xəzərin karbohidrogenlərini ilk dəfə Rusiya və İran marşrutlarından kənar dünya bazarına çıxardı.

*(ardı 7-ci səhifədə)*

# Sülhə aparan yol, yoxsa kabusların vurnuxması?

*İrəvanın bu seçimdə yanılmaq şansı sıfıra bərabərdir*



**Ermənistanın qarşısında bu gün taleyüklü bir sual dayanır: ölkə keçmişin ağır kölgələri altında qalmağa davam edəcək, yoxsa yeni regional reallıqlara uyğunlaşaraq həqiqi müstəqil inkişaf yoluna qədəm qoyacaq? Bütün millətin gələcəyini müəyyən edəcək bir seçim var. Son otuz ilin təcrübəsi göstərir ki, İrəvan hər dəfə regional əməkdaşlıq imkanları ilə üz-üzə qaldıqda onlardan boyun qaçırıb və əvəzində xarici güclərin təsiri altında hərəkət etməyi üstün tutub. Bunlar isə ,nəticə etibarilə, Ermənistanı həm siyasi, həm iqtisadi, həm də sosial böhranların içinə sürükləyib.**

Burada vacib sual yaranır: Ermənistan niyə hələ də müstəqilliyini tam şəkildə dərk edə bilmir? Cavab aydındır – çünki dövlət elitasının müəyyən dairələri üçün "geosiyasi himayədarlıq" anlayışı siyasi mədəniyyətin bir parçasına çevrilib. Problemlərin həllini region ölkələri ilə dialoq və əməkdaşlıqda axtarmaq əvəzinə, onlar illərdir kənar güclərin dəstəyinə bel bağlamağa öyrəşiblər. Bunlar təkcə siyasi qərarların qəbulunda deyil, ictimai şüurun formalaşmasında da özünü göstərir. Müstəqil dövlət olmaqdan doğan məsuliyyət anlayışı cəmiyyətin dərin qatlarına hələ tam yeriməyib. Ermənistanın qarşısında dayanan ən böyük paradoks da budur: formal müstəqil dövlət olan bu ölkə hələ də taleyini başqa güclərin əlində görür.

*(ardı 4-cü səhifədə)*

## "Moody's" Azərbaycanı iqtisadi sabitlik adası kimi görür



Səhifə ➩ 9

## Ölkəmizdə dəniz suyunun şirinləşdirilməsinə başlanılıb



Səhifə ➩ 9

## Dərsliklər, sadəcə, kitab deyil, bilik xəzinəsinin qızıl kərpicləridir

Səhifə ➩ 10

# Strateji tərəfdaşlıq yolunda yeni səhifə

*Daimi məsləhətləşmə mexanizmi Bakı–Vaşinqton dialoqunu institusional səviyyəyə qaldırır*



**ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya üzrə Bürosunun baş nümayəndəsi Brenden Hanrahanın Bakıya səfəri bir sıra mühüm irəliləyişlərlə yadda qaldı. ABŞ səfirliyinin yaydığı məlumata əsasən, səfər çərçivəsində B.Hanrahan Vaşinqtonda Donald Tramp və İlham Əliyev tərəfindən imzalanmış ikitərəfli Anlaşma Bəyannaməsinin icrası məqsədilə cari ilin sonunadək hər iki ölkənin təmsilçilərindən ibarət ilk işçi qrupların toplanacağına dair planları elan edib. Eyni zamanda, rəsmi Bakı və Vaşinqton arasında ilk dəfə yaradılacaq Strateji Tərəfdaşlığın əsasını təşkil edəcək Strateji İşçi Qrupunun nizamnamə layihəsi təqdim edilib. Təşəbbüsün məqsədi regional əlaqəlilik, iqtisadi investisiyalar və təhlükəsizlik məsələlərində əməkdaşlığın inkişaf etdirilməsidir.**

Avqustun 8-də Vaşinqtonda Azərbaycanla ABŞ arasında imzalanmış Birgə Bəyannamə rəsmi Bakının regional və qlobal siyasətdə əldə etdiyi mühüm diplomatik qələbəsidir. Sənədin imzalanması Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi ilə yanaşı, Vaşinqtonun Cənubi Qafqaz siyasətində prioritetlərinin dəyişdiyini ortaya qoydu. Məsələnin strateji mahiyyəti ondadır ki, ABŞ Prezidenti Donald Tramp Cənubi Qafqazda tərəfdaş seçimini edərkən diqqəti məhz ölkəmizə yönəldib. Bu, əvvəlki administrasiyaların buraxdığı boşluqları doldurmağa, regionda tarazlığı bərpa etməyə və yanlış yanaşmaları aradan qaldırmağa hesablanmış addımdır. Azərbaycan rəhbərliyinin təklif etdiyi əməkdaşlıq platformaları ABŞ üçün həm iqtisadi, həm siyasi baxımdan cəlbedicidir. Çünki təşəbbüslərin mərkəzində qarşılıqlı fayda prinsipi dayanır. Azərbaycan isə həm enerji resursları, həm də nəqliyyat və logistika imkanları ilə ABŞ-ın regional siyasətində mühüm mərkəzə çevrilib.

*(ardı 3-cü səhifədə)*

## Ritorika var, əməl isə yox!




səhifə ➩ 3

## II Qareginin və çevrəsinin çöküşü yaxınlaşır



səhifə ➩ 5

## Ermənistanı Nepala çevirmək cəhdi



səhifə ➩ 5

## Rusiya miqrantları hədəfə alıb



səhifə ➩ 6

# “İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin 145-ci kitabı oxucuların istifadəsinə verilib

**“Azərbaycan, Türkiyə və Pakistan hər zaman suverenlik, ərazi bütövlüyü və ədalət tərəfində olub. 2020-ci ildə 44 günlük Vətən müharibəsinin ilk günlərindən etibarən Türkiyənin və Pakistanın ölkəmizə göstərdiyi siyasi və mənəvi dəstəyə görə bir daha minnətdarlığımızı bildiririk. Azərbaycan da öz növbəsində daim Türkiyənin və Pakistanın yanında olub. Bu gün biz bir daha xalqlarımızın birliyini təsdiqləyirik.**

Ölkələrimizin strateji mövqeyindən və dinamik iqtisadi potensialımızdan istifadə etməklə qarşılıqlı faydalar əldə etmək üçün geniş imkanlar var.

Siyasət, iqtisadiyyat, energetika, qarşılıqlı investisiyalar, nəqliyyat, müdafiə, kənd təsərrüfatı, informasiya texnologiyaları və digər sahələrdə əməkdaşlığın birgə layihələr və proqramlar vasitəsilə daha böyük sürətlə inkişaf edəcəyinə inanırıq”.

“İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin çapdan yeni çıxmış 145-ci kitabında yer alan bu fikirləri dövlətimizin başçısı mayın 28-də Laçında keçirilmiş Zirvə görüşündə söyləyib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin iştirakı ilə keçirilmiş Zirvə görüşünün materialları yeni kitaba daxil edilib.

Çoxcildliyin 145-ci kitabında toplanmış materiallar 2025-ci ilin may-iyun aylarını əhatə edir.

Bu kitabda 28 May - Müstəqillik Günü münasibətilə müxtəlif dövlət və hökumət başçılarının Azərbaycan Prezidentinə ünvanladığı təbrik məktubları da yer alıb.

Oxucular bu kitabda Prezident İlham Əliyevin Türk Dövlətləri Təşkilatının daxili işlər nazirlərinin ikinci görüşünün iştirakçılarından ibarət nümayəndə heyəti ilə görüşünə dair informasiya ilə tanış ola bilərlər.

Prezident may ayında İsmayıllı rayonuna səfər edib, “Talıstan” liseyinin binasının, “Azerbaijan Coca-Cola Bottlers” MMC-nin yeni istehsal müəssisəsinin açılışlarında iştirak edib. Dövlətimizin başçısı, həmçinin Laçına səfər edib, istehsal və digər müəssisələrin açılışlarında iştirak edib, Laçın kanat yolunun təməlini qoyub, rayonun Bəylik kəndinə köçən sakinlərlə görüşüb, onlara evlərin açarlarını təqdim edib. Prezident Laçın Beynəlxalq Hava Limanının da açılış mərasimində iştirak edib, Kəlbəcər-Laçın avtomobil yolunda görülən tikinti işləri ilə tanış olub. Bütün bunlar haqqında informasiyalar da yeni kitabda verilib.




145-ci kitaba Azərbaycan Prezidentinin Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 30-cu Yubiley Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi “Caspian Oil and Gas”, 13-cü Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi “Caspian Power” və 30-cu Yubiley “Baku Energy Forum”un rəsmi açılış mərasimində iştirakına dair materiallar da daxil edilib.

Dövlətimizin başçısının “İslamofobiya: qərəzin ifşa olunması və stiqmaların dağıdılması” mövzusunda beynəlxalq konfransın, Bakı Enerji Həftəsinin iştirakçılarına müraciətlərinin mətnləri də bu nəşrdə toplanıb.

Çoxcildliyin buraxılışına məsul “Azərnəşr”in baş redaktoru Əlövsət Ağalarovdur.

Bu cildin hazırlanmasında da Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# AK Partiya heyəti Naxçıvanda





**Dünən Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının sədr müavini və Türk Dövlətləri ilə Əlaqələr Baş İdarəsinin rəhbəri Kürşad Zorlunun rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvana səfərə gəlib.**

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli qonaqlarla görüşdə ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövründən başlayaraq yaranıb genişlənən Azərbaycan–Türkiyə dostluq və qardaşlıq münasibətlərinin bu gün ölkələrimizin liderlərinin rəhbərliyi və hakim partiyaların qurduğu işgüzar əlaqələrlə ilə davamlı inkişafda olduğunu məmunluqla ifadə edib, Naxçıvanın Türk dünyası üçün birləşdirici önəmini vurğulayıb.

Söhbət zamanı bölgəyə sülh və rifah gətirəcək Zəngəzur dəhlizinin reallaşması fonunda əlaqələrin daha da genişlənməsi imkanları nəzərdən keçirilib, Naxçıvanda nəqliyyat, logistika və mədənçilik sahələri üzrə birgə investisiya layihələrinə dair perspektivlər müzakirə edilib.

Görüşdə qarşılıqlı xatirə hədiyyələri təqdim edilib, xatirə fotoları çəkdirilib.

***XQ***

*Xuntaçıların məhkəməsi*

# Erməni silahlı quldurların cinayətləri sübuta yetirilir





**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası sentyabrın 12-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclası istintaq

sənədlərinin elan olunması ilə davam etdirilib. Sənədlərdən biri 1991-ci il yanvarın 12-də Xocavən–Qaradağlı yolunda hərəkət edən avtobusa basqın edilməsi faktı üzrə olub. Xocavənd rayon sakini Kamal Rəhimovun idarə etdiyi və içərisində 25-30 nəfər Xocavənd kənd sakininin olduğu avtobus ermənilər tərəfindən müxtəlifçaplı odlu silahlarla atəşə tutulub.

1991-ci il yanvarın 28-də Fəranə Nəzərova Xocavənd rayonunun Xocavənd kəndində qətlə yetirilib, 7-ci sinif şagirdi Azər Məmmədov xəsarət alıb. 1991-ci il fevralın 15-də isə Camal Nəbiyev Goranboy rayonunun Buzluq kəndinin yaxınlığında qətlə yetirilib.

1991-ci il fevralın 24-də Xankəndi şəhərinində sərnişinlərlə dolu avtobusa basqın olub, bir neçə mülki şəxs xəsarətlər alıb. Ağdam Rayon Polis Şöbəsinin əməkdaşı Qorxmaz Muradov 1991-ci il fevralın 25-də girov götürülüb, bir gün sonra qətlə yetirilib.

1991-ci il martın 2-də Xocavənd rayonunun sakini Haqverdi Yusifov, martın 8-də isə Qaradağlı kənd sakinləri Əkbər Quliyev və Zülfüqar Hüseynov qətlə yetiriliblər. 1991-ci il aprelin 4-də içərisində Ali Sovetin deputatları olan vertolyot Şuşa rayonunun Göytala kəndinə uçuş zamanı atəşə tutulması nəticəsində zədələnib, Turşsu kəndinə məcburi eniş edərək qəzaya uğrayıb, bəzi sərnişinlər yaralanıb.

1991-ci il fevralın 20-də “QAZ-469” markalı avtomobilin atəşə tutulması, Daşdəmir İmanovun və Gürzalı Musayevin öldürülməsi faktları üzrə materiallar və fotolar da diqqətə çatdırılıb. Bundan başqa, azərbaycanlıların öldürülməsi, evlərinin dağıdılması və sair məqsədlə silahlı dəstələr yaradılması, 1991-ci il aprelin 18-də Şuşa rayonunun Nəbilər kəndinin, aprelin 23-də Şuşa şəhərinin atəşə tutulması, aprelin 19-da Şuşa-Ağdam marşrutu ilə hərəkət edən avtomobil karvanına hücum edilməsi üzrə faktlar da elan olunub.

Digər sənəddə bildirilib ki, 1991-ci il aprelin 26-da milis əməkdaşları Azər Xametov, Səlimxan Rəhimxanov, Nəcəf Verdiyev öldürülüb, Emin Bayramov isə yaralanıb.

Sədərək 1991-ci il aprelin 26-dan 28-dək toplardan, minaatanlardan atəşə tutulub, 26 nəfər kənd sakini, o cümlədən 3 nəfər milis işçisi müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

İclasda 1988-1991-ci illərdə Kərkicahan qəsəbəsində törədilmiş kütləvi iğtişaşlar, azərbaycanlı sakinlərin evlərinin dağıdılması və dinc insanların öldürülməsi faktları da diqqətə çatdırılıb.

Məhkəmənin qərarı ilə təqsirləndirilən şəxs Qurgen Stepanyanın müdafiəçisinin məhkəmədə iştirakına xitam verilib.

Məhkəmə prosesi sentyabrın 15-də davam etdiriləcək.

***XQ***

# Azərbaycan TDT dini liderlərinin VI toplantısında



**Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə Türk Dövlətləri Təşkilatının Müsəlman Dini İdarə rəhbərləri Şurasının VI toplantısında iştirak etmək üçün sentyabrın 10-11-də Qırğızıstan Respublikasında səfərdə olub.**



İclasda çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin sədri, görüş iştirakçılarına Prezident İlham Əliyevin salamlarını və xoş arzularını çatdırıb. Bildirib ki, Qırğız Respublikası ilə bizi müştərək dəyərlər bağlayır.

Türk Dövlətləri Təşkilatına üzv ölkələrin dini-mənəvi dəyərlərə və türk kimliyinə daim sadiq qaldığını vurğulayan QMİ sədri bildirib ki, TDT məkanında müsəlman dini liderlərin birgə əməkdaşlığı, məşvərət və məsləhətləşmələri türk-İslam birliyinin güclənməsinə xidmət edir.

TDT Müsəlman Dini İdarə rəhbərləri Şurasının VI iclasında Bişkekdə Fətva Şurasının iclasında müzakirə edilmiş sənədlər qəbul olunub. Şura üzvləri tərəfindən “İslamda ümmətin vəhdəti” adlı sənəd, “İqlim dəyişiklikləri ilə mücadilə, Ətraf mühitin qorunması və Ekoloji balansın qorunmasına dair beynəlxalq çağırış” imzalanıb. Şuranın növbəti iclasının Azərbaycanda keçiriləcəyi təsdiq və elan olunub.

*

Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə Bişkekə səfəri çərçivəsində Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə görüşüb.

Prezident İlham Əliyevin salamlarını və xoş arzularını çatdıran şeyxülislam A. Paşazadə bildirib ki, Qırğız Respublikası ilə bizi qırılmaz tellər və müştərək dəyərlər bağlayır.

Şeyxülislam Prezident Sadır Japarovun rəhbərliyi ilə dini-mənəvi dəyərlərə xüsusi önəm verilən Qırğızıstanın ev sahibliyi etdiyi bu görüşün qardaş xalqlar arasında əlaqələrin möhkəmlənməsinə töhfə verəcəyinə əminliyini ifadə edib. O, tədbirin təşkilinə görə Qırğız Prezidentinə təşəkkürünü bildirib.

Prezident Sadır Japarov isə səmimi salamlarını və ən xoş niyyətlərini Azərbaycan Prezidentinə çatdırmağı xahiş edib.

***XQ***

# Azərbaycan–Çexiya əməkdaşlıq imkanları müzakirə olunub



**Sentyabrın 11-12-də Azərbaycanın xarici işlər nazirinin müavini Yalçın Rəfiyev Çexiyaya səfər edib. Səfər çərçivəsində nazir müavini ATƏT-in Finlandiya sədrliyi tərəfindən Praqada təşkil olunmuş “Dəyişən iqlim şəraitində dayanıqlı gələcəyin qurulması” adlı forumda iştirak edib, ikitərəfli görüşlər keçirib.**

Forumun iqlim məsələlərinə həsr olunan sessiyasında əsas məruzəçi qismində çıxış edən Y.Rəfiyev Azərbaycanda keçirilmiş BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 29-cu tərəflər Konfransının (COP29) tarixi nəticələri, qəbul olunmuş qərarlar və onların iqlim dəyişikliyi ilə mübarizə prosesinə verəcəyi töhfə barədə ətraflı məlumat verib, ATƏT-in regional təhlükəsizlik təşkilatı olaraq iqlim dəyişikliyi ilə mübarizə prosesində mümkün roluna dair fikirlərini bölüşüb.

Səfər çərçivəsində Y.Rəfiyev, həmçinin Çexiyanın xarici işlər nazirinin müavini Yan Marian və ATƏT-in Daimi Şuranın sədri Finlandiyanın ATƏT yanındakı Daimi Nümayəndəsi Vesa Hakkinen ilə görüş keçirib.

# Komitə sədri Şamaxıda vətəndaşları dinləyib



**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova sentyabrın 12-də Şamaxı rayonunda vətəndaşlarla görüşüb.**

Görüşdən öncə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət edilib.

Sonra Şamaxı və Qobustan rayon sakinlərinin müraciətləri dinlənilib. Qəbula gələnlərin müraciətləri əsasən alimentin ödənilməsi, uşaqla ünsiyyətin təmin olunması, boşanmadan sonra yaranan hüquqi problemlərin həlli, işlə təminedilmə və digər məsələlərə dair olub.

Komitənin məsul əməkdaşlarının da iştirakı ilə hər bir müraciət fərdi qaydada dinlənilib, qaldırılan məsələlərin qısa zamanda müvafiq həll yollarının müəyyənləşdirilməsi üçün tapşırıqlar verilib. Araşdırma tələb edən müraciətlər qeydiyyata alınaraq nəzarətə götürülüb.

***XQ***

# Strateji tərəfdaşlıq yolunda yeni səhifə



(əvvəli 1-ci səhifədə)

Hadisələrin ardıcıllığı da bu kursun təsdiqidir. Azərbaycan Respublikası və ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması barədə Anlaşma Memorandumunun imzalanması münasibətlərin institusional bazasının möhkəmləndirilməsi baxımından mühüm addım idi. Anlaşma Memorandumuna əsasən, Azərbaycan ilə ABŞ arasında Strateji İşçi Qrupu yaradılacaq. Bu təşəbbüs tərəflər arasında əməkdaşlığın praktiki və davamlı mexanizmlər üzərində qurulmasını təmin edən institusional çərçivə rolunu oynayır. İşçi qrup çərçivəsində prioritet sahələr geniş və çoxşaxəlidir. Enerji, ticarət və tranzit kimi regional bağlantılar əhəmiyyət daşıyır, çünki bu sahələr Azərbaycanın nəqliyyat və enerji dəhlizlərində oynadığı rolu daha da möhkəmləndirir, qlobal iqtisadi inteqrasiyaya töhfə verir. Prosesə süni intellekt və rəqəmsal infrastrukturun daxil edilməsi iqtisadi sərmayələrin cəlb olunması, innovasiya potensialının artırılması və rəqəmsal iqtisadiyyatın transformasiyası üçün geniş imkanlar açacaq. Bununla yanaşı, müdafiə, təhlükəsizlik və terrorla mübarizə sahələrinin də prioritetləşdirilməsi regionda sabitliyin təminatına və Azərbaycan ilə ABŞ arasında strateji etimadın möhkəmləndirilməsinə xidmət edir.

Strateji İşçi Qrupu spesifik layihələrin, hər iki tərəf üçün strateji əməkdaşlığın dayanıqlı və çoxşaxəli xarakter almasını təmin edən mexanizmlərin hazırlanmasını nəzərdə tutur. Əlaqəlilik, investisiya və təhlükəsizlik məsələlərinin ön plana çıxarılması bir daha təsdiqləyir ki, Cənubi Qafqaz regionu Birləşmiş Ştatların strateji maraqlarına daxildir. Əvvəllər ABŞ-ın Cənubi Qafqaz siyasətində üçüncü sütun kimi önəm daşıyan siyasi islahatlar mövzusu yeni strateji çərçivədə artıq ön plana çıxarılmayıb. Bu, Tramp administrasiyasının ideoloji məsələlərdən çox, konkret geostrateji və iqtisadi əməkdaşlığa üstünlük verdiyini açıq şəkildə göstərir. Belə yanaşma, ABŞ-ın regiondakı prioritetlərinin daha praktik və nəticəyönümlü olduğunu vurğulayır, tərəflərin əməkdaşlığının real layihələr, iqtisadi təşəbbüslər üzərində qurulmasına imkan verir. Yeni Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması isə Azərbaycan və ABŞ arasında uzunmüddətli əməkdaşlığın yol xəritəsini müəyyən edəcək. Sənəd çərçivəsində yaradılacaq daimi məsləhətləşmə mexanizmləri Bakı və Vaşinqton arasında dialoqu institusional səviyyəyə qaldıracaq. Belə mexanizmlər müzakirələrin sistemli aparılmasını, strateji qərarların vaxtında və koordinasiyalı şəkildə həyata keçirilməsini təmin edir. Dövlət Departamentinin Avropa və Avrasiya üzrə Bürosunun baş nümayəndəsinin Azərbaycana səfəri məhz bu praktiki addımların icrası ilə bağlıdır. Artıq nəzərdə tutulan tədbirlərin və razılaşmaların həyata keçirilməsi istiqamətində konkret addımlar atılır.

Sonda bir daha vurğulayaq ki, ABŞ–Azərbaycan münasibətləri yeni mərhələdə güclü və davamlı təməl üzərində inkişaf edir. Hər iki tərəf qarşılıqlı fayda prinsiplərinə əsaslanan tərəfdaşlığın əhəmiyyətini dərk edir və bu əməkdaşlığın heç də formal xarakter daşımadığını anlayır. İkitərəfli sağlam dialoq əlaqələrin inkişafının praktik layihələrlə müşayiət olunduğunu göstərir. Regionda ABŞ–Azərbaycan tərəfdaşlığının belə möhkəm və davamlı şəkildə qurulması həm də Cənubi Qafqazın sabitliyini təmin edən mühüm amil kimi çıxış edir.

***Nəzrin ELDARQIZI***
***XQ***

### Ekspert rəyi



**Mətin MƏMMƏDLİ,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin baş məsləhətçisi**

Azərbaycan Prezidentinin avqustun 8-də Vaşinqtona səfəri və həmin səfər çərçivəsində ABŞ Prezidenti Donald Tramp ilə keçirilən görüşdə bir sıra vacib razılaşmalar əldə olunub. Bu razılaşmalardan biri də Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə xüsusi Strateji İşçi Qrupunun yaradılmasıdır. Sözügedən işçi qrupunun qarşıdakı 6 ay ərzində xartiyanın mətnini hazırlaması nəzərdə tutulur. Bu baxımdan, Dövlət Departamenti nümayəndəsinin Azərbaycana səfəri tamamilə gözlənilən idi və düşünürəm ki, bu səfərin əsas məqsədi məhz həmin vacib sənədin hazırlanması ilə bağlıdır. Hesab edirəm ki, bu səfəri həm də Vaşinqton görüşündən sonra iki ölkə arasında münasibətlərin inkişafını təsdiqləyən addımlardan biri kimi qiymətləndirmək olar. Bildiyiniz kimi, həmin görüşdə iki ölkə arasında münasibətlərin prioritet istiqamətləri müəyyənləşdirilib. Bu istiqamətlər gələcəkdə imzalanacaq xartiyada da əksini tapacaq. Strateji tərəfdaşlığın əsas prioritet sahələri kimi iqtisadi-ticarət əlaqələri, logistika, enerji əməkdaşlığı, sərmayələr, süni intellekt və rəqəmsal infrastruktur, habelə müdafiə, təhlükəsizlik və terrorla mübarizə göstərilir. Fikrimcə, yaxın perspektivdə məhz bu istiqamətlərdə münasibətlərin daha da dərinləşəcəyini gözləmək olar.

Bundan əlavə, Dövlət Departamenti nümayəndəsinin Azərbaycana səfəri, eləcə də Prezidentin köməkçisi Hikmət Hacıyevin ABŞ-a səfəri və orada keçirdiyi mühüm görüşlər onu göstərir ki, hər iki ölkə 8 avqust tarixində əldə olunmuş tarixi razılaşmaların həyata keçirilməsində qərarlıdır. Bu səbəbdən də yaxın aylarda Azərbaycan və ABŞ arasında əlaqələrin daha da genişlənəcəyinin şahidi olacağıq.

*Replika*

# Amelinin yoluxdurucu xütbələri

**Pis vərdiş virus kimidir, ondan xilas olmaq müşkül məsələdir. Amma mümkündür. Sadəcə, orası da var ki, bəzi insanlar özlərində vərdiş halını almış hərəkət və davranışlarına görə xəcalət çəkmək hissini yadırğayırlar. Eynən Ərdəbil şəhərinin cümə imamı Seyid Həsən Ameli kimi. ABŞ Prezidenti Donald Trampı təriflədiyinə görə Azərbaycan hakimiyyət nümayəndələrinin ünvanına cümə xütbəsində kəskin tənqidi fikirlər səsləndirən ağayi Seyid Həsən Amelinin fikrincə, Bakıdan Birləşmiş Ştatlar lderinin ünvanına səsləndirilən "əsl sülhpərvər", "Nobel Sülh Mükafatına layiq" açıqlamalar, guya, İranda yaşayan azərbaycanlıların heysiyyətinə toxunub, hiddətinə səbəb olub.**

Üstəlik, Ameli onu da "dəqiqləşdirir" ki, Ağ Ev sahibinin şəninə komplimentlər ABŞ Hərbi Hava Qüvvələri "İranın azəri rayonlarına" aviazərbələr endirəndən az sonra səslənib. Bunun "Təbriz, Urmiya, Zəncan və Ərdəbildə nifrət və etiraz əhvalının daha da güclənməsinə" səbəb olduğunu iddia edən cümə imamı xütbəsinə belə davam edib: "Bu insanlar Azərbaycan hökumətinin "azəriləri öldürən adamı tərifləyəcəyini heç gözləmirdilər". Bununla ölkəmizə qarşı səslənən çıxışlar isə dövlət televiziyalarında canlı yayımlanmışdı. Bu onu göstərir ki, rəsmi Tehran nə qədər münasibətlərin normallaşdırılmasını istədiyini bəyan etsə də, rəsmi Bakıya qarşı yaxın qonşuluq və iltifat prinsipləri ilə bir araya sığmayan yanlış siyasətini davam etdirir. Səbəbi? Əgər bu barədə yazmağa başlasaq, onda replikamız geniş analitik məqaləyə çevrilər. Əslində, qəzetimiz bu mövzunu dəfələrlə gündəmə gətirib. İndi-



da kifayətlənməyən imam Ameli Azərbaycan hakimiyyətini "Vaşinqtonla münasibətlərdə fayda axtarmaqdansa, İrandakı azərilərin (?) yaralarını sarımağa" çağırıb.

Həsən Amelinin bunların ardınca müsəlmanların müqəddəs saydıqları mehrabdan ərz etdikləri nə şəriəti-risalə ilə bir araya sığır, nə reallıqla üst-üstə düşür, nə də sağlam məntiqlə izah oluna bilər: "Qarabağ müharibəsində Azərbaycana məhz İran köməklik göstərib". Xütbəsinin bu hissəsində cənab imam lap "gül vurub". Bu bəyanatın həqiqətdən neçə kilometr kənar olduğunu hətta müharibə zonasından uzaqda yaşayan sıravi azərbaycanlıya başa salmağa ehtiyac yoxdur. İranın ermənilərə həm Birinci, həm də İkinci Qarabağ müharibəsində necə və hansı formada dəstək verdiyi fakt və sübutları ilə Bakının əlindədir.

İranın Ali rəhbərinin Ərdəbil vilayəti üzrə nümayəndəsi, Ərdəbilin imam cüməsi Seyid Həsən Ameli birinci dəfə deyil Azərbaycana qarşı dini və diplomatik əndazəyə sığmayan ifadələr işlədir. 2024-cü ilin dekabrında onun iştirak etdiyi və İranın Radio və Televiziya Təşkilatının "Xəbər Şəbəkəsi" kanalında yayımlanan proqramda dövlətimizə və dövlət başçımıza qarşı səsləndirilən təhqiramiz ifadələrə görə Azərbaycan XİN İran tərəfinə sərt etirazını bildirmişdi. Ərdəbildə təşkil olunan anti–Azərbaycan tədbiri, burada ki məqamda onu deməklə kifayətlənək ki, Ərdəbildə keçirilən tədbir də rəsmi Tehranın Azərbaycana, o cümlədən Türkiyəyə qarşı yadırğamadığı ənənəvi ideoloji davranışının məntiqi nəticəsidir.

**P.S.** *İki gün əvvəl Ərdəbil vilayətinə səfər edən İran Prezidenti Məsud Pezeşkian ölkədə elektrik enerjisinin verilməsində fasilələr və qaz təchizatındakı kəsintilərlə bağlı xalqdan üzr istəyib. Bu barədə İran mediası məlumat yayıb. Pezeşkian hazırkı vəziyyəti çətinliklərlə dolu bir dövr kimi dəyərləndirib və problemlərin yığılıb qaldığını vurğulayıb: "Təəssüf ki, biz hakimiyyətə gələndə artıq problemlər yığılmışdı. Bəzən bir sistemi aşırmaq üçün son bir damcı kifayət edir. Biz o mərhələyə çatmışıq". Bəli, İran dövlətinin başçısı vətəndaşların üzləşdiyi problemlə yerindəcə tanış olur, bundan çıxış yolları arayır. O, başçılıq etdiyi komandanın məqsədinin vətəndaşlara problem yaratmaq deyil, əksinə, onların həyat şəraitini yaxşılaşdırmaq olduğunu bildirib. Bunu Ərdəbil şəhərinin cümə imamı Seyid Həsən Ameliyə görk olsun deyə yazdıq. Ümid edək ki, o, növbəti cümə xütbələrində mehrabdan Azərbaycanın "bostanına daş atmaqdan" əl çəkib, prezidentləri kimi, camaatın dərdi-sərini dilə gətirəcək.*

***İ.HƏSƏNQALA***
***XQ***

# Ritorika var, əməl isə yox!

## *Ermənistanda Azərbaycanın Zəngəzur dəhlizi ilə bağlı mövqeyi diskussiya doğurub*

**Hazırda Cənubi Qafqaz regionu üçün ən aktual məsələlərdən biri Zəngəzur dəhlizinin (TRIPP) gerçəkləşməsidir. Bu proses Azərbaycan cəmiyyətində müsbət qarşılanır, çünki dəhlizin açılması təkcə Naxçıvanla əlaqəni bərpa etmir, həm də iqtisadi və siyasi baxımdan böyük imkanlar yaradır. Ermənistanda isə vəziyyət fərqlidir. İqtidar və müxalifət arasında bu mövzuda ciddi fikir ayrılığı mövcuddur.**

Bəzi erməni siyasətçiləri məsələnin mahiyyətini təhrif edərək, dəhlizin açılmasını, guya, Ermənistanın suverenliyinə təhlükə kimi qələmə verirlər. Halbuki, əslində, Zəngəzur dəhlizinin (TRIPP) işə düşməsi uzun illər blokada şəraitində qalan ölkənin regionla əlaqələrinin bərpasına imkan yaradacaq və Ermənistan iqtisadi




cəhətdən daha geniş əməkdaşlıq müstəvisinə çıxış əldə edəcək. Erməni rəsmiləri bunu öz cəmiyyətlərinə aşılamağa çalışırlar.

"Ermənistan və Azərbaycan hazırda blokadanın aradan qaldırılması üzərində işləyir". Bunu Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan parlamentdə sual-cavab sessiyası zamanı bildirib. Nazir vurğulayıb ki, hələ razılaşdırılmalı məsələlər çoxdur, lakin məqsəd prosesi sürətləndirmək və blokadanın tezliklə aradan qalxmasına nail olmaqdır. Mirzoyan həmçinin xatırladıb ki, Ermənistan artıq otuz ildən çoxdur hər iki tərəfdən blokada şəraitindədir. Ararat Mirzoyan blokadanın götürülməsinin Azərbaycanla imzalanmış prinsiplərə uyğun həyata keçiriləcəyini bir daha vurğulayıb: "Ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, suverenliyi, yurisdiksiyası çərçivəsində və qarşılıqlılıq prinsiplərinə uyğun olaraq baş verir. Biz Amerika tərəfi ilə işləyirik, yenidən Azərbaycan tərəfi ilə blokadanın götürülməsi üzərində işləyirik". Ermənistan–Azərbaycan bəyannaməsi və Vaşinqtonda sülh müqaviləsinin paraflanması barədə danışan XİN başçısı bir daha vurğulayıb ki, baş verənlər çox mühüm hadisədir.

* * *

Gedən müzakirələr arasında dəhlizin Ermənistan hissəsində yol-nəqliyyat şəbəkəsində tikinti işlərinin aparılması və Naxçıvana maneəsiz keçidin praktiki olaraq hansı prinsiplərə əsaslanacağıdır. Tikinti işlərinin həyata keçirilməsi barədə yekun qərar hələ qəbul edilməyib. Prezident İlham Əliyev bir müddət öncə Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalına müsahibəsində bildirmişdi ki, fiziki infrastrukturun, yəni, dəmir yolunun tikintisi uzun vaxt tələb etməməlidir, çünki məsafə cəmi 42 kilometrdir. Dövlət başçısının sözlərinə görə, Azərbaycan tərəfi tikməli olsaydı, bu işi bir ilə tamamlayardı.

Ermənistandan fərqli olaraq, Zəngəzur dəhlizinin (TRIPP) Azərbaycan hissəsində işlərin gələn il tamamlanması nəzərdə tutulur. Horadiz–Cəbrayıl–Zəngilan–Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi) çəkilməsi hazırda yekunlaşmaq üzrədir. Bu yolun uzunluğu 123,6 kilometrdir və layihə çərçivəsində 55 altkeçid, 28 körpü və 3 tunel inşa edilir. Yol yüksək sürət və təhlükəsiz hərəkətə imkan yaradır. Həmçinin Türkiyə artıq Qars ilə Naxçıvanı birləşdirəcək 224 kilometrlik yeni dəmir yolunun inşasına start verib. Bu layihə 2,4 milyard avro xarici kreditlə maliyyələşdiriləcək və 2029-cu ildə başa çatması planlaşdırılır.

Ermənistan tərəfində isə dəhlizin inşası ilə bağlı konkret məlumatlar hələlik məhduddur. Xarici işlər naziri Ararat Mirzoyan bildirib ki, dəmir yolu və digər infrastrukturla bağlı texniki şərtlərin müəyyənləşdirilməsi üçün yaxın vaxtlarda müxtəlif tərəflərlə, o cümlədən ABŞ tərəfdaşları ilə intensiv təmaslar gözlənilir. Qeyd edək ki, tikinti işlərinin hansı ölkəyə məxsus investorlar tərəfindən aparılacağına qərar verilməsə də, ABŞ TRIPP layihəsinin həyata keçirilməsi üçün Ermənistana 145 milyon dollar yardım ayırmaq niyyətindədir.

(ardı 5-ci səhifədə)

### Ekspert rəyi



**Yeganə HACIYEVA,**
**politoloq**

Ermənistan və Azərbaycan arasında blokadanın aradan qaldırılması məsələsi 44 günlük Vətən müharibəsindən sonra imzalanmış üçtərəfli bəyanatın bəndlərindən biridir. Azərbaycan və Ermənistan sərhədlərin delimitasiya-demarkasiya məsələləri ilə paralel olaraq, kommunikasiya xəttlərinin açılması öhdəliyi də götürüblər. Üstündən 5 ilə yaxın keçməsinə baxmayaraq, delimitasiya ilə bağlı müəyyən irəliləyişlər əldə edilsə də, kommunikasiyaların açılmasında ciddi nəticələr yoxdur. Baş nazirlərin müavinləri səviyyəsində fəaliyyət göstərən işçi komissiya məhz bu məsələ üzərində çalışır. Ən real nəticə Vaşinqton görüşü ərəfəsində əldə edildi. Həmin görüşdə Azərbaycan tərəfinin təqdim etdiyi yol xəritəsi əsasında mühüm razılaşmaya nail olundu.

Artıq bəyannamə paraflanıb və burada tərəflərin öhdəlikləri, məsuliyyətləri, həmçinin proseslərin inkişaf istiqamətləri konkret şəkildə göstərilib. Bu isə o deməkdir ki, tərəflər kommunikasiyaların açılmasında ortaya siyasi iradə qoyublar. Azərbaycan Prezidentinin qeyd etdiyi kimi, Zəngəzur dəhlizi (TRIPP) yalnız Azərbaycan üçün deyil, həm də onun tərəfdaşları və qlobal istifadə üçün nəzərdə tutulur.

Nəzərə almaq lazımdır ki, Ermənistan və Azərbaycan, eləcə də Ermənistan və Türkiyə arasında sərhədlərin açılması ilə bağlı danışıqlar gedir. Azərbaycan öz üzərinə düşən infrastruktur layihələrinin böyük hissəsini həyata keçirib və proses davam edir. Türkiyə ilə sərhəddə gömrük və dəmir yolu bağlantılarının açılması istiqamətində işlərə start verilib. Bundan başqa, Türkiyə ilə Ermənistan arasında Qars–Gümrü dəmir yol və Ani körpüsünün istifadəyə verilməsi barədə razılıq əldə olunub. Ermənistan Gorusətrafı infrastrukturun formalaşdırılması üçün ABŞ-dan maliyyə dəstəyi alıb. Bütün bunlar onu göstərir ki, söhbət yalnız ikitərəfli blokadaların aradan qaldırılmasından deyil, ümumilikdə uzun illər işğal səbəbindən bağlanmış kommunikasiyaların açılmasından gedir. Bu isə region ölkələrinin siyasi iradəsinin real ifadəsidir.

# Sülhə aparan yol, yoxsa kabusların vurnuxması?

(əvvəli 1-ci səhifədə)

Ermənistanın bugünkü siyasi reallığında ən mühüm məsələ onun təhlükəsizlik və inkişaf modelini hansı prinsiplər üzərində quracağı ilə bağlıdır. Tarix göstərdi ki, yalnız xarici güclərə arxalanmaqla nə iqtisadi sabitlik əldə olundu, nə də uzunmüddətli təhlükəsizlik təmin edildi. Əksinə, bu asılılıq Ermənistanı regiondan təcrid etdi, qonşularla münasibətləri gərginləşdirdi və nəticədə ölkəni çıxılmaz vəziyyətə gətirdi.

Bəs, çıxış yolu nədədir? Əslində, cavab sadədir: Ermənistanın real alternativi regional əməkdaşlıqdır. Azərbaycanla imzalanmış sülh gündəliyi bu mənada tarixi fürsət rolunu oynayır. Əgər bu sənədin ruhuna sadiqlik nümayiş etdirilərsə, Ermənistan üçün bir neçə strateji qapı açılacaq: iqtisadi əlaqələrin bərpası, sərhədlərin açılması, yeni nəqliyyat marşrutlarının işə salınması və ən əsası, cəmiyyətdəki qeyri-müəyyənlik xofunun zəifləməsi. Çünki iqtisadi inteqrasiya yalnız ticarət dövriyyəsini artırmaqla məhdudlaşmır, həm də siyasi münasibətlərdə qarşılıqlı etimad mühitini möhkəmləndirir.

Ermənistan cəmiyyəti bu fürsəti dəyərləndirməyə hazırdırmı? Cavab təəssüf ki, hələ də birmənalı deyil. Cəmiyyətin bir hissəsi sülh və əməkdaşlıq yolunu dəstəkləsə də, revanşist dairələrin təsiri altında olan qruplar "köhnə təhlükəsizlik doktrinası"nı bərpa etməyə çalışırlar. Onlar hələ də Rusiyanın hərbi-siyasi patronajlığını yeganə çıxış yolu kimi təqdim edir, halbuki bu yanaşmanın iflasa uğradığını Ermənistan özü təcrübədə gördü.

Başqa bir mühüm sual isə belədir: Ermənistan regional əməkdaşlığa açılmaqla nə qazanacaq? Cavab: yalnız iqtisadi dividendlər deyil, həm də beynəlxalq siyasətdə subyektliyini gücləndirmək imkanı. Çünki region ölkələri ilə normal münasibətlər qurmaq Ermənistanın həm enerji və nəqliyyat layihələrində iştirakını təmin edə bilər, həm də ölkəni daimi "təhlükəsizlik riskləri"dən çıxararaq inkişaf gündəminə fokuslaşmağa imkan verər. Nəticədə bu amil gələcək nəsillər üçün strateji sabitlik deməkdir.

* * *

Ermənistanın bu gün qarşılaşdığı ən böyük paradokslardan biri onun hələ də XX əsrin sonlarında formalaşmış siyasi stereotiplərin əsiri olaraq qalmasıdır. 1990-cı illərin müharibə təcrübəsi, müvəqqəti hərbi qazanclar və xarici güclərin himayəsi ilə əldə olunan illüziya hayların ictimai şüuruna uzun müddət "təhlükəsizlik modeli" kimi təqdim edildi. Bu model ölkəni nə inkişaf yoluna çıxardı, nə də müstəqil siyasi iradə formalaşdırdı.

Keçmişin yükü niyə hələ də Ermənistana yön verən əsas amillərdən biri olaraq qalır?

Cavab aydındır – çünki siyasi elitanın müəyyən təbəqələri öz mövqelərinin davamlılığını məhz bu ideologiyanın yaşamasında görürlər. Keçmişin ağrı-acılarını manipulyasiya vasitəsinə çevirərək cəmiyyət üzərində təsir gücünü qorumağa çalışırlar. Mövcud yanaşma yalnız daxili siyasi parçalanmanı dərinləşdirir, çünki yeni nəsil Ermənistanın gələcəyini sülh və əməkdaşlıqda görsə də, köhnə nəsil hələ də müharibə ritorikasına bağlı qalır.

Ermənistan keçmişin bu mirasından nə itirir? Təbii ki, hər şeydən əvvəl regional təcrid. Çünki qonşularla normal münasibətlərin qurulması imkanı hər dəfə revanşist ritorikanın qurbanına çevrilir. İqtisadi böhranın dərinləşməsi, əhalinin kütləvi miqrasiyası, sosial problemlərin ağırlaşması–bunların hamısı keçmişin yanlış strategiyalarından miras qalan nəticələrdir.

Ən böyük problem isə odur ki, keçmişin kölgələri Ermənistanın beynəlxalq imicini də zəiflədir. Müharibə ideologiyası və qonşulara qarşı ərazi iddiaları olan bir ölkə regional və qlobal layihələrdə etibarlı tərəfdaş kimi qəbul edilə bilməz. Əksinə, belə ölkə həmişə risk faktoru olaraq qalır.

Nəticə etibarilə Ermənistanın siyasi elitası və ictimai şüuru qarşısında çox ciddi seçim dayanır: ya keçmişin ağır yükünü üzərindən ataraq normal dövlətçilik mədəniyyətinə keçid edəcək, ya da köhnə ideologiyalara bağlı qalaraq yeni böhranların mərkəzinə çevriləcək.

* * *

Ermənistan üçün sülhə doğru real addım yalnız siyasi qərarlarla məhdudlaşa bilməz. Hətta ən mükəmməl diplomatik razılaşmalar belə, əgər ictimai şüur transformasiya olunmasa, kağız üzərində qalacaq. Cəmiyyətin düşüncə tərzi dəyişmədən, sülhün real sosial bazası formalaşmadan davamlı stabillikdən danışmaq mümkün deyil.

Maraqlıdır ki, ictimai şüurun dəyişməsi hansı mexanizmlərlə mümkündür?

Cavab ondan ibarətdir ki, Ermənistan cəmiyyəti uzun illər boyu formalaşmış "qorxu psixologiyası"ndan azad olmalıdır. Bu qorxu – guya qonşularla əməkdaşlığın dövlətçiliyə təhdid olduğu barədə miflərlə qidalanırdı. Halbuki tarixi təcrübə göstərir ki, qapalı siyasət Ermənistanı daha çox asılılığa, iqtisadi geriliyə və miqrasiya dalğalarına sürükləyib. Cəmiyyət anlamalıdır ki, qonşularla əməkdaşlıq təhlükə deyil, əksinə, təhlükəsizliyin təminatıdır.

Başqa bir mühüm sual isə belədir: bu transformasiyanı kim həyata keçirəcək?

Qeyd etməliyik ki, burada məsuliyyət təkcə siyasi hakimiyyətin üzərinə düşmür. Təhsil sistemi, media, vətəndaş cəmiyyəti institutları – hamısı bu prosesdə iştirak etməlidir. Ermənistan cəmiyyətinə yeni narrativlər təqdim olunmalıdır: "keçmişin qurbanı olmaq" yox, "gələcəyin qurucusu olmaq" və bu yanaşma nəsildən-nəslə ötürülən müharibə sindromunu zəifləldib, onun yerini əməkdaşlıq mədəniyyətinə verməlidir.

Əlavə olaraq, Ermənistan cəmiyyətinin transformasiyası yalnız daxili faktorlarla bağlı deyil. Xarici siyasətdə atılacaq hər bir sülh addımı da ictimai şüurun dəyişməsinə təsir göstərəcək. Əgər insanlar real iqtisadi dividendləri, sərhədlərin açılmasının faydasını və regional layihələrdən doğan imkanları gündəlik həyatlarında hiss etsələr, revanşist ritorikanın təsiri avtomatik olaraq azalacaq.

Ermənistan bu gün həlledici tarixi dönəmdən keçir. Ölkənin qarşısında duran seçim aydındır: ya keçmişin ağır mirasına bağlı qalaraq revanşistlərin təsiri altında qalmaq, ya da yeni regional reallıqlara uyğunlaşaraq müstəqil inkişaf yolunu seçmək. Seçimdə yanılmaq şansı sıfıra bərabərdir. İndiyə qədərki təcrübə sübut etdi ki, xarici güclərin patronajlığına bel bağlamaq Ermənistanı nə təhlükəsiz etdi, nə də iqtisadi inkişaf yoluna çıxardı. Əksinə, bu yanaşma ölkəni təcridə və böhranlara sürüklədi.





Əsas siyasi nəticə bundan ibarətdir ki, Ermənistanın sabitliyi və təhlükəsizliyi yalnız regional əməkdaşlıq və qonşularla sülh münasibətlərindədir. Azərbaycanla sülh gündəliyi bu mənada tarixi şansdır. Fürsət reallaşarsa, Ermənistan həm iqtisadi baxımdan regiona inteqrasiya edə, həm də beynəlxalq aləmdə etibarlı tərəfdaş imici qazana bilər.

Lakin bunun üçün bir şərt var: keçmişin ağır yükündən qurtulmaq. Revanşist ritorika, köhnə illüziyalar və "geosiyasi himayədarlıq" illüziyası Ermənistanın gələcəyini məhv edən böyük təhlükədir. Əsl mübarizə isə artıq hərbi sahədə deyil, ictimai şüurun transformasiyasında gedir. Cəmiyyət başa düşməlidir ki, müstəqillik kənar güclərə arxalanmaqla yox, regionda sülh və əməkdaşlıq mühitini qəbul etməklə mümkündür.

Məntiq sadədir: Ermənistan ya bu transformasiyanı reallaşdıraraq yeni tarixi mərhələyə qədəm qoyacaq, ya da köhnə səhvlərin əsirinə çevrilərək təcrid və böhranla üzləşəcək. Başqa yol yoxdur.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# Ermənistan prezidenti özünü və ölkəsini inandırsın!

## *Azərbaycanın sülh tələbi fundamental əsasa söykənir*

**"Ermənistan Azərbaycanı inandıracaq ki, konstitusiya sülh müqaviləsinin imzalanmasına mane olmur". Bu fikri Ermənistan Prezidenti Vaaqn Xaçaturyan RTVI telekanalına müsahibəsində bildirib. Bəribaşdan deyək ki, İrəvan bunu bacarmayacaq. Ən azından ona görə ki, o ampluada deyil.**

Əslində, məsələ Azərbaycanı inandırmaq məntiqindən uzaqdır. V.Xaçaturyan bilməlidir ki, bu məntiq ən sonda gəlir. Deyək ki, Ermənistan rəhbərliyi Azərbaycan hakimiyyətini hansısa təklifinin, yaxud ideyasının səmərəliliyinə inandıra bilər. Amma ilk növbədə, təklif irəli sürmək üçün etimad və mənəvi haqq qazanmalıdır. Konstitusiya dəyişikliyi həmin etimadın qazanılması yolunda mühüm halqadır. Yaxşı olar ki, təkcə Xaçaturyan deyil, digər erməni rəsmiləri də bunu nəzərə alsınlar. Nə qədər tez nəzərə alsalar, bir o qədər yaxşıdır.

Ermənistan prezidenti bildirir ki, təmsil olunduğu komandanın konstitusiyaya dəyişiklik arzusu çoxdanın söhbətidir. Bu, həqiqətən belədir. Çünki Nikol Paşinyan 2018-ci ildə baş nazir səlahiyyətlərinin icrasına başlamasından dərhal sonra mövcud istiqamətdə fəaliyyətə başladı. Həmin vaxt, hətta müvafiq komissiyanın yaradılmasına da nail oldu. Xaçaturyan isə vurğulayır ki, məsələnin sülh müqaviləsi ilə heç bir bağlılığı yoxdur. Olsun. Amma...

"Onsuz da konstitusiyanı dəyişməyə ehtiyac var idi. Çünki indi işlədiyimiz konstitusiya əslində, bir nəfərin ideyasına əsaslanaraq yaradılıb. Baş nazirin, özü də baş nazir olmalı olan şəxsin", - deyən V.Xaçaturyan Ermənistanın üçüncü prezidenti Serj Sarkisyanı nəzərdə tutur. Sarkisyandan söz düşmüşkən, 2018-ci ildə Paşinyan hakimiyyətə gəldikdən sonra konstitusiyada dəyişiklik ideyasını ölkədə məhkəmə-hüquq islahatlarına zərurət kontekstində irəli sürmüşdü. Baş nazir bildirmişdi ki, S.Sarkisyanın dövründə qəbul olunmuş 2015-ci il konstitusiyası siyasi balansı pozub və korrupsioner elitanın maraqlarına uyğun hazırlanıb. Başqa sözlə desək, 2015-ci il konstitusiyası Ermənistanı prezident üsul-idarəsindən parlamentli respublika ilə əvəzləyirdi, amma sistemin balansı pozulur, hakimiyyət qolları arasında tarazlıq təmin olunmurdu. Yəni lap əvvəldən sənədə dəyişiklik zərurətinin bundan qaynaqlandığı bildirilirdi.

2020-ci ilin əvvəlində Nikolun rəhbərlik etdiyi hökumət referendum keçirilməsini planlaşdırmışdı. Baş nazir prosesdə başlıca məsələnin həm də Konstitusiya Məhkəməsinin səlahiyyətlərinə yenidən baxmaq olduğunu vurğulamışdı. Amma 2020-ci ilin martında COVID-19 pandemiyası, daha sonra İkinci Qarabağ müharibəsi nəzərdə tutulanların reallaşdırılmasına imkan vermədi. 44 günlük müharibədəki acınacaqlı məğlubiyyətdən sonra Ermənistanda yaranan siyasi böhran səbəbindən isə konstitusiya dəyişikliyi məsələsi, demək olar, tamamilə gündəmdən çıxdı.

O da məlumdur ki, Paşinyan artıq bir ilə yaxındır "yeni Ermənistan üçün yeni Konstitusiya" şüarını irəli sürüb. Sözümüz ondadır ki, V.Xaçaturyan konstitusiya dəyişikliyi məsələsinin çoxdanın söhbəti olduğunu deməkdə və bildirdiklərini əsaslandırmaqda haqlıdır. Amma onun hazırkı ana qanunun Azərbaycanla sülh müqaviləsinin imzalanmasına mane olmadığını vurğulaması, yumşaq desək, yerində deyil. Fikrimizin sübutu üçün bir neçə nüansa nəzər salaq.

N.Paşinyan bu ilin aprelində ölkənin yeni konstitusiyasının mətnində "Dağlıq Qarabağ"ın adının yer aldığı Müstəqillik Bəyannaməsinə istinadın yolverilməzliyindən söz açmışdı. Nikol mövqeyinin qətiliyini vurğulamış və məsələ barədə dəfələrlə, o cümlədən bəyannamənin qəbulu günü ilə bağlı mesajlarında söz açdığını xatırlatmışdı: "Müstəqillik Bəyannaməsinin mətnini öyrənərək dedim ki, mənim fikrimcə, söhbət ondan gedir ki, müstəqil Ermənistan Respublikası və ya Ermənistan dövlətçiliyi ola bilməz. Bu, sadəcə olaraq mümkün deyil. Əgər mən bunu deyirəmsə, bu o deməkdir ki, Ermənistanın yeni konstitusiyasında Müstəqillik Bəyannaməsinə istinadın olması lazım olduğunu deyə bilmərəm. Əksinə, deyə bilərəm ki, Ermənistanın yeni konstitusiyasında Müstəqillik Bəyannaməsinə istinad olmamalıdır. Amma buna Ermənistan xalqı qərar verəcək".

Azərbaycanın da tələbi budur ki, Ermənistan konstitusiyasında ölkənin Müstəqillik Bəyannaməsinə, başqa adla desək, İstiqlaliyyət Bəyannaməsinə istinad yer almasın. Yeri gəlmişkən, Paşinyan özü də sözügedən istinadın bilavasitə sülhə maneçilik törətdiyini vurğulayıb. Deməli, Xaçaturyan fikir bildirərkən, bütün bunları da nəzərə almalı və ölkəmizin tələbinin haqlı olduğunu, prinsipial mahiyyət daşıdığını nəzərə almalıdır.



Digər tərəfdən, yaxşı olar ki, nə Xaçaturyan, nə də erməni hakim komandasında təmsil olunan kimsə "hazırda heç bir referendum olmayacaq" şəklində bəyanat səsləndirsin. Bu sayaq bəyanatlar erməni iqtidarında müəyyən formalaşdırmır, əksinə, ona gələcəkdə çətinlik yaradır. Necə çətinlik yaradır, aydınlıq gətirək və bildirək ki, Ermənistan hakimiyyətinin konstutisiya dəyişikliyinin Azərbaycanın tələbi olmadığını vurğulaması onun öz işidir. Aydındır ki, bu sayaq deyimlər daxili ictimai rəyə hesablanıb. Paşinyan iqtidarı, öz aləmində, prinsipial davrandığını, guya, Bakının təzyiqlərinə boyun əymədiyini göstərmək istəyir.

Amma Nikolun rəhbərlik etdiyi komanda, o cümlədən, prezident Xaçaturyan Azərbaycan hakimiyyətinin təzyiqlərinə boyun əymirmiş kimi davranaraq referendum məsələsini ikinci plana atan qiyafəsində görünməməlidir. Çünki belə təəssüratın mövcudluğu Ermənistandakı revanşist və şovinist kəsimin ağzını yalnız müvəqqəti yumur. Həmin kəsim onsuz da iqtidarın üzərinə yerimək üçün əsas tapacaq. Yəni, hər bir halda bildirəcək ki, Ermənistan hakimiyyəti Azərbaycan qarşısında acizdir. Bu ritorika İrəvan üçün 2018-ci ildən bəri irəli sürülmüş konstitusiya dəyişikliyinin zəruriliyi tezisi üzərində üstünlük qazanmamalı, gedilməli yol hər bir halda gedilməlidir.

Bəli, indiki durumda Xaçaturyanın "referendum olmayacaq" iddiası təkcə Azərbaycanın tələbinin yerinə yetirilməsinə etinasız yanaşma yox, həmçinin, rəsmi İrəvanın müəyyənləşdirdiyi prioritet vəzifənin gerçəkləşməsinin qarşısına sədd çəkir. Ermənistan hakimiyyəti konstitusiya dəyişikliyinə gedəcəksə, gərək, durumu zəruriləşdirən və yuxarıda haqqında söz açdığımız məqamları təbliğ etsin, müvafiq əsaslandırmalar aparmaqla, ictimai rəyi prosesin vacibliyinə inandırsın.

Məsələn, Ermənistan hakimiyyəti cəmiyyəti inandırsın ki, bir ölkənin əsas qanununun istinad etdiyi sənəddə başqa ölkənin ərazisində mövcud olmuş ərazi vahidinin adına rast gəlinməməlidir. Təsəvvür edin, İstiqlaliyyət Bəyannaməsinə görə müasir Ermənistan həm də keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Milli Şurası deyilən saxta orqanın qondarma qərarına əsasən təşəkkül tapır. Azərbaycan öz ərazisindəki DQMV-ni ləğv edibsə, deməli, obrazlı desək, indiki Ermənistanı saxlayan sütunlardan biri, hətta başlıcası yoxdur. Belə nəticəyə gəlmək olar ki, hazırkı erməni dövləti, bir növ, havada asılı vəziyyətdədir.

Hər halda, həm Xaçaturyanın, həm də digər erməni rəsmilərinin, elə revanşist və şovinistlərin də vurğuladığımız reallığa özlərini inandırmaları lazımdır. Lazımdır ki, sülhə fundamental yanaşma olsun. Azərbaycan da Ermənistan konstitusiyasının dəyişməsi tələbində məhz fundamental yanaşmanın tərəfdarıdır. Ölkəmiz sülhün dayanıqlığı üçün çalışır. İstəyir ki, düşmənçilik motivləri tamamilə sıradan çıxsın. Bu motivlərin sıradan çıxması isə niyyət məsələsidir. Təkcə Ermənistan hakimiyyəti yox, bütövlükdə erməni cəmiyyəti referenduma gedərək xoş niyyətini göstərməlidir.

Sonda onu da bildirək ki, erməni cəmiyyəti konstitusiya dəyişikliyinə getməklə, ölkənin əsas qanununu ərazi iddiası məntiqinə söykənmiş İstiqlaliyyət Bəyannaməsinə istinad buxovundan qurtarmaqla, nəinki 30 ildən artıq davam etmiş düşmənçilik səhifəsini, o cümlədən əsası 200 il əvvələ gedib çıxan ixtilafa son qoymuş olacaq. Bu, sülh, yaşadığımız Cənubi Qafqazın gələcəyi, region xalqlarının rifahı və əmin-amanlığı naminə həyati əhəmiyyət daşıyan vəzifədir. Erməni iqtidarından, habelə prezident Xaçaturyandan gözləntimiz məhz bu məqamı nəzərə alaraq fəaliyyət göstərmələridir. Bu yolda hansısa siyasi mahiyyət daşıyan manevrlər keçərli deyil. Cəsarətli davranıb başlıca mahiyyətin üzərinə getmək lazımdır, onun ətrafında gəzişmək yox. Ümid edək ki, erməni hakim komandası bizi özünün kiçik həqiqətlərinə inandırmağa çalışmaqdansa, özü böyük həqiqətləri anlamağa cəhd göstərəcək.

*Ə.CAHANGİROĞLU,*
*XQ*

# II Qareginin və çevrəsinin çöküşü yaxınlaşır

## *Paşinyan "güzəşt olmayacaq" deməklə kilsəyə meydan oxudu*

**Erməni Apostol Kilsəsi dövlətin yürütdüyü siyasətə qarşı çıxmağa davam edir. Xarici ölkələrin birindən təlimat aldıqları və bunun əsasında hərəkət etdikləri şübhə doğurmayan din xadimləri adlanan bu şəxslər revanşist müxalifətlə gizli ittifaq quraraq daxildə qarışıqlıq salırlar. Kilsənin yüksək rütbəli din xadimləri uzun illərdir qılaflanaraq bu prosesdə iştirak etmədikləri görüntüsü yaratmağa çalışırlar. Ancaq ölkənin hüquq-mühafizə və təhlükəsizlik orqanları əməkdaşlarının 2025-ci il iyunun 25-də həyata keçirdikləri əməliyyat bir çox mətləblərə aydınlıq gətirdi.**

Həmin gün Tavuş yeparxiyasının rəhbəri, arxiyepiskop Baqrat Qalstanyan və onun bir neçə tərəfdarı genişmiqyaslı istintaq hərəkətləri zamanı saxlanıldılar. İki gün sonra Şirak yeparxiyasının rəhbəri, arxiyepiskop Mikael Acapaxyan da hakimiyyətin devrilməsinə açıq çağırışlarda ittiham olunaraq həbsə atıldı. Ermənistanın İstintaq Komitəsi yaydığı açıqlamada hakimiyyətin silahlı yolla ələ keçirilməsi cəhdinin qarşısının alındığını bildirdi. Onlara qarşı ittihamlar terror aktlarının hazırlanması, kütləvi iğtişaşlar və hakimiyyəti zorakılıqla devirməyə cəhdlə bağlıdır. Saxlanılan şəxslərin ələ keçirilən və ictimailəşdirilən səs yazıları bu qüvvənin necə dağıdıcı qaragüruh olduğunu bir daha üzə çıxardı.





Ancaq hakimiyyət də kilsənin rəhbəri, bütün ermənilərin katolikosu II Qareginin istefasında israr edir. Bugünlərdə Ermənistanın baş naziri Nikol Paşinyan parlamentdə hökumət saatı zamanı bəyan edib ki, II Qareginin vəzifədən getməsi məsələsində heç bir güzəşt olmayacaq: "Kulminasiya hissəsinə gəlincə, mən artıq dedim ki, bunu Eçmiədzinin mərkəzi meydanında dini-mənəvi məzmunlu böyük hadisə kimi təsəvvür edirəm. Biz indi tədbirin vaxtı, təşkili və məzmunu ilə bağlı məsələləri müzakirə edirik".

Baş nazirin sözlərinə görə, bu hadisə siyasi və ya inqilabi xarakter daşımayacaq, Erməni Apostol Kilsəsinin dəyərlərinə əsaslanacaq: "Orada siyasi çağırışlar, siyasi çıxışlar olmayacaq. Mənəvi məzmunlu çıxışlar olacaq".

O, erməni kilsəsini insanları mənəvi dəyərlərlə tanış etmək əvəzinə bunun əksini etməkdə suçlayıb. "Heç bir kompromis olmayacaq, mən sizə açıq və birbaşa deyirəm. Bu, istisnadır. Ktriç Nersisyan (bütün ermənilərin katolikosu II Qareginin dünyəvi adı–S.H.) getməlidir. O, nə qədər tez getsə, bir o qədər yaxşıdır. Onu heç nə xilas etməyəcək", – deyə Paşinyan bildirib.

***

Qeyd edək ki, Ermənistan hakimiyyəti ilə kilsə arasında qarşıdurma N.Paşinyanın bu ilin mayın 30-31-də sosial şəbəkə hesabında yüksək rütbəli ruhaniləri tənqid etdiyi sərt bəyanatlarından sonra kəskinləşib. O, paylaşımlarda üstüörtülü şəkildə yazsa da, əslində, kilsənin mənəvi aşınmaya məruz qaldığına eyham vurub. Paşinyan arxiyepiskop B.Qalstanyanı nəzərdə tutaraq etdiyi ilk paylaşımında keşişi təkcə siyasi müdaxilədə deyil, mənəviyyatsızlıqda, riyakarlıqda və xalqın inancına xəyanətdə ittiham edib. Beləliklə, qarşıdurma təkcə siyasi yox, həm də əxlaqi-ideoloji müstəviyə daşınıb. Daha sonra hökumət başçısı bütün ermənilərin katolikosunun seçilməsi prosedurunun dəyişdirilməsini təklif edərək, bu prosesdə dövlətin əsas rol oynamasını irəli sürüb.

Tarixən erməni və Azərbaycan xalqları arasında qarşıdurmanın yaranmasında, milli ədavətin qızışdırılmasında xüsusi rol oyanyan, bu gün də revanşist qüvvə kimi çıxış edən Erməni Apostol Kilsəsinin zəiflədilməsi bizim maraqlarımıza uyğundur. Gəlin, bunu əsaslandırmağa çalışaq. Çünki tarixi qaynaqlar göstərir ki, iki xalqın münasibətlərinin gərginləşməsində siyasi amillərlə yanaşı, dini institutların da təsiri böyük olub. Bu baxımdan xüsusilə diqqətəlayiq nümunə erməni xalqının dini dayağı hesab edilən apostol kilsəsidir. Rəsmi olaraq mənəvi və dini dəyərlərin qoruyucusu funksiyasını daşıyan bu qurum əslində, çoxdan siyasi alətə çevrilib. Hələ XIX əsrin sonlarından etibarən Cənubi Qafqazda baş verən millətlərarası qarşıdurmalarda kilsə ideoloji mərkəz rolunu oynayaraq erməniləri azərbaycanlılara qarşı qızışdırıb.

Ötən əsrin əvvəllərində erməni silahlı dəstələrinin türk-müsəlman əhalisinə qarşı törətdiyi qırğınlarda kilsə xadimlərinin açıq-aşkar iştirakı tarixi sənədlərdə öz təsdiqini tapır. O dövrdə dini təbliğat milli kimliklə birləşdirilərək ermənilərin "tarixi torpaqlar uğrunda mübarizəyə" səfərbər edilməsi əsas hədəfə çevrilmişdi. Bu siyasət həm Osmanlı imperiyasına, həm də Azərbaycan torpaqlarına qarşı iddiaların ideoloji əsasını formalaşdırırdı.

Sovet dövründə belə kilsə öz təsir imkanlarını qoruyub saxladı. Xaricdəki erməni diaspor təşkilatları ilə sıx əlaqədə olan kilsə rəhbərliyi "tarixi ədalətsizlik" adı altında azərbaycanlılara qarşı nifrət hissini diri tutmağa çalışırdı. Hərçənd SSRİ-də dini fəaliyyət formal olaraq məhdudlaşdırılmışdı, amma dini bayram və mərasimlər vasitəsilə gizli şəkildə millətçi təbliğat aparılırdı. XX əsrin sonlarında Qarabağ münaqişəsi alovlanarkən kilsənin fəaliyyəti daha da açıq müstəviyə çıxdı. Xankəndi, Hadrut və ermənilərin kompakt yaşadıqları digər bölgələrdə keçirilən dini mərasimlərdə keşişlərin çıxışları birbaşa müharibəyə çağırış xarakteri daşıyırdı. Hətta bəzi hallarda erməni silahlı birləşmələri döyüşlərə kilsə xadimlərinin xeyir-duası ilə göndərilirdi. Beləliklə, mənəviyyat rəmzi sayılan kilsə dini deyil, siyasi məqsədlərə xidmət edən ideoloji vasitəyə çevrilmişdi.

Kilsə bu gün də eyni dəst-xətti davam etdirir. Bu dəfə Ermənistan Respublikasının dövlət siyasətinə zidd olaraq kilsə rəhbərliyi açıq şəkildə anti-Azərbaycan mövqeyi sərgiləyir. İctimaiyyət qarşısında səsləndirilən bəyanatlar, beynəlxalq dini təşkilatlara ünvanlanan müraciətlər, guya, Azərbaycanın "erməni mədəni irsinə qarşı təhdidləri" ittihamları bunun bariz sübutudur. Əslində, məqsəd dünya ictimaiyyətində yanlış təsəvvür yaratmaq, Ermənistanın əvvəlki rejimlərinin işğalçı siyasətinə bəraət qazandırmaqdır. Dini tolerantlığın, sülhün və insanları birləşdirən dəyərlərin daşıyıcısı olmaq əvəzinə, Erməni Apostol Kilsəsi əsrlərdir ziddiyyətlərin dərinləşməsində iştirak edir. O, tarixi faktların təhrif olunmasında, nifrət toxumlarının səpilməsində, Azərbaycan və türk xalqlarına qarşı düşmənçiliyin formalaşdırılmasında aparıcı ideoloji rol oynayıb. Bu isə kilsənin missiyasına tam zidd fəaliyyətdir. Erməni Apostol Kilsəsinin təsir imkanlarının zəifləməsi regionda qarşıdurma ritorikasının da gücdən düşməsi deməkdir. Eyni zamanda kilsənin nüfuzunun azalması erməni cəmiyyətində radikal çağırışlara dayaq verən ideoloji bazanın tədricən yox olmasına gətirib çıxarıb. Ona görə də bu proses Azərbaycanın maraqlarına tam uyğun gəlir və sülh gündəliyinin irəliləməsinə şərait yaradır.

***

Ermənistan Baş nazirinin parlamentdə hökumət saatı zamanı səsləndirdiyi son bəyanat da bu baxımdan diqqəti cəlb edir və Paşinyanın geri çəkilməyəcəyindən xəbər verir. Bu bəyanat ölkənin daxili siyasi gündəminin əsas müzakirə mövzusuna çevrilib. Paşinyan açıq şəkildə bildirib ki, II Qareginin vəzifədən getməsi məsələsində kompromis olmayacaq. Onun sözlərinə görə, bu, sırf mənəvi xarakterli hadisə kimi təqdim olunacaq və siyasi məzmun daşımayacaq. Baş nazirin bu sözləri əslində həm kilsənin nüfuzuna, həm də Ermənistan cəmiyyətində tarixi ənənələrə qarşı sərt mövqe kimi dəyərləndirilir. Maraqlıdır ki, Paşinyan prosesi "Eçmiədzinin mərkəzi meydanında dini-mənəvi məzmunlu böyük tədbir" kimi təsəvvür etdiyini bildirir. Bu, bir tərəfdən hökumətin kilsəni xalq qarşısında nüfuzdan salmaq niyyətindən xəbər verir, digər tərəfdən isə hakimiyyətin dini institutu tamamilə siyasi nəzarət altına almaq istədiyini göstərir.

Paşinyanın çıxışında diqqətçəkən digər məqam kilsənin insanları mənəvi dəyərlərə deyil, əksinə, nifrət və qarşıdurmaya yönəltdiyi barədə ittihamıdır. Bu, əslində, Ermənistan cəmiyyətində uzun illərdir müzakirə olunan, lakin yüksək səviyyədə açıq dillə ifadə olunmayan reallığın təsdiqi kimi qəbul edilir. Çünki Erməni Apostol Kilsəsi təkcə dini ibadət məkanı deyil, həm də siyasi və ideoloji tribuna funksiyasını daşıyır.

Bu gün Paşinyan kilsə ilə açıq qarşıdurmaya gedərək bir tərəfdən öz hakimiyyətini möhkəmləndirməyə, digər tərəfdən isə ictimaiyyətə "islahatçı lider" obrazını göstərməyə çalışır. Onun sərt ritorikası "kompromis olmayacaq" ifadəsində öz əksini tapır. Hökumət başçısı bununla həm də mesaj verir ki, köhnə siyasi-mənəvi dayaqların təsir gücü zəiflədilməlidir. Əgər Paşinyan kilsəni arxa plana keçirməyə nail olarsa, bu, Ermənistanda hakimiyyət balansının dəyişməsi, dini institutun isə təsir imkanlarının xeyli azalması ilə nəticələnəcək. Bu isə regionun sabitliyi baxımından da önəmlidir. Çünki Erməni Apostol Kilsəsinin zəifləməsi Azərbaycanla münasibətlərdə nifrət ritorikasının da zəifləməsi deməkdir.

***Səxavət HƏMİD***
***XQ***

# Ritorika var, əməl isə yox

**(əvvəli 3-cü səhifədə)**

Bunu ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya məsələləri üzrə Bürosunun direktoru Brendan Henrehen İrəvanda Ermənistanın baş nazirinin müavini Mger Qriqoryanla görüşündə deyib: "Konqreslə əməkdaşlıq çərçivəsində biz Ermənistana 145 milyon dollar verməyi planlaşdırırıq. Bu, Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu təşəbbüsü və avqustun 8-də əldə olunmuş müvafiq razılaşmalar çərçivəsində maliyyənin ilk tranşıdır". Onun sözlərinə görə, vəsait ticarət, infrastruktur, kritik mineral ehtiyatların tədarük zəncirləri və transsərhəd təhlükəsizliyin təmin edilməsinə investisiyaların dəstəklənməsi üçün istifadə olunacaq.

Digər bir məsələ Azərbaycanın əsas hissəsindən Naxçıvana maneəsiz keçidin detallarıdır. Ermənistan parlamentində çıxışı zamanı Baş nazir Nikol Paşinyan azərbaycanlıların Zəngəzur dəhlizindən (TRIPP) necə keçəcəklərinə dair suala cavab verərkən bildirib ki, sərhəddə pasportların oxunması üçün xüsusi cihazlardan istifadə ediləcək. Paşinyan Birləşmiş Ərəb Əmirliklərini misal gətirərək deyib ki, bu ölkənin sərhədçiləri ölkəyə daxil olan şəxslərin pasportlarını yoxlamır, bunu texnologiya vasitəsilə gerçəkləşdirir. Onun sözlərinə görə, bu sistem nəticəsində insan müdaxiləsi minimuma enəcək, sərhədçilər yalnız şübhəli hallarda müdaxilə edəcəklər. Bu açıqlama ilk baxışdan texniki detal təsiri bağışlasa da, əslində, həm siyasi, həm də psixoloji mənada xüsusi önəm daşıyır. Məsələ burasındadır ki, "maneəsiz keçid" anlayışı uzun müddətdir rəsmi Bakı ilə İrəvan arasında mübahisə doğuran mövzulardan biri olub. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə bəyan edib ki, Naxçıvana gedəcək vətəndaşlar və yüklər heç bir halda erməni sərhədçiləri ilə fiziki təmasda olmamalıdır: "Bizim yüklər və vətəndaşlar hər dəfə orada erməni sərhədçinin simasını görməli, burada heç bir fiziki təmas olmalı deyil".

Bu, Bakının qəti mövqeyidir və tərəflər arasında danışıqlarda əsas şərtlərdən biri kimi irəli sürülüb. Paşinyanın "oxuma cihazları" barədə bəyanatı, əslində, bu tələbin müəyyən mənada qarşılanması kimi qiymətləndirilə bilər. Çünki sərhəd-keçid prosesində erməni sərhədçisinin fiziki iştirakı minimuma endirilir, vətəndaş sadəcə pasportunu cihazdan keçirir. Burada artıq "görünən sima" yox, texniki prosedur işləyir. Lakin Azərbaycan üçün "maneəsiz keçid" yalnız fiziki təmasın olmaması iləmi məhdudlaşır, yoxsa ümumiyyətlə heç bir yoxlama prosedurunun aparılmamasını nəzərdə tutur? Bu sual hələlik açıq qalır. Paşinyanın açıqlamaları həm Ermənistan cəmiyyətində "suverenliyin qorunması" təəssüratı yaratmaq, həm də Azərbaycanın əsas şərtini müəyyən qədər nəzərə almaq məqsədi daşıyır.

***Musa BAĞIRLI***
***XQ***

**Ermənistanın üçüncü prezidenti, Xocalı cəlladı Serj Sarkisyan yenə sərsəmləyib. O, ölkənin daxili ictimai rəyinə hesablanmış fikir bildirib və ilk baxışdan məsələnin üzərində dayanmağa ehtiyac yoxdur. Amma Serjikin nə dediklərinə diqqət yetirməyimizin səbəbi var.**

# Ermənistanı Nepala çevirmək cəhdi



## *Serj Sarkisyan yenə sərsəmləyib*

Qeyd edək ki, Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalının Prezident İlham Əliyevdən bu il avqustun 27-də götürdüyü müsahibədə suallardan biri Ermənistanda daxili siyasi dəyişikliyin baş verəcəyi təqdirdə, bunun Bakı-İrəvan sülh prosesinə xələl gətirib-gətirməyəcəyi ilə bağlı idi. Dövlətimizin başçısının suala cavabı belə olmuşdu: "Bunu söyləmək çətindir, yalnız ehtimal edə bilərəm. Ümid edirəm ki, prosesə heç bir müdaxilə olmayacaq. Lakin yenə də məndə yüz faiz zəmanət yoxdur, çünki Ermənistanın daxili siyasəti barədə tam məlumatlı deyiləm. Bilirik ki, gələn yay Ermənistanda parlament seçkiləri keçiriləcək".

Prezident İlham Əliyev onu da bildirmişdi ki, güclü xarici müdaxilə olarsa, sülh razılaşması pozula bilər. Amma dövlətimizin başçısı bunun Ermənistanın özü üçün çox zərərli olacağını da vurğulamış və əlavə etmişdi ki, Vaşinqtonda sənədlərin kim tərəfindən imzalanmasından asılı olmayaraq, onlar Ermənistanın adından Ermənistan lideri tərəfindən imzalanıb: "Vaşinqtonda imzalanan sənədin əhəmiyyəti ondan ibarətdir ki, hər iki tərəf bir-birinin ərazi bütövlüyünü tanıyır və gələcək təmaslarını beynəlxalq hüququn bu fundamental tezisi əsasında planlaşdıracaq. Əgər onlar bizim ərazi bütövlüyümüzü tanımaqdan imtina etsələr, biz də onların ərazi bütövlüyünü tanımaqdan imtina edəcəyik. Burada kim qazanacaq, kim uduzacaq? Məncə, bu, ritorik sualdır. Ona görə hesab edirəm ki, Ermənistanın istənilən gələcək hökumətində kifayət qədər müdriklik, ağlabatan yanaşma olacaq ki, Vaşinqtonda razılaşdığımızı şübhə altına almasın. Bir daha qeyd edirəm ki, bu, iki dövlət arasında razılaşmadır. Bu, Paşinyan ilə mənim razılaşmamız deyil".

Prezident İlham Əliyevin bu fikirlərini təsadüfən qabartmadıq. Məsələ ondadır ki, məhz S.Sarkisyan kimilər Ermənistanın Azərbaycanla sülh yolunu kəsmək iddiasını daşıyan potensial qüvvə hesab edilirlər. Özü də Serjik mövcud "ampluada" tək deyil. Onun Ermənistanın ikinci prezidenti Robert Koçaryan kimi "klandaşı" var. Bu məxluqların ikisinin də bağlı olduqları eyni mərkəzə gəlincə, gözlər önündə Rusiya canlanır.

Əslində, S.Sarkisyan haqqında söz açacağımız fikirlərini dilə gətirərkən, ümumən ölkəsində siyasi fəaliyyətlə məşğul olarkən, məhz Şimalın direktivlərini rəhbər tutur. Hərçənd, Moskvanın tam şəkildə Koçaryan-Sarkisyan ikilisi üzərinə siyasi sərmayə yatırdığını söyləmək mümkün deyil. Çünki onların heç birinin erməni xalqı içərisində nüfuzu yoxdur. Nəinki yoxdur, sıravi ermənilər ikiliyə nifrət bəsləyirlər.

Əlqərəz, iqtidarda olduğu müddətdə erməni xalqının yalnız hiddət və qəzəbini qazanmış, tutduğu prezident postundan biabırçı şəkildə uzaqlaşdırılmış S.Sarkisyan jurnalistlərə açıqlamasında bildirib ki, "hakimiyyətin dəyişdirilməsi məsələsi həmişə bizim gündəmimizdə olub və qalmaqdadır. Bunun üçün ən doğru və optimal variant baş nazirə etimadsızlıq ifadə etməkdir".

Göründüyü kimi, Serjik hakimiyyətə gəlməyin seçki yolunu təsəvvür etmir. Hər halda, bu barədə söz açmır. Çünki xalq içərisində hörmətə malik olmadığının fərqindədir. Üstəlik, Sarkisyan kimi məxluqlar üçün sivil mübarizə metodları istisnadır. Onların təfəkkürləri yalnız dağıdıcılıq, qəddarlıq, qətl və terror üzərinə fokuslanıb ki, fikrimizin sübutu olaraq bir məqama nəzər salacağıq.

Hələlik onu deyək ki, 2026-cı ilin yayında Ermənistanda parlament seçkiləri keçiriləcək. Hakim "Vətəndaş sazişi" partiyası həm də prosesə hazırlıq məqsədi ilə bu il sentyabrın 20-də qurultay düzənləyəcək. Yəni qurum öz qüvvələrini təmərküzləşdirməyə çalışacaq. Sarkisyan isə ölkə parlamentini məsxərə obyektinə çevirməklə məşğuldur: "Parlament təkcə danışılan yer deyil, həm də qulaq asılan məkandır, qulağı olan eşidəcək. Üstəlik, parlament dinləmələrində əsasən deputat olmayan, ildə bir-iki dəfə Milli Assambleyanın tribunasından söz demək imkanı əldə edən şəxslər çıxış edirlər".

S.Sarkisyan açıqlamasında, həmçinin, parlament müxalifətinin baş nazir Nikol Paşinyana etimadsızlıq göstərilməsi məsələsi ilə bağlı dinləmələrə təşəbbüs göstərdiyini xatırladıb. Biz isə xatırladırıq ki, Ermənistanda hakimiyyətə etimadsızlıq məsələsi 2025-ci ildən ortaya atılmış siyasi oyundur. İlk dəfə aprelin 28-də belə bir cəhd olmuşdu. Həmin gün "We Are Awake" ("Biz Oyandıq") hərəkatının üzvləri fərdi məktublar göndərərək Milli Assambleyada Paşinyana qarşı etimadsızlıq səsləndirmək təşəbbüsünə başlamağı təklif etmişdilər. Lakin cəhd uğursuz alınnmışdı.

Hakimiyyətə etimadsızlıqla bağlı ikinci cəhd mayın 2-də qeydə alınmışdı və Sarkisyanın haqqında söz açdığı da elə budur. Həmin gün parlamentin "Ermənistan" fraksiyasının üzvləri bəyan etmişdilər ki, Paşinyanın impiçmenti prosedurunu başlatmaq üçün fraksiya üzvləri öz imzalarını verməyə hazırdırlar. Məqsəd ümumilikdə minimum 36 deputat imzasını toplamaq idi ki, buna nail olunmadı. Nəhayət, mayın 9-da Ermənistanda Birləşmiş Milli Konstitusiya Partiyası (United National Constitutional Party) deyilən siyasi qurum da baş nazir Paşinyana qarşı impiçment təşəbbüsünü irəli sürmüşdü ki, bu məsələ də hazırda it-bata düşmüş durumdadır.

Bəli, Ermənistanda hakimiyyətə qarşı etimadsızlıq kampaniyalarının heç biri nəticə vermir. Yəni S.Sarkisyan mənasız şeylərdən danışır. Əslində, onun ölkə parlamentini məsxərə predmetinə çevirməsi də təsdiqləyir ki, Serjik özü də barəsində söz açdığı məsələnin ciddiliyinə inanmır, yalnız danışmaq xatirinə danışır. Onun Fransada baş nazirin dəyişməsindən söz açması da uğursuz müqayisədir. Çünki Fransada prezident Emmanuel Makronun hakimiyyətdə olduğu müddət ərzində beşinci dəfə baş nazir dəyişməsi dövlət başçısının idarəçilikdəki uğursuzluğunu pərdələmək və xalqda özünə qarşı yaranmış qəzəbi yumşaltmaqdan irəli gəlir. Makron, obrazlı desək, baş nazirləri günah keçiləri kimi əldən verir.

Sonda bildirək ki, S.Sarkisyanın demək istədiyi başqadır. Əvvəldə bu məxluqun təfəkkürünün yalnız dağıdıcılığa, terrora və qətllərə kökləndiyini vurğulamışdıq. O, məhz bu xislətini Nepalda bir neçə gün əvvəl reallaşmış dövlət çevrilişinə nəzərən işə salır. "Dünyada iki böyük hadisə baş verdi — Nepalda və Fransada. Xalqın etimadını itirmiş hökuməti "uzaqlaşdırmağın" və ya impiçment elan etməyin iki yolu var. Bir yol Nepalda olduğu kimi zorakılıq və qətllər vasitəsilə, digər yol isə Fransada olduğu kimi parlament vasitəsilə. Bəs biz xalqımıza nə təklif edə bilərik?", - deyə ritorik sual səsləndirən Sarkisyan nəyi təklif etdiyini açıqlamır. Göründüyü kimi, o, yalnız təhrik yolu tutur.

Ən sonda onu da deyək ki, Sarkisyanın daha çox Nepal ssenarisinə ümid bəslədiyi birmənalıdır. Məlum olduğu kimi, sözügedən Asiya ölkəsində kütləvi zorakılıqlar qeydə alındı. O zorakılıqlar ki, Serjik belə bir durumu yaşamağa tam layiq idi və 2018-ci ildə bunun baş verməməsi üçün Tanrıya şükr etməlidir. Ancaq S.Sarkisyanın hazırda söylədikləri Ermənistanda mövcud hakimiyyətə qarşı qəsd ritorikasının hələ də aktual səciyyə daşıdığının sübutudur.

Qəsdin isə Azərbaycanla sülh prosesinə təsiri birmənalıdır. Əlbəttə, Ermənistanda zorakı yolla hakimiyyət dəyişikliyi baş versə və potensial yenilər İrəvanı Bakı ilə barışdan uzaq tutmağa çalışsalar, durumun böyük ölçüdə ziyanı ancaq Ermənistanın özünə dəyəcək. Prezident İlham Əliyevin də "Əl-Ərəbiyyə" telekanalına müsahibəsində vurğuladığı bu idi: "Yəni, demək istərdim ki, əgər Ermənistanın hər hansı gələcək hökuməti hakimiyyətə gəldiyi vaxtdan asılı olmayaraq, Vaşinqtonda imzalanan sənədi şübhə altına qoyarsa, Ermənistan ciddi çətinliklərlə üzləşəcək. Çünki regiondakı güc balansı hər baxımdan tamamilə bizim xeyrimizədir. Düşünürəm ki, bu, hər kəsə aydındır. Əgər Ermənistan bir daha bizim ərazi bütövlüyümüzü şübhə altına qoysa, biz də adekvat cavab verəcəyik".

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Konstitusiya və suverenlik: müasir müstəqil Azərbaycan dövlətçiliyi kontekstində




## IV MƏQALƏ

### Azərbaycan dövlətinin ali məqsədi

İctimai münasibətləri tənzimləyən təsisedici güc kimi Konstitusiyada dövlətin ali məqsədi də dəqiq ifadə edilməlidir. Bu məsələnin tarixi, siyasi, geosiyasi və dövlətçilik ənənəsinin gözlənilməsi baxımından əhəmiyyəti vardır. Çünki müasir dövlətin hansı anlamda ali məqsədi qarşısına qoymasından onun identikliyi ilə bağlı konkret təsəvvür yaranır.

Bununla yanaşı, ictimai münasibətlərdə dövlətin yeri və rolu məsələsinə də konstitusion aydınlıq gətirilir. Dövlətçiliyin hazırkı mərhələsində onun daxili və xarici suverenliyin məzmunu üçün vacibliyini dərk etməyimiz gərəkdir. Çünki indi demək olar ki, hər bir müstəqil dövlətin Konstitusiyasında ali məqsəd gəlişigözəl terminlərlə ifadə edilir. Ancaq onun hansı səviyyədə reallaşdığı artıq praktiki fəaliyyətdə müəyyən olunur.

Qısa bir müqayisə aparmaq istərdik. Ermənistan konstitusiyasında "dövlətin ali məqsədi" maddəsinə rast gəlmədik. Ancaq onu dolayısı ilə ifadə edə bilən maddələr mövcuddur. Məsələn, üçüncü maddə belə adlanır: "İnsan, onun ləyaqəti, əsas hüquqları və azadlığı ali dəyərdir". 9-cu maddədə isə yazılmışdır ki, "Ermənistan Respublikasının xarici siyasəti bütün dövlətlərlə mehriban qonşuluq və qarşılıqlı faydalı münasibətlər qurmaq məqsədi ilə beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq həyata keçirilir".

9-cu maddədə bütün dövlətləri "mehriban qonşuluq" kateqoriyasında birləşdirmək cəhdinin real və məntiqi sağlamlığını bir kənara qoyaraq, praktikada rəsmi İrəvanın Ermənsitan konstitusiyasının nə 3-cü, nə də 9-cu maddələrinə qətiyyən əməl etmədiyinin fakt olduğunu deməliyik.

Birincisi, Ermənistan indi ərazisi sayılan Qərbi Azərbaycandan 1989-1993-cü ilin ikinci yarısına qədər olan müddətdə həmin ərazinin aborigen qövmü olan azərbaycanlıları zülm verə-verə qovanda hansı insan hüququ və ləyaqətinə əməl edirdi?

İkincisi, bunu etməklə qonşusu olan Azərbaycana qarşı hansı mənada "mehriban qonşuluq" mövqeyi tutmuşdu?

Real olaraq Ermənistan müstəqillik əldə etdiyini bəyan etməklə paralel olaraq öz konstitusiyasına tam zidd şəkildə olaraq vətəndaşları olmalı olan azərbaycanlıları vəhşicəsinə deportasiya edir, həm də Azərbaycan Respublikasının ərazisinə havadarlarının ciddi dəstəyi ilə təcavüz həyata keçirirdi. Bu kimi reallıqların fonunda isə utanmadan konstitusiyasına "insan haqları", "mehriban qonşuluq" kimi ibarəli terminlər daxil edirdi.

Bu ziddiyyətin fonunda əminliklə deyə bilərik ki, Ermənistanın konstitusiyasında yazılanlarla vurğulanan faktları müqayisə edəndə erməni rəsmi dairələri "konstitusion riyakarlıq" etmişdir.

Bu əlamət indi də qalmaqdadır. Amma söz veriblər ki, həmin rəzillikləri aradan qaldıracaqlar. Əslində, bu etiraf da bizim haqlı olduğumuzun sübutlarından biridir.

Lakin belə nümunələr onu göstərir ki, müstəqil dövlətin Konstitusiyasında qəbul etdiyi maddələrə əməl etməsi dünya miqyasında prinsipial məsələdir.

Bütün bunların fonunda Azərbaycan Konstitusiyasının hər bir maddəsinə tam əməl etməsi region üçün çox dəyərli nümunədir. Faktlarımız kifayət qədərdir. Onların işığında ictimai münasibətlərin konstitusion tənzimlənmələrinə baxaq.

### 12-ci maddə

Azərbaycan Respublikası Konstitutsiyasının 12-ci maddəsində yazılmışdır: "I. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir.

II. Bu Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir".

Cəmiyyətin maraqları kontekstində bu maddədə güclü ideya əksini tapmışdır.

Birincisi, insan və vətəndaşların hüquqları və azadlıqlarının təmin edilməsi konstitusion öhdəlikdir. Burada "insan" və "vətəndaş" sözləri təsadüfən yanaşı verilməmişdir. Yəni Azərbaycan Respublikası bir dövlət olaraq həm, ümumiyyətlə, insana (onun hansı ölkənin vətəndaşı olmasından asılı olmayaraq), həm də ayrıca Azərbaycan vətəndaşna yüksək sayğı ilə yanaşır. Onun hüquq və azadlıqlarının təmin edilməsinin konstitusion təminatçısıdır. Ölkə vətəndaşının hüquq və azadlıqları daxili suverenlik kontekstində hüquqla dövləti münasibətin vəhdətindən qaynaqlanır. Azərbaycan öz vətəndaşlarına hüquqi cəhətdən yüksək qiymət verməklə yanaşı, həm də bir dövlət olaraq onun yüksək dəyərə malik olduğunu Konstitusiyada təsbit edir.

Bununla yanaşı, Konstitusiyada, ümumiyyətlə, insan hüququ və azadlığına təminat vermək xarici suverenliyin mühüm elementidir. Çünki bununla Azərbaycan Respublikası həm beynəlxalq hüququn normalarına əməl etdiyini, həm də bütövlükdə humanitarlığı yüksək qiymətləndirdiyini vurğulayır.

Məlumdur ki, humanitarlıq müasir geosiyasi və siyasi təlimlərdə əsas tədqiqat mövzularından və dövlətin kimliyini ifadə edən faktorlardan biri kimi qəbul edilir. Bu prizmadan baxanda Azərbaycan Respublikasının erməni əhaliyə qarşı da kifayət qədər hüquqi və humanitar münasibət göstərdiyi aydın olur. İndiki mərhələdə də Azərbaycan dövlət kimi Ermənistana qarşı yüksək hüquqi yanaşma və həm də humanitarlıq nümayiş etdirir.

Dünya miqyasında isə neokolonializmə, İslamofobiyaya və antihumanitarlığa qarşı davamlı mübarizə aparmaqla Azərbaycan xarici suverenliyini Konstitusiyada müəyyənləşdirdiyi kriteriyalar üzrə təmin edir.

12-ci maddənin I bəndinin ikinci hissəsi çox mühüm bir sosial məqamı əks etdirir. Azərbaycan Respublikası vətəndaşlarının layiqli həyat səviyyəsinin təmin edilməsinin ön plana çıxarılması dövlətçilik aspektində əsas məqamlardan biridir. Əgər dövlətin strateji hədəflərindən biri kimi insanların həyat səviyyəsinin layiqli olması göstərilirsə, bu, bütövlükdə identikliyin əsas məqamını ifadə etmək deməkdir. Məsələnin bu aspeki birbaşa ictimai münasibələrin tənzimlənməsinə aid olduğundan və digər cəhətləri də müəyyən etdiyindən üzərində geniş dayanaq.

### Vətəndaşın layiqli həyat səviyyəsi

Bu məsələ insan fəaliyyətinin bütün sferalarını özündə ehtiva edir. Sosial, mədəni, siyasi, iqtisadi, hüquqi, mənəvi-əxlaqi və digər aspektlər həmin termində sintez edilmişdir. Çünki insanın layiqli həyat səviyyəsinə nail olması bütövlükdə sosial-mədəni mühitdə formalaşdırılan münasibətlər sistemi ilə, yaradılan mühitlə müəyyən edilir. Bu mənada daxili suverenlikdə insan kapitalı mərkəzi yer tutur. Onun xarici suverenlik kontekstində təmini 12-ci maddənin II hissəsində dəqiq ifadə edilmişdir – "Bu Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir".

Bu müddəalardan maraqlı fəlsəfi qənaət əldə etmək mümkündür. Belə alınır ki, Azərbaycan Respublikasının Konstitusiyası ali təsisedici güc kimi ictimai münasibətləri elə tənzimləyir ki, səmərəsi insanın ləyaqətli həyat səviyyəsinə nail olmaqla "ölçülür". Dövlət sosialyönümlüdür və insanın rifahının yüksəldilməsi əsas hədəflərindən biridir. Buna görədir ki, 2030-cu il üçün strateji məqsəd kimi "qüdrətli dövlət və yüksək rifah cəmiyyəti" nəzərdə tutulmuşdur.

Konstitusiyanın 24-cü maddəsi məsələnin hüquqi prinsipi tərəfini aydınlaşdırır. Həmin maddədə vurğulanır:

"I. İnsan ləyaqəti qorunur və ona hörmət edilir.

II. Hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır.

III. Hüquqlar və azadlıqlar hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə edir. Hüquqlardan sui-istifadəyə yol verilmir".

Burada vətəndaşın təbii hüquqlarının təsbiti ilə onun cəmiyyət qaşısında daşıdığı məsuliyyət vahid məntiqi çərçivədə verilir. Yəni insanın hüquqları və azadlıqları nə dərəcədə qəbul ediləndirsə, onun vətəndaş olaraq toplum qarşısında məsuliyyəti də bir o qədər əhəmiyyətli və zəruridir. Burada konstitusion əsasda fərdi səviyyədən toplumsal miqyasa keçid vardır. Hər bir fərd ayrıca mövcud ola bilmədiyi kimi, onun kollektiv birgəyaşam çərçivəsində qarşılıqlı öhdəliklər götürməsi və onlara əməl etməsi də tam real sosial hadisədir.

Həmin prosesdə Azərbaycan Konstitusiyası çox vacib bir şərti də xüsusi vurğulayır. Azərbaycan vətəndaşları qanun qarşısında bərabərdirlər. Bu şərt ictimai münasibətlərin sosial, siyasi, hüquqi və mədəni aspektlərinin təməlidir.

25-ci maddədə yazılır: "III. Dövlət, irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, etnik, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır".

Beləliklə, sonuncu konstitusion şərt ümumilikdə Azərbaycan Respublikasında ictimai münasibətlərin tənzimlənməsinin siyasi, sosial, mədəni və hüquqi sərhədlərini müəyyən edir.

### Dövlətçilik və ictimai münasibətlər

Konstitusiyanın dövlətçiliyin əsaslarını möhkəmlədən və ictimai münasibətləri tənzimləyən ali təsisedici güc kimi qısa təhlili göstərir ki, müasir tələblərə cavab verən Ana Yasa hazırlanmışdır. Əlbəttə, XXI əsrin çağırışları və dəyişmə dinamikası elə xarakterlidir ki, hər bir dövləti faktorun yeniləşməsi və dəyişməsi zərurəti daim gündəmdədir. Ancaq Ulu öndər Azərbaycan Respublikasının Konstitusiyasının formalaşdırıcı kriteriyalarını elə müəyyən etmişdir ki, dövrün tələbinə uyğun yeniliklər etmək olur və onlar milli maraqlara, dövlətçiliyə, ümumilikdə güclü Azərbaycanın daha da inkişaf etməsinə xidmət edirlər.

Nümunə kimi, Prezident İlham Əliyevin yeni tarixi mərhələni müəyyən etməsi əsasında Azərbaycanda müşahidə edilən total yeniləşmə prosesinin bütün səviyyələrdə müstəqil dövlətçiliyin əsaslarını daha da möhkəmləndirdiyi, ictimai münasibətləri yeni keyfiyyət səviyyəsinə yüksəltdiyi və bütün bunların insan kapitalının inkişafına xidmət etdiyini göstərə bilərik.

Ayrıca, Prezident İlham Əliyevin ölkənin strateji inkişafı üçün müəyyən etdiyi kursun əsas hədəfinin qüdrətli dövlət və yüksək rifah cəmiyyəti olması bütün məqamlara aydınlıq gətirir. Bu yolda Azərbaycan Konstitusiyasının ali təsisedici güc kimi funksiyasını tam yerinə yetirməkdə davam edəcəyinə əminik. Bununla bərabər Azərbaycan Respublikasının həm daxili, həm də xarici suverenliyinin yeni mükəmməl səviyyəyə yüksələcəyi şübhə doğurmur!

Azərbaycan müstəqil dövlət və vətəndaş cəmiyyəti kimi Ümummilli lider Heydər Əliyevin Konstitusiyamızla bağlı ifadə etdiyi aşağıdakı tövsiyələrini heç zaman unutmayacaq. Ulu öndər öyrədirdi: "Azərbaycanın tarixi keçmişi, bugünkü reallıqlarını və gələcək perspektivlərini əks etdirməsi, ümumbəşəri və milli dəyərlərə söykənməsi Konstitusiyamızı səciyyələndirən əsas cəhətlərdir. Konstitusiya yaratmaq üçün şübhəsiz ki, tarixi keçmişimizə nəzər salmalıyıq, amma eyni zamanda, ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi naliyyətlərdən, təcrübədən istifadə etməliyik, bəhrələnməliyik"!.

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Rusiya miqrantları hədəfə alıb

**Bu ölkədə qeyri-qanuni yaşayan əcnəbilərin hüquqi statuslarını leqallaşdırmaq üçün verilən müddəti başa çatıb. Öz statuslarını qanunilәşdirə bilməyənləri hüquqi sanksiyalar gözləyir.**

Artıq Rusiya Daxili İşlər Nazirliyi açıqlayıb ki, 11 sentyabrdan etibarən ölkədə qanunsuz şəkildə qalan əcnəbilər haqqında məlumatlar rəsmi nəzarət reyestrinə daxil ediləcək. Bu şəxslər ölkədən deportasiya ediləcək və gələcəkdə Rusiyaya giriş hüququndan məhrum olunacaqlar. Eyni zamanda, onların yaşayış yerini dəyişmək, daşınmaz əmlak və nəqliyyat vasitəsi almaq, bank hesabı açmaq və hüquqi şəxs yaratmaq kimi hüquqları da məhdudlaşdırılacaq. Həmçinin əcnəbilər yerli vətəndaşla nikaha daxil ola bilməyəcəklər. İstisna: ödənişlərin yerinə yetirilməsi məqsədilə pul köçürmələri, nəzarətdəki şəxsin hesabına pul köçürülməsi və ayda 30 min rubla qədər nağd pul əldə edilməsinə icazə veriləcək.



Rusiya DİN, həmçinin vurğulayıb ki, Rusiyada qanunsuz qalan azyaşlı əcnəbilərin məktəblərə və uşaq bağçalarına qəbulu çətinləşəcək. Tədbirlər Prezident Vladimir Putinin aprel ayında imzaladığı fərman əsasında həyata keçirilir və Rusiyanın miqrasiya siyasətində daha ciddi və sərt yanaşmanın tətbiq olunduğunu göstərir.

Bu siyasət fonunda Rusiya Dövlət Dumasında hazırda müzakirə olunan yeni qanun layihəsi isə vəziyyəti daha da çətinləşdirəcək. Layihəyə əsasən, əmək miqrantlarının ailə üzvlərinin ölkəyə gətirilməsinə qadağa qoyulacaq. Rəsmi arqument ondan ibarətdir ki, miqrant ailələrinin Rusiyada yaşaması sosial infrastrukturda, ilk növbədə təhsil və səhiyyə sistemində əlavə yük yaradır. Yeni qaydalara görə, yalnız işləmək məqsədilə gələn şəxslərə üstünlük veriləcək və onların ailələrinin Rusiyaya daxil olması əmək fəaliyyəti şərti ilə mümkün olacaq. Yəni, qanun layihəsi ona hesablanıb ki, ailəli şəxslər də əmək fəaliyyətilə məşğul olsunlar. Bundan sonra onlar Rusiya ərazisində uzun müddət yaşamaq hüququ alacaqlar. Əks halda, onlar geri – öz vətənlərinə qayıtmalı olacaqlar.

* * *

Bu yanaşmanın hədəfi sadəcə sosial yüklənmənin azaldılması deyil, həm də iqtisadi dividentlər əldə etməkdir.

Mövzu ilə bağlı **Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun şöbə müdri Mahir Zeynalov** XQ-yə dedi ki, yeni qanun layihəsinə əsasən, miqrantların ailə



üzvlərinin əmək bazarına daxil olması əsas şərtdir: "Bu addımın əsas məqsədlərindən biri dövlət büdcəsinə əlavə vergi və sığorta ödənişlərinin cəlb olunmasıdır. Ailə üzvlərinin də işləməsi nəticəsində rəsmi şəkildə əmək fəaliyyəti göstərən insanların sayı artacaq və bu da müvafiq olaraq iqtisadiyyata əlavə maliyyə axınına səbəb olacaq. Rəsmi Moskva bu yolla gəlir bazasını genişləndirməyi və dövlətin sosial fondlarına daha çox vəsait cəlb etməyi hədəfləyir. Bununla yanaşı, yeni qanun layihəsi miqrasiya axınının tənzimlənməsində mühüm rol oynayacaq. Aparılan hesablamalara görə, əgər qanun qüvvəyə minərsə, ölkəyə daxil olan miqrantların sayı 15-20 faiz azalacaq. Bu isə o deməkdir ki, qanun yalnız iqtisadi deyil, həm də sosial və demoqrafik istiqamətdə tənzimləyici funksiyanı yerinə yetirəcək".

Bu proseslərin Azərbaycandan Rusiyaya üz tutan miqrantlar üçün də ciddi problem yarada biləcəyinə diqqəti çəkən M.Zeynalov hazırda Rusiyada 10 minlərlə Azərbaycan vətəndaşının əmək fəaliyyəti ilə məşğul olduğunu dedi: "Qanunun qüvvəyə minməsi Azərbaycanlı ailələr üçün yalnız sosial deyil, həm də psixoloji və humanitar çətinliklər yaradacaq. Çünki bir çox ailələr uzun illərdir Rusiyada birgə yaşayır, uşaqlar orada məktəbə gedir, ailə həyatlarını həmin ölkədə qurublar. Lakin yeni hüquqi çərçivə bu nizamı pozacaq".

Miqrantların sosial inteqrasiyasına münasibətdə də ciddi dəyişikliklər müşahidə olunur. Rusiya Təhsil Nazirliyi, Daxili İşlər Nazirliyi və digər qurumların müəllimlərə təqdim etdiyi metodik göstərişlər miqrant uşaqların davranışlarına və yazı işlərinə xüsusi diqqət ayrılmasını tövsiyə edir. Müəllimlərə şagirdlərin ekstremist meyillər göstərib-göstərmədiyini, rus dəyərlərinə qarşı hörmətsizlik ifadə edib-etmədiyini izləmək tapşırılır. Bu isə dolayısı ilə miqrant uşaqların daim nəzarət altında saxlanılması və onların azad düşüncəsinə təsirin artması deməkdir.

Digər tərəfdən, son vaxtlar Rusiya Təhsil üzrə Nəzarət Xidməti (Rosobrnadzor) tərəfindən tətbiq olunan rus dili testləri əcnəbi uşaqların məktəblərə qəbulunda əsas şərtlərdən biridir. 2025-ci ilin aprel–avqust ayları ərzində 23 mindən çox əcnəbi uşaq məktəbə qəbul üçün müraciət etsə də, yalnız 12,6 faizi testdən uğurla keçib. Nəticə göz qabağındadır. Bu, faktiki olaraq, əcnəbi uşaqların 87 faizinin rus məktəblərinə qəbul edilməməsi deməkdir. Səbəb rus dilini lazımi səviyyədə bilməmək və ya valideynlərin sənədlərinin qaydasında olmamasıdır. Dövlət Dumasının spikeri Vyaçeslav Volodin bu barədə deyib: "87,4 faizi rus dili imtahanından keçə və ya ölkəmizdə olmalarının qanuniliyini təsdiq edə bilməyib. Bu, yeni qanunun nəticəsidir".

Spikerin fikrincə, standartlar təhsil prosesinin uyğunlaşdırılmasına, hər bir uşağın sosial adaptasiyasına və məktəb proqramının uğurla mənimsənilməsinə yönəlib: "Rus dilini bilmədən buna nail olmaq mümkün deyil".

Qeyd edək ki, belə yanaşma təhsilə çıxış imkanlarını məhdudlaşdırmaqla yanaşı, inteqrasiya prosesini də çətinləşdirir. Rusiya hakimiyyəti isə bildirir ki, miqrasiya proseslərinə nəzarət gələcəkdə də gücləndiriləcək və qanunsuz miqrasiya hallarının qarşısının alınması istiqamətində sistemli addımlar atılacaq.

Digər narahatedici məqam miqrantların Rusiyada hərbi məqsədlərlə istifadəsi ilə bağlı yayılan məlumatlardır. Məlumdur ki, Ukraynada davam edən müharibə Rusiya ordusunda canlı qüvvə çatışmazlığı yaradıb və bu boşluğun doldurulması üçün miqrantlara yönələn təzyiqlər son vaxtlar artıb. Onlar müxtəlif yollarla təhdid, şantaj və deportasiya qorxusu ilə hərbi xidmətə cəlb olunmağa məcbur edilir. Bu, açıq şəkildə insan hüquqlarının pozulması və zorla xidmətə cəlbetmənin nümunəsidir. Bu siyasət təkcə miqrantlara deyil, eyni zamanda Rusiya vətəndaşı olan, lakin rus olmayan xalqlara, o cümlədən azərbaycanlılara da şamil olunur.

Məsələn, Rusiyadakı azərbaycanlılar 4 min manata ekvivalent olan maaş və vətəndaşlıq üçün rus ordusu ilə müqavilə imzalayır. İndi 772 azərbaycanlının aqibətindən xəbər yoxdur, onlar itkin düşmüş kimi qeydiyyatdadırlar. Bu şəxslərin çoxunun müharibədə məhv olduğu, bəzilərinin isə əsir düşdüyü ehtimal edilir.

Ümumiyyətlə, son aylar baş verən bəzi hadisələr, o cümlədən hüquq-mühafizə orqanları tərəfindən azərbaycanlılara qarşı qeyri-adekvat davranışlar qeyri-ruslara münasibətdə ayrı-seçkiliyin və diskriminasiyanın artdığını göstərir. Bu isə Rusiyanın milli qanunvericiliyinə və beynəlxalq hüquqa ziddir.

Baş verənlər göstərir ki, Rusiyanın apardığı sərt miqrasiya siyasəti həm insan hüquqları, həm də etnik azlıqların gələcək taleyi baxımından ciddi narahatlıqlar doğurur. Azərbaycanın artan beynəlxalq nüfuzu, müstəqil və milli maraqlara əsaslanan siyasəti fonunda bu cür təzyiqlər ölkəmizə qarşı qərəzli yanaşmaların və regionda artan təsir gücümüzə qarşı narahatlığın təzahürüdür.

Azərbaycan cəmiyyəti və dövləti belə təzyiqlərə qarşı milli həmrəylik və soyuqqanlı yanaşma ilə soydaşlarımızın hüquqlarının müdafiəsini və onların beynəlxalq normalara uyğun yaşamaq hüququnun təmin olunmasını prioritet məsələ hesab edir. Rusiyada yaşayan vətəndaşlarımızın hüquqlarının qorunması istiqamətində bundan sonra da tədbirlər görüləcək, istənilən təzyiqə qarşı hüquqi-siyasi mexanizmlərlə cavab veriləcək.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Türkiyə həmişə Azərbaycanın “enerji yürüşü”nün yanındadır

**(əvvəli 1-ci səhifədə)**

Daha sonra 2007-ci ildə Bakı – Tbilisi – Ərzurum (BTƏ) qaz kəməri istifadəyə verildi. İllik ötürmə gücü 20 milyard kubmetrə çatan bu kəmər Azərbaycanın “Şahdəniz” yatağından hasil olunan qazı Türkiyə bazarına daşımaqla yanaşı, Avropaya çıxışın ilk pilləsini təşkil etdi. Ən mühüm mərhələ isə Cənub Qaz Dəhlizinin (CQD) fəaliyyəti ilə başladı.

2020-ci ilin sonunda tamamlanan CQD 3 min 500 kilometr uzunluğunda marşrut şəbəkəsini əhatə edir. Layihənin əsas seqmenti olan TANAP (Trans – Anadolu Qaz Boru Kəməri) Türkiyədən keçərək Avropa ilə birləşir. TANAP-ın ötürmə gücü hazırda 16 milyard kubmetr təşkil edir, gələcəkdə bu həcmin 32 milyard kubmetrə qədər artacağı gözlənilir.

Enerji əməkdaşlığı artıq ikitərəfli çərçivəni aşaraq çoxtərəfli əməkdaşlıq formatına çevrilib. Avropa İttifaqı (Aİ) CQD-ni “strateji prioritet layihə” elan edib. 2022-ci ilin iyulunda Brüsseldə imzalanan Azərbaycan – Aİ enerji memorandumuna əsasən, respublikamız 2027-ci ilə qədər Avropaya qaz ixracını illik 20 milyard kubmetrə çatdırmağı öhdəsinə götürüb.

Azərbaycanın neft – qaz ixracında qardaş ölkə etibarlı tranzit dövlət rolunu oynayır. “Anadolu” marşrutu isə təkcə Azərbaycanın deyil, gələcəkdə Mərkəzi Asiya resurslarının da Avropaya daşınmasına şərait yarada bilər. Türkmənistan qazının Xəzərin dibi ilə Azərbaycana, ordan isə TANAP vasitəsilə Türkiyə və Avropaya ötürülməsi perspektivləri də gündəmdədir.

Beləliklə, Azərbaycan və Türkiyənin həyata keçirdiyi enerji layihələri beynəlxalq təhlükəsizliyə ciddi töhfələr verir. Belə ki, BTC ilə Xəzər nefti Rusiyadan kənar yollarla bazara çıxarılır, bu isə geosiyasi riskləri azaldır. Türkiyə üzərindən keçən TANAP və digər layihələr isə qlobal bazarda təchizatın fasiləsizliyini gerçəkləşdirir.

İki ölkə arasında iqlim dəyişikliyi və enerji keçidi kimi prioritetlər də mühüm önəm daşıyır. Burada bir məqama diqqət yetirməklə vurğulanan fikrin əhəmiyyəti aydın nəzərə çarpır. Belə ki, BMT-nin iqlim hesabatlarına görə, qlobal istiləşməni 1,5 dərəcə ilə məhdudlaşdırmaq üçün 2030-cu ilə qədər dünya üzrə karbon emissiyaları 43 faiz azaldılmalıdır. Bu baxımdan Azərbaycan və Türkiyənin enerji gündəliyini dəyişməsi də təsadüfi xarakter daşımır.

Xatırladaq ki, Azərbaycan 2030-cu ilə qədər elektrik enerjisinin 30 faizini bərpa olunan mənbələrdən istehsal etməyi hədəfləyir. Qarabağ və Şərqi Zəngəzurun “yaşıl enerji zonası” elan olunması və adları çəkilən iqtisadi rayonlarda BP və Masdar kimi şirkətlərin günəş və külək enerji layihələrini həyata keçirmələri də qarşıya qoyulan məqsədin uğurla gerçəkləşəcəyindən xəbər verir. Türkiyədə isə bərpa olunan enerji gücü artıq 60 GW-da çatır. Bu göstərici ilə qardaş ölkə Avropada ilk beşlikdə qərarlaşır.

Bu gün Azərbaycan və Türkiyə arasında diqqətdə saxlanılan prioritetlərdən biri “yaşıl enerji dəhlizləri” konsepsiyasıdır. Xəzər və Qara dəniz vasitəsilə “yaşıl” elektrik enerjisinin Avropaya ötürülməsi bu əməkdaşlığın gələcək hədəflərindən biridir. Ümumiyyətlə, “yaşıl keçid” iki qardaş ölkə arasında həm iqtisadi, həm də siyasi imkanlar açır. Bu, ilk növbədə, investisiya cəlbi prosesində özünü aydın büruzə verir. Bərpa olunan enerji layihələrinə milyardlarla dollarlıq (təkcə 2023-cü ildə Azərbaycan bu sahədə 2 milyard dollara yaxın müqavilə imzalayıb) xarici sərmayə yatırılması da məhz elə bunun bariz ifadəsidir.

Türkiyə və Azərbaycan qarşılıqlı əməkdaşlıqda texnologiya transferinə də üstünlük verir. Belə ki, hər iki ölkə bərpa olunan enerji texnologiyalarının birgə istehsalı və tətbiqi ilə yeni sənaye sahələri formalaşdırır və bununla qlobal enerji keçidində məsuliyyətli tərəfdaş rolunu oynayaraq beynəlxalq mövqelərini möhkəmləndirir. Eyni zamanda, Azərbaycan və Türkiyə qlobal enerji bazarında sadəcə istehsalçı və tranzit ölkə deyil, həm də məsuliyyətli tərəfdaşdır. Onların enerji siyasətinin beynəlxalq öhdəliklərə sadiqlik və sabitliyə dəstək prinsipləri üzərində qurulması etibarlı əməkdaşlığın parlaq ifadəsidir. Bir sözlə, Azərbaycan və Türkiyənin uğurlu enerji əməkdaşlığı uzun bir dövrü əhatə edən təcrübəsi qlobal enerji gündəliyində özünəməxsus yer tutur. BTC-dən TANAP-a, CQD-dən “yaşıl” enerji dəhlizlərinə qədər uzanan bu yol iki ölkənin strateji tərəfdaşlıqda sarsılmaz gücünü göstərir.

Bugünkü çağırışlar – enerji təhlükəsizliyi, iqlim dəyişikliyi və “yaşıl” keçid kimi önəmli prioritetlər Azərbaycan və Türkiyənin yeni əməkdaşlıq modelləri qurmasına təkan verir. İkitərəfli əməkdaşlıq çoxtərəfli formata çevrilir, regional təşəbbüslər qlobal enerji təhlükəsizliyinə xidmət edir. Beləliklə, iki qardaş ölkə yalnız enerji tərəfdaşları deyil, həm də beynəlxalq sabitliyin, məsuliyyətin və inkişafın simvolu kimi çıxış edir. Onların qlobal enerji sistemində oynadıqları rol isə qarşıdakı onilliklərdə daha da artacaq və dünya enerji gündəliyinin formalaşmasında mühüm yer tutacaq.



Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar İzmirdə keçirilən IV Türkiyə ¬– Azərbaycan Enerji Forumunda bildirib ki, ölkələrimiz arasında həyata keçirilən və perspektivdə reallaşdırılacaq layihələr qardaşlığı daha da möhkəmləndirən yeni fürsətlər yaradır, dostluğu bir daha təsdiqləyir. Müxtəlif sahələrdə gerçəkləşdirilən əməkdaşlıqlar, məsələn, neft, təbii qaz, bərpaolunan enerji, enerji səmərəliliyi, elektrik bazarı tənzimləmələri, elektrik ötürülməsi və paylanması kimi fəaliyyətlər əlaqələrin inkişafını sürətləndirir. A.Bayraktarın sözlərinə görə, iki ölkə arasındakı qardaşlıq bağı mədəni və siyasi sahələrlə yanaşı, iqtisadi və strateji istiqamətlərdə də getdikcə dərinləşir, sarsılmadan davam edir.

“Bir millət, iki dövlət” anlayışı, xüsusilə, enerji sektorunda həyata keçirilən böyük layihələrlə konkret şəkildə öz əksini tapır. Enerji təşəbbüsləri ölkələrimizin inkişafının və rifahının ən əsas təkanverici qüvvələrindən biridir. Türkiyə və Azərbaycan bu gün malik olduqları geostrateji mövqe, zəngin resurslar və inkişaf etmiş infrastrukturla bir-birini tamamlayan layihələr gerçəkləşdirir, eyni zamanda, regional və qlobal enerji təchizatı təhlükəsizliyinə mühüm töhfələr verir. Neft və təbii qaz sahələrində indiyə qədər həyata keçirilən layihələr ortaq baxışın düzgün və nəticəyönümlü olduğunu göstərir. Bundan başqa, Azəri – Çıraq – Günəşli və “Şahdəniz” yataqları ilə təməli qoyulan əməkdaşlıq bu il imzalanan “Şəfəq – Asiman” layihəsi ilə yeni mərhələyə keçir. “Qarabağ”, “D-230” və “Dostluq” yataqlarında əməkdaşlığı gücləndirmək də əsas hədəflər arasındadır.

Ötən il mayın 14-də imzalanan “Təbii qaz sahəsinə dair Əməkdaşlıq Sazişi” də bu çərçivədə xüsusi önəm daşıyır. Bu sazişin icrası artıq ölkələrimizin enerji təhlükəsizliyini gücləndirir və regional əməkdaşlığı daha da möhkəmləndirir. Bununla yanaşı, Azərbaycanın Türkiyəyə təbii qaz ixracının artırılması istiqamətində işlərin sürətlə aparılması da diqqət mərkəzində saxlanılır. Digər tərəfdən prezidentlər Rəcəb Tayyib Ərdoğan və İlham Əliyevin rəhbərliyi ilə bu il martın 5-də açılışı gerçəkləşdirilən İğdır – Naxçıvan Təbii Qaz Boru Kəməri Azərbaycanın ayrılmaz bir parçası olan muxtar respublikanın təchizat təhlükəsizliyini təmin etməklə yanaşı, iki qardaş ölkə arasındakı bağları daha da gücləndirir. Cari il avqustun 2-də isə istifadəyə verilən Türkiyə – Suriya Təbii Qaz Boru Kəməri də yalnız enerji axınını deyil, bölgəmizdə sülh və rifahı dəstəkləyən strateji addımdır. Bu, Türkiyə və Azərbaycanın güclü infrastruktur və köklü əlaqələrlə həm regional enerji təhlükəsizliyində, həm də qlobal bazarlarda etibarlı tərəfdaş olduqlarını bir daha təsdiqləyir.

Qeyd edək ki, iki ölkə arasında enerji gündəmi təkcə neft və təbii qazla məhdudlaşmır. Türkiyə ilə Naxçıvan bölgəsini bir – birinə bağlayacaq elektrik xətti layihəsi də bu gün diqqətdə saxlanılır. Layihənin tamamlanması ilə muxtar respublikanın təchizat təhlükəsizliyinin təmin olunacağı və ölkələrimiz arasında elektrik ticarətinin yeni mərhələyə yüksələcəyi gözlənilir. Bundan əlavə, Türkiyə, Azərbaycan, Gürcüstan və Bolqarıstan arasında həyata keçirilən “Yaşıl Enerji Dəhlizi” layihəsi də əməkdaşlığın parlaq göstəricisi kimi yüksək dəyərləndirilir.

Bütün bunlar statistik göstəricilərdə də öz ifadəsini tapıb. Belə ki, indiyədək Azərbaycandan qardaş ölkəyə 120 milyard kubmetrdən çox qaz ixrac olunub, TANAP-la Türkiyəyə 35 milyard, Avropaya isə 50 milyard kubmetrdən artıq qaz nəql edilib. Bu ilin 8 ayında Türkiyəyə 6,6 milyard, Türkiyə üzərindən Avropa ölkələrinə isə 8,3 milyard kubmetr qaz çatdırılıb.

Türk şirkətləri Kəlbəcər və Laçında ümumi gücü 13 MVt olan 4 kiçik su elektrik, eyni zamanda, Kəlbəcərdə 240 MVt gücündə külək elektrik stansiyaları layihələrini də həyata keçirib. Karbohidrogenlərdən mədənçiliyə, bərpaolunan enerjidən enerji tənzimlənməsinə qədər geniş sahələri əhatə edən bu əməkdaşlıq iki qardaş ölkənin uzunmüddətli enerji təhlükəsizliyinin təminatçısı kimi mövqeyini möhkəmləndirib.

Onu da xatırladaq ki, Zəngəzur dəhlizi Xəzər dənizi və Mərkəzi Asiyadan həm karbohidrogenlərin, həm də “yaşıl” enerjinin Naxçıvan üzərindən Türkiyə və beynəlxalq bazarlara çatdırılmasını strateji marşrut olaraq gerçəkləşdirəcək. Bu dəhliz Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirməklə yanaşı, Türkiyə və türk dövlətləri ilə enerji, kommunikasiya əlaqələrinə yeni güc qatacaq, ölkələrimizi Orta Dəhlizin enerji, nəqliyyat və tranzit üzrə əsas mərkəzlərindən birinə çevirəcək.

Yuxarıda sadalanan faktlar Türkiyə və Azərbaycanın uzun illərdir ki, təkcə enerji sahəsində tərəfdaş deyil, eyni zamanda, regionun geoiqtisadi mənzərəsini formalaşdıran, sülhə, sabitliyə və davamlı inkişafa töhfə verən, beynəlxalq enerji təhlükəsizliyində birgə addımlayan strateji müttəfiqlər olduğunu göstərir. “Bir millət, iki dövlət” prinsipi ilə dövlət başçılarının qarşılıqlı inam və güvənlə həyata keçirdiyi siyasət isə Azərbaycan – Türkiyə münasibətlərini tarixdə misli görünməmiş səviyyəyə yüksəldərək bütün enerji layihələrinin hərəkətverici qüvvəsinə çevirir.

***Vaqif BAYRAMOV***
***XQ***

# “Sonsuz Qardaşlıq – IV” təlimləri geosiyasi siqnaldır

**Bakıda “Sonsuz Qardaşlıq – IV” adlı çoxmillətli hərbi təlimlərə Azərbaycanla yanaşı, Qazaxıstan, Qətər, Özbəkistan, Pakistan və Türkiyənin xüsusi təyinatlı qüvvələri qatılıb. Müasir döyüş şəraitinə uyğunlaşdırılmış ssenarilər çərçivəsində zirehli texnika, ordu aviasiyası və pilotsuz uçuş aparatları geniş şəkildə tətbiq olunub. Bu isə hərbi qüvvələrin çevikliyini, koordinasiyasını və effektivliyini artırmağa xidmət edir. Çoxmillətli formatda keçirilən bu təlimlər iştirakçı ölkələr arasında koordinasiyalı fəaliyyət mexanizmlərinin formalaşdırılması baxımından da əhəmiyyət daşıyır.**



Bu barədə Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov deyib ki, “Sonsuz Qardaşlıq–IV” təlimləri artıq dördüncü dəfədir təşkil olunur və ənənəvi xarakter daşıyan birgə əməkdaşlıq formatına çevrilib. Təlimlər dost və qardaş ölkələr arasında hərbi əməkdaşlıqla yanaşı, səmimi tərəfdaşlıq münasibətlərinin də təzahürüdür. Eyni zamanda əməkdaşlıq regional təhlükəsizliyin təminində və ölkələrin müdafiə potensialının gücləndirilməsində strateji rol oynayır.

Nazirin sözlərinə görə, təlimlər yalnız hərbi sahədə deyil, beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsi və regionda sülhün qorunması baxımından da vacibdir: “Qardaş və dost ölkələrin xüsusi təyinatlı qüvvələrinin birgə fəaliyyətləri qarşıya qoyulan tapşırıqların yüksək peşəkarlıqla yerinə yetirilməsini təmin edir və bu, həmrəylik ruhunun göstəricisi kimi çıxış edir”.

Müasir döyüş şəraitində xüsusi təyinatlı qüvvələrin rolunun getdikcə daha da artdığını vurğulayan nazir birgə təlimin hər bir iştirakçı üçün faydalı olacağını, şəxsi heyətin peşəkarlığının daha da yüksələcəyini və təcrübə mübadiləsi vasitəsilə hər bir ölkənin hərbi qüvvələri üçün yeni imkanların açılacağını əminliklə vurğulayıb.

Bu gün “Sonsuz Qardaşlıq – IV” təlimlərinin keçirilməsi böyük əhəmiyyət daşıyır. O yalnız hərbçilərin əməliyyat hazırlığını artırmır, həm də siyasi, diplomatik və strateji əhəmiyyət daşıyır. İştirakçı dövlətlər ortaq maraqlar və təhlükəsizlik hədəfləri əsasında bir araya gələrək vahid mövqe nümayiş etdirir. Bu isə strateji əməkdaşlığın gücləndirilməsinə xidmət edir. Xüsusilə beynəlxalq münasibətlərin qeyri-müəyyən və ziddiyyətli olduğu indiki dövrdə böyük əhəmiyyət daşıyır. Bundan başqa, qlobal güc mərkəzləri arasında rəqabətin artdığı, regional güclərin isə daha aktiv mövqe tutduğu bir vaxtda belə təlimlər strateji baxımdan önəm daşmaqla həm də mühüm geosiyasi siqnaldır.

Qeyd edək ki, “Sonsuz Qardaşlıq – IV” təlimlərinin keçirildiyi indiki dövr də onun əhəmiyyətini artırır. O, ABŞ–Ermənistan hərbi təlimlərinin intensivləşdiyi bir vaxtda region dövlətlərinin öz maraqları ətrafında sıx koordinasiya imkanlarını nümayiş etdirir. Yada salaq ki, 2025-ci ilin avqustun 12-dən 20-dək Ermənistanda ABŞ–Ermənistan birgə “EAGLE PARTNER-2025” adlı hərbi təlimlər keçirilib.

Bu təlimlərin məqsədi beynəlxalq sülhməramlı missiyalarda iştirak edən bölmələrin qarşılıqlı fəaliyyət səviyyəsinin artırılması, idarəetmə və taktiki rabitə sahəsində təcrübələrin mübadiləsi, eləcə də Ermənistan silahlı qüvvələrinin döyüş hazırlığının yüksəldilməsi idi. Lakin müşahidəçilər və analitiklər bu cür təlimlərin arxasında daha geniş geosiyasi məqsədlərin dayandığını bildirirlər. ABŞ-ın regionda hərbi iştirakının gücləndirilməsi Cənubi Qafqazdakı maraqlarını möhkəmləndirməyə yönəlmiş addımlar kimi dəyərləndirirlər.

Qeyd olunmalıdır ki, ABŞ hərbi-siyasi baxımdan dünyanın aparıcı güclərindən biri olaraq, müxtəlif regionlarda geosiyasi təsir imkanlarını genişləndirməyə çalışır. Ermənistanla həyata keçirilən hərbi təlimlər də bu strategiyanın tərkib hissəsi kimi qəbul edilir. ABŞ-da bir çox siyasi dairələrin ermənipərəst mövqedə olması da bu cür əməkdaşlıqların səbəbləri sırasındadır. Bu proseslər regionda geosiyasi balansı dəyişə və bəzi hallarda sabitliyə təhdid yarada bilər.

Bəzi ekspertlərin fikrincə, regiondakı məsələlərin region dövlətləri tərəfindən və birbaşa dialoq yolu ilə həll olunması daha səmərəlidir. Xarici aktorların fəal iştirakı isə bölgədə gərginlik riskini artırır. “EAGLE PARTNER-2025” təlimləri kontekstində səsləndirilən ehtimallardan biri də gələcəkdə Ermənistanda xarici hərbi kontingentin yaradılması məsələsidir. Bu da Cənubi Qafqazda yeni təhlükə mənbəyi kimi qiymətləndirilir.

Qeyd edək ki, belə bir geosiyasi vəziyyətdə “Sonsuz Qardaşlıq – IV” təlimləri həm cavab xarakterli tədbir, həm də region daxilində təhlükəsizlik mexanizmlərinin möhkəmləndirilməsinə yönəlmiş strateji addımdır. Bu təlimlər iştirakçı dövlətlər arasında hərbi əməkdaşlığın və koordinasiyanın gücləndirilməsinə, eyni zamanda, regional təhlükəsizlik arxitekturasının qurulmasına xidmət edir. Cənubi Qafqaz ölkələrinin öz daxili resurslarına əsaslanaraq təhlükəsizlik məsələlərini həll etməyə çalışması, üçüncü tərəflərin təsirinin azaldılması baxımından da əhəmiyyətlidir.

Beləliklə, belə çoxmillətli əməkdaşlıq formatı regional təhlükəsizlik baxışlarının yaxınlaşdırılması, vahid yanaşmaların formalaşdırılması və institusional mexanizmlərin inkişaf etdirilməsi üçün mühüm platforma yaradır. Eyni zamanda, bu təlimlər BMT Nizamnaməsinə və digər beynəlxalq hüquqi sənədlərə sadiqliyin praktik göstəricisidir. Bu, həm də beynəlxalq ictimaiyyətə sülh, sabitlik və qarşılıqlı əməkdaşlıq prinsiplərinə əsaslanan aydın mesajdır. Həm iştirakçı ölkələrin milli təhlükəsizliklərini möhkəmləndirir, həm də regional və qlobal səviyyədə sabitliyin təmin olunmasına xidmət edir.

Bununla bağlı **politoloq və araşdırmaçı İlqar Hüseynli** bildirdi ki, Azərbaycana dost ölkələrlə qarşılıqlı etimada və ortaq maraqlara əsaslanan əməkdaşlıq formatları həm regional sabitliyin qorunmasına, həm də milli müdafiə qabiliyyətlərinin gücləndirilməsinə xidmət edir: “Bu kontekstdə keçirilən “Sonsuz Qardaşlıq-IV” birgə hərbi təlimi, Azərbaycan ilə dost və qardaş dövlətlər arasındakı strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Bu tip təlimlər, hər şeydən əvvəl, tərəfdaş ölkələrin orduları arasında əməkdaşlıq səviyyəsinin yüksəldilməsi, qarşılıqlı fəaliyyət imkanlarının artırılması və döyüş birləşmələrinin real hərbi şəraitdə koordinasiyalı fəaliyyət göstərmək bacarığının təkmilləşdirilməsi məqsədi daşıyır

“Sonsuz Qardaşlıq-IV” təlimi, eyni zamanda, hərbi-strateji səviyyədə tərəfdaşlıq



əlaqələrinin yeni mərhələyə keçməsi, mövcud əməkdaşlıq çərçivəsində ortaq layihələrin reallaşdırılması və qarşılıqlı etimadın dərinləşdirilməsi baxımından da əhəmiyyətlidir. Həmçinin regional və qlobal təhlükəsizlik çağırışlarına qarşı birgə cavabvermə mexanizmləri sınaqdan keçirilir, bu da gələcəkdə baş verə biləcək potensial təhdidlərə qarşı çevik və səmərəli reaksiya verilməsinə şərait yaradır.

Ümumiyyətlə, bu kimi təlimlər Azərbaycanın milli təhlükəsizlik və müdafiə strategiyasının əsas prioritetlərindən olan beynəlxalq hərbi əməkdaşlığın genişləndirilməsi məqsədinə tam uyğun gəlir. Bu əməkdaşlıq formatı təkcə bu günün deyil, həm də gələcəyin çağırışlarına cavab verə biləcək peşəkar, çevik və yüksək hazırlıqlı silahlı qüvvələrin formalaşdırılması üçün əhəmiyyətlidir”.

Sonda onu da qeyd edək ki,“Sonsuz Qardaşlıq – IV” təlimləri, sadəcə, hərbi hazırlıq tədbiri deyil, həm də strateji əməkdaşlığın, diplomatik həmrəyliyin və regional təhlükəsizlik sisteminin möhkəmləndirilməsinin simvoludur. Gələcəkdə bu təlimlərin daha geniş formatda və daha çox ölkənin iştirakı ilə keçirilməsi region və dünya üçün mühüm təhlükəsizlik təminatına çevrilə bilər.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 247** **Bakı şəhəri, 9 sentyabr 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 3 avqust tarixli 262 nömrəli Qərarı ilə təsdiq edilmiş "Siyasi partiyanın maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi qaydası"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 3 avqust tarixli 262 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (II kitab), maddə 1245 (Cild I); 2024, № 9, maddə 1086) ilə təsdiq edilmiş "Siyasi partiyanın maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi qaydası"nın 5-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** 5.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"5.1. Siyasi partiyalar tərəfindən maliyyə hesabatı hər il aprelin 1-dən gec olmayaraq, aşağıdakı qaydada Mərkəzi Seçki Komissiyasına təqdim edilməlidir:

5.1.1. hesabat dövrü ərzində maliyyə fəaliyyəti olan siyasi partiya "Auditor xidməti haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun əldə edilmiş auditor rəyi ilə birlikdə maliyyə vəziyyəti haqqında hesabatı, maliyyə-təsərrüfat fəaliyyətinin nəticələri haqqında hesabatı və əhəmiyyətli uçot siyasəti və izahlı qeydləri;

5.1.2. hesabat dövrü ərzində maliyyə fəaliyyəti olmayan siyasi partiya yalnız maliyyə vəziyyəti haqqında hesabat üzrə mövcud qalıqların istifadəsinin və maliyyə-təsərrüfat fəaliyyətinin nəticələri haqqında hesabat üzrə dəyişikliyin olmaması barədə arayışı (3 nömrəli əlavə).".

**2.** Aşağıdakı məzmunda 5.1-1-ci bənd əlavə edilsin:

"5.1-1. Maliyyə hesabatı və bu Qaydanın 5.1.2-ci yarımbəndində göstərilən arayış siyasi partiyanın rəhbəri (siyasi partiyanın sədri, siyasi partiyada sədr vəzifəsi olmadığı halda, partiyanın qurultayarası kollegial idarəetmə orqanının rəhbəri) və baş mühasibi tərəfindən imzalanır və siyasi partiyanın möhürü ilə təsdiq edilir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 248** **Bakı şəhəri, 9 sentyabr 2025-ci il**

**"Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin fəaliyyətinin təkmilləşdirilməsi və "Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 860 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 iyul tarixli 154 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 mart tarixli 356 nömrəli Fərmanının icrasının təmin edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin fəaliyyətinin təkmilləşdirilməsi və "Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 860 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 iyul tarixli 154 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 mart tarixli 356 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 mart tarixli 106 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 367 (Cild I); 2024, № 5 (II kitab), maddə 611; 2025, № 2, maddə 206, № 5, maddə 495) ilə təsdiq edilmiş "Aqrar sığorta fəaliyyəti üzrə müstəqil ekspertlərin imtahanının keçirilməsi Qaydası"nın 2.5.5-ci yarımbəndinə "siyahısını" sözündən sonra "rəsmi" sözü əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 20 may tarixli 267 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 5 (II kitab), maddə 604) ilə təsdiq edilmiş "Qiymətləndirmə fəaliyyəti ilə məşğul olmaq üçün ixtisas imtahanlarının təşkili və keçirilməsi, qiymətləndiricinin ixtisas şəhadətnaməsinin forması və verilməsi Qaydaları"nın 2.2-ci bəndinin üçüncü cümləsinə "Mərkəzin" sözündən sonra "rəsmi" sözü əlavə edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 24 may tarixli 277 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 5 (II kitab), maddə 614) ilə təsdiq edilmiş "Müstəqil ekspert sertifikatının əldə edilməsi üçün imtahana buraxılan şəxslərə dair tələblər, imtahanın keçirilmə qaydası və müstəqil ekspert sertifikatının forması və verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3.2.2-ci yarımbəndə "Mərkəzin" sözündən sonra "rəsmi" sözü əlavə edilsin;

3.2. 3.2.6-cı yarımbənddən "internet" sözü çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 251** **Bakı şəhəri, 9 sentyabr 2025-ci il**

**"2023-cü il iyunun 1-dək tikinti obyektinin inşası, yenidən qurulması, yenidən planlaşdırılması, bərpası, təmiri və digər tikinti fəaliyyəti nəticəsində yaradılmış bütün mərtəbələrinin, yan divarlarının və dam örtüyünün inşası daxil olmaqla tikinti-quraşdırma işləri başa çatmış qeyri-yaşayış təyinatlı binaların istismarına icazənin forması"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 avqust tarixli 296 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli 2181 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 dekabr tarixli 276 nömrəli Fərmanının 6.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"2023-cü il iyunun 1-dək tikinti obyektinin inşası, yenidən qurulması, yenidən planlaşdırılması, bərpası, təmiri və digər tikinti fəaliyyəti nəticəsində yaradılmış bütün mərtəbələrinin, yan divarlarının və dam örtüyünün inşası daxil olmaqla tikinti-quraşdırma işləri başa çatmış qeyri-yaşayış təyinatlı binaların istismarına icazənin forması"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 avqust tarixli 296 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (II kitab), maddə 1279) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Adına və 1-ci hissəyə "qeyri-yaşayış təyinatlı binaların" sözlərindən sonra "və nəqliyyat, rabitə, energetika və digər mühəndis-kommunikasiya obyektlərinin" sözləri əlavə edilsin.

**2.** Həmin Qərarla təsdiq edilmiş "2023-cü il iyunun 1-dək tikinti obyektinin inşası, yenidən qurulması, yenidən planlaşdırılması, bərpası, təmiri və digər tikinti fəaliyyəti nəticəsində yaradılmış bütün mərtəbələrinin, yan divarlarının və dam örtüyünün inşası daxil olmaqla tikinti-quraşdırma işləri başa çatmış qeyri-yaşayış təyinatlı binaların istismarına İcazə"nin adına "qeyri-yaşayış təyinatlı binaların" sözlərindən sonra "və nəqliyyat, rabitə, energetika və digər mühəndis-kommunikasiya obyektlərinin" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 259** **Bakı şəhəri, 11 sentyabr 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 22 aprel tarixli 108 nömrəli Qərarı ilə təsdiq edilmiş "Çətin həyat şəraitində olan şəxslərə (ailələrə) dövlət büdcəsinin vəsaiti hesabına göstərilən sosial xidmətin zəmanət verilmiş həcmi"ndə dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 22 aprel tarixli 108 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 4, maddə 452 (Cild I); 2024, № 7, maddə 916) ilə təsdiq edilmiş "Çətin həyat şəraitində olan şəxslərə (ailələrə) dövlət büdcəsinin vəsaiti hesabına göstərilən sosial xidmətin zəmanət verilmiş həcmi"nin 3.1.1.4-cü, 3.2.1.3-cü və 3.3.1.3-cü yarımbəndlərində "yumşaq inventarlarla (paltar, ayaqqabı, yataq əşyaları və s.)" sözləri "geyim, ayaqqabı və yumşaq inventarlarla" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 253** **Bakı şəhəri, 9 sentyabr 2025-ci il**

**"Çernobıl AES-də qəza nəticəsində köçürülmə günü ana bətnində olan uşaqlar da daxil olmaqla, uzaqlaşdırma və köçürülmə zonalarından köçürülmüş uşaqların və ya 18 yaşınadək yeniyetmələrin, habelə 1986-cı il aprelin 26-dan sonra doğulmuş və Çernobıl AES-də qəzanın nəticələrinin ləğv edilməsinin iştirakçısı olmuş, yaxud Çernobıl qəzası nəticəsində zərər çəkmiş və birbaşa radioaktiv şüalanmaya məruz qalmaq ehtimalı olmuş valideynlərin birindən olan uşaqların, qaçqın və ya məcburi köçkün (ölkə daxilində köçürülmüş şəxs) statusu almış müvəqqəti yaşayış yerində və xəstəxanalarda qocaların, uşaqların, aztəminatlı və ailə başçısını itirmiş şəxslərin, İİV/QİÇS-lə xəstələnmiş vətəndaşların dərman preparatları ilə təmin olunması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 7 mart tarixli 38 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Çernobıl AES-də qəza nəticəsində köçürülmə günü ana bətnində olan uşaqlar da daxil olmaqla, uzaqlaşdırma və köçürülmə zonalarından köçürülmüş uşaqların və ya 18 yaşınadək yeniyetmələrin, habelə 1986-cı il aprelin 26-dan sonra doğulmuş və Çernobıl AES-də qəzanın nəticələrinin ləğv edilməsinin iştirakçısı olmuş, yaxud Çernobıl qəzası nəticəsində zərər çəkmiş və birbaşa radioaktiv şüalanmaya məruz qalmaq ehtimalı olmuş valideynlərin birindən olan uşaqların, qaçqın və ya məcburi köçkün (ölkə daxilində köçürülmüş şəxs) statusu almış müvəqqəti yaşayış yerində və xəstəxanalarda qocaların, uşaqların, aztəminatlı və ailə başçısını itirmiş şəxslərin, İİV/QİÇS-lə xəstələnmiş vətəndaşların dərman preparatları ilə təmin olunması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 7 mart tarixli 38 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 3, maddə 252 (Cild I); 2024, № 9, maddə 1101) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Adına və 1-ci hissəyə "dərman preparatları ilə" sözlərindən sonra ", Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etmiş şəxslərin və şəhid ailələrinin dərman vasitəsi kimi tibbdə istifadə edilən psixotrop maddələrlə" sözləri əlavə edilsin.

**2.** Həmin Qərarla təsdiq edilmiş "Çernobıl AES-də qəza nəticəsində köçürülmə günü ana bətnində olan uşaqlar da daxil olmaqla, uzaqlaşdırma və köçürülmə zonalarından köçürülmüş uşaqların və ya 18 yaşınadək yeniyetmələrin, habelə 1986-cı il aprelin 26-dan sonra doğulmuş və Çernobıl AES-də qəzanın nəticələrinin ləğv edilməsinin iştirakçısı olmuş, yaxud Çernobıl qəzası nəticəsində zərər çəkmiş və birbaşa radioaktiv şüalanmaya məruz qalmaq ehtimalı olmuş valideynlərin birindən olan uşaqların, qaçqın və ya məcburi köçkün (ölkə daxilində köçürülmüş şəxs) statusu almış müvəqqəti yaşayış yerində və xəstəxanalarda qocaların, uşaqların, aztəminatlı və ailə başçısını itirmiş şəxslərin, İİV/QİÇS-lə xəstələnmiş vətəndaşların dərman preparatları ilə təmin olunması Qaydası" üzrə:

2.1. adına və 1-ci hissəyə "dərman preparatları ilə" sözlərindən sonra ", Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etmiş şəxslərin və şəhid ailələrinin dərman vasitəsi kimi tibbdə istifadə edilən psixotrop maddələrlə" sözləri əlavə edilsin;

2.2. aşağıdakı məzmunda 1-1-ci hissə əlavə edilsin:

"1-1. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etmiş şəxslər və şəhid ailələri bu Qaydaya uyğun olaraq dərman vasitəsi kimi tibbdə istifadə edilən psixotrop maddələrlə təmin olunurlar.";

2.3. 3-cü və 5-ci hissələrdə ismin müvafiq hallarında "müalicə- profilaktika müəssisələri" sözləri ismin müvafiq hallarında "tibb müəssisələri" sözləri ilə əvəz edilsin;

2.4. 4-cü hissə üzrə:

2.4.1.birinci abzasda "müalicə-profilaktika müəssisələrində" sözləri "tibb müəssisələrində" sözləri ilə əvəz edilsin;

2.4.2. ikinci abzasda "dövlət büdcəsində Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi üçün" sözləri "dövlət tibb müəssisələrinin xərclərində" sözləri ilə əvəz edilsin;

2.3. 4-cü hissənin ikinci abzasında "dövlət büdcəsində Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi üçün" sözləri "dövlət tibb müəssisələrinin xərclərində" sözləri ilə əvəz edilsin;

2.4.2.5. 6-cı hissə ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 256** **Bakı şəhəri, 10 sentyabr 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Fitosanitar nəzarəti sahəsində bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" 2006-cı il 29 dekabr tarixli 280 nömrəli və "Qida məhsullarının təhlükəli hesab edilməsinə əsas verən halların açıq reyestrinin aparılması qaydası"nın təsdiq edilməsi barədə" 2023-cü il 17 iyun tarixli 197 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Avtomatlaşdırılmış Qida Təhlükəsizliyi" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 fevral tarixli 325 nömrəli Fərmanının 5-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Fitosanitar nəzarəti sahəsində bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 29 dekabr tarixli 280 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1165 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasına gətirilmiş və respublikadan aparılması nəzərdə tutulan karantin nəzarətində olan materiallara fitosanitar karantin baxışının keçirilməsi və ekspertizanın aparılması Qaydaları"nın 14-cü hissəsi üzrə:

1.1.1. üçüncü cümlə aşağıdakı redaksiyada verilsin:

"Həmin yükə regional bölmə tərəfindən "Avtomatlaşdırılmış Qida Təhlükəsizliyi" informasiya sistemi vasitəsilə hazırlanmış fitosanitar sertifikatı elektron və kağız formada verilir.";

1.1.2. dördüncü cümlədə "gömrük orqanlarına göstərməlidir və" sözləri "əsasında gömrük orqanları tərəfindən" sözləri ilə əvəz edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş "Fitosanitar sertifikatının verilməsi üçün tələb olunan sənədlərin Siyahısı"na aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

"Qeyd edilən sənədlərin (məlumatların) Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda həmin sənədlər (məlumatlar) ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda, onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.".

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 17 iyun tarixli 197 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 859 (Cild I); 2024, № 3, maddə 329) ilə təsdiq edilmiş "Qida məhsullarının təhlükəli hesab edilməsinə əsas verən halların açıq reyestrinin aparılması qaydası"nın 1.5-ci bəndinə "Qaydaları"na" sözündən sonra "və Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 fevral tarixli 325 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Avtomatlaşdırılmış Qida Təhlükəsizliyi" informasiya sistemi haqqında Əsasnamə"yə" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 257** **Bakı şəhəri, 10 sentyabr 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Fiziki şəxs barəsində icra sənədi icra olunarkən tələbin yönəldilməsinə yol verilməyən əmlak növlərinin dəqiq Siyahısının təsdiq edilməsi barədə" 2002-ci il 5 iyun tarixli 89 nömrəli və "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" 2013-cü il 29 avqust tarixli 973 nömrəli və "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 10 dekabr tarixli 387 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 12 mart tarixli 350 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 5 iyun tarixli 89 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 6, maddə 374 (Cild I) ilə təsdiq edilmiş "Fiziki şəxs barəsində icra sənədi icra olunarkən tələbin yönəldilməsinə yol verilməyən əmlak növlərinin dəqiq Siyahısı"nın 10-cu hissəsində "xüsusi nəqliyyat vasitələrinə" sözləri "minik avtomobillərinə" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187, № 6, maddə 594; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 4 iyun tarixli 177 nömrəli, 8 iyul tarixli 202 nömrəli, 15 iyul tarixli 210 və 212 nömrəli, 1 avqust tarixli 228 nömrəli qərarları) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Qərarla təsdiq edilmiş" Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatı"nın 271250-ci maddəsində "Əmək zədəsi" sözləri "İstehsalat zədəsi" sözləri ilə əvəz edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatına əlavə"nin 271200-cü paraqrafının ikinci cümləsində və 271250-ci maddəsində "Əmək zədəsi" sözləri "İstehsalat zədəsi" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 260** **Bakı şəhəri, 11 sentyabr 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 7 mart tarixli 66 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yetkinlik yaşına çatmayanlar üçün ixtisaslaşdırılmış sosial reabilitasiya müəssisələrində yetkinlik yaşına çatmayanlara xidmət göstərilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 7 mart tarixli 66 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 3, maddə 235 (Cild I) ilə təsdiq edilmiş "Yetkinlik yaşına çatmayanlar üçün ixtisaslaşdırılmış sosial reabilitasiya müəssisələrində yetkinlik yaşına çatmayanlara xidmət göstərilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. I hissəyə aşağıdakı məzmunda 1.6-cı bənd əlavə edilsin:

"1.6. Müəssisədə yetkinlik yaşına çatmayanların (bundan sonra – şəxslər) geyim, ayaqqabı və yumşaq inventarlarla təmin olunması "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 4 avqust tarixli 240 nömrəli Qərarı ilə təsdiq edilmiş "Stasionar xidmət göstərən dövlət sosial xidmət müəssisələrində xidmətə götürülmüş şəxslərin geyim, ayaqqabı və yumşaq inventarlarla təmin olunma norması"na uyğun həyata keçirilir.".

**2.** II hissə üzrə:

2.1. 2.1-ci bənddə "Yetkinlik yaşına çatmayanlara (bundan sonra – şəxslər)" sözləri "Şəxslərə" sözü ilə əvəz edilsin;

2.2. 2.1.1-ci yarımbənddə "yataq dəstləri" sözləri "ayaqqabı və yumşaq inventarlarla" sözləri ilə əvəz edilsin;

2.3. 2.1.2-ci yarımbənddə "yemək və geyimlə" sözləri "yeməklə" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.***

# Naxçıvanda sosial-iqtisadi inkişaf strategiyası hazırlanır

**Dünən Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilov "2027–2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrasına hazırlıqla bağlı onlayn müşavirə keçirib.**



Müzakirədə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 30 may tarixli, 611 nömrəli sərəncamından irəli gələn vəzifələr diqqət mərkəzində olub. Baş nazir qeyd edib ki, yeni strategiyanın hazırlanması prosesində "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə uyğun olaraq ölkəmizin ötən illərdə əldə etdiyi sosial-iqtisadi nailiyyətlərin davamlı şəkildə artırılması məqsədilə verilmiş tapşırıqlar çərçivəsində muxtar respublikanın mövcud imkanları nəzərə alınmalı, qarşıya qoyulan hədəflər real, dəqiq və ölçülə bilən indikatorlara əsaslanaraq muxtar respublikanın sosial-iqtisadi inkişafı üçün zəruri məsələlər hərtərəfli qiymətləndirilməli və növbəti dövr üçün əhəmiyyətli layihələr də diqqətdə saxlanılmalıdır.

Baş nazir vurğulayıb ki, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına mühüm töhfələr verəcək təkliflərin hazırlanması istiqamətində zəruri addımlar atılmalı, təşkilati məsələlər operativ şəkildə yekunlaşdırılmalı və strategiyada nəzərdə tutulacaq təkliflər müzakirə olunması məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim edilməlidir.

*Səbuhi HƏSƏNOV*
*XQ*

# "Moody's" Azərbaycanı iqtisadi sabitlik adası kimi görür

## *"İNG Group" isə davamlı inkişafı vurğulayır*

**Beynəlxalq reytinq agentliklərinin son qiymətləndirmələri Azərbaycanın iqtisadi gələcəyi ilə bağlı nikbin mənzərə yaradır. Artan maliyyə ehtiyatları, strateji nəqliyyat marşrutlarında iştirak və regional risklərin azalması ölkənin kredit etibarlılığını möhkəmləndirir. Rəqəmlər də bunu təsdiqləyir: göstəricilərdəki müsbət dinamika Azərbaycanın davamlı inkişaf yolunda irəlilədiyini göstərir.**



Müasir dünyanın geosiyasi qarşıdurmaları yeni ticarət marşrutlarının aktuallığını artırıb. Bu gün Mərkəzi Asiya ilə Qafqazı birləşdirən Orta Dəhliz (Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu) artıq təkcə logistika xətti deyil, həm də region ölkələrinin maliyyə etibarlılığını gücləndirən mühüm amilə çevrilir.

Beynəlxalq reytinq agentliyi "Moody's" son proqnozunda vurğulayır ki, tranzit həcmlərinin sürətlə artması və marşruta yönələn investisiyalar ilk növbədə Azərbaycan, Qazaxıstan və Gürcüstana ciddi üstünlüklər qazandırır. Onların kredit göstəriciləri möhkəmlənir, iqtisadi perspektivləri daha da genişlənir. Bu proses xüsusilə karbohidrogen ixracından asılı iqtisadiyyatlar üçün şaxələndirmə imkanları yaradır və yeni inkişaf modellərinə qapı açır.

"Moody's"in analitikləri qeyd edirlər ki, xarici investorların artan marağı dövlətləri institusional idarəçilikdə beynəlxalq standartlara yaxınlaşdırır. Hökumətlərin infrastruktur layihələrinə ayırdığı vəsaitlər büdcə xərclərini yüksəltsə də, mövcud fiskal imkanlar və güzəştli maliyyə mənbələri bu yükü balanslaşdırır.

Bank sektoru isə bu prosesdən dolayı yolla bəhrələnir. Qısamüddətli maliyyələşdirmədən yüksək asılılıq və kapitalın bahalığı onların infrastrukturun birbaşa maliyyələşdirilməsində imkanlarını məhdudlaşdırsa da, subpodratçıların və əlaqəli sahələrin kreditləşdirilməsi vasitəsilə fayda əldə edirlər. Tranzit axınlarının artması həm də kiçik və orta biznesə nəfəs verir. Nəqliyyat, logistika və tikinti sahələrində yaranan canlanma ixracatçılara yeni bazarlara çıxmaq üçün imkanlar açır.

"Moody's" Qazaxıstanın milli dəmiryol operatoru – "Qazaxıstan Dəmiryolu"nun roluna ayrıca diqqət çəkir. Şirkət strateji mövqeyi, dövlət dəstəyi və genişmiqyaslı infrastruktur proqramları ilə bu inkişafın əsas iştirakçılarından biridir. Lakin mənzərə heç də problemsiz deyil. Dəmir yollarının ötürmə qabiliyyətinin məhdudluğu, limanların zəif infrastrukturu və gömrük prosedurlarındakı uyğunsuzluqlar Orta Dəhlizin potensialının tam reallaşmasına mane olan əsas amillər kimi qalır.

Beləliklə, Orta Dəhliz yalnız iqtisadiyyatların yol xəritəsi deyil, həm də regionun kredit etibarlılığını artıran güclü maliyyə dayağına çevrilməkdədir. Əsas məsələ isə mövcud çətinliklərin aradan qaldırılaraq, bu strateji marşrutun bütün imkanlarının üzə çıxarılmasıdır.

Digər tərəfdən, Niderlandın ən böyük maliyyə qurumlarından biri – "ING Group"un təhlillərinə görə, MDB məkanında 4 əsas ölkənin – Azərbaycan, Ermənistan, Qazaxıstan və Özbəkistanın iqtisadiyyatları qlobal təzyiqlərə baxmayaraq, dayanıqlı inkişaf yolunu davam etdirir. Dünya bazarlarında qeyri-müəyyənliklərin artdığı bir vaxtda belə, bu ölkələrin makroiqtisadi sabitliyi və regional proseslərə uyğunlaşma qabiliyyəti diqqət çəkir.

Xüsusilə Azərbaycan və Ermənistan üçün regional siyasi risklərin azalacağına dair gözləntilər müsbət siqnal kimi dəyərləndirilir. Qazaxıstan və Özbəkistanda iqtisadi fəallığın gözləniləndən daha yüksək templə artması da regionun ümumi iqtisadi portretinə rəng qatır.

"ING Group"un qiymətləndirməsinə görə, pul-kredit siyasəti sahəsində maraqlı mənzərə yaranıb: regionun digər ölkələrində monetar yumşalma artıq dayandırılsa da, Azərbaycanda bu proses davam edir. Səbəb isə inflyasiya risklərinin hələ də aktual qalmasıdır. Bununla belə, Azərbaycan Mərkəzi Bankının atdığı addımlar iqtisadiyyatın tənzimlənməsi baxımından çevik siyasətin göstəricisidir.

Təsadüfi deyil ki, 2025-ci ilin yanvar-avqust ayları Azərbaycan iqtisadiyyatında xüsusilə qeyri-neft sektorunda yüksəliş dövrü kimi yadda qalır. Statistik göstəricilər ölkənin ixrac xəritəsində yeni rənglər açır. Belə ki, qeyri-neft ixracı ötən ilin eyni dövrü ilə müqayisədə 10,3 faiz artaraq 2,4 milyard ABŞ dollarına çatıb. Ən parlaq nəticələr isə yeyinti sənayesində qeydə alınıb. Səkkiz ay ərzində ixrac edilən məhsulların həcmi 22,9 faiz yüksələrək 774,2 milyon dollara bərabər olub. Bu artım Azərbaycanın kənd təsərrüfatı potensialının dünya bazarlarında daha da möhkəmləndiyini göstərir.

Məhsul qrupları üzrə dinamika da diqqətçəkəndir: şəkər ixracı 58,2 faiz, meyvə-tərəvəz 32,2 faiz, kimya sənayesi məhsulları 24,3 faiz, pambıq iplik 16,3 faiz, çay 2,1 faiz, qara metallar və onlardan hazırlanan məmulatlar isə 0,2 faiz artım nümayiş etdirib.

Xüsusilə aqrar sektor ixracın əsas lokomotivi rolunda çıxış edir. 2025-ci ilin ilk səkkiz ayında aqrar məhsulların ixracı 28,2 faiz artaraq 614,4 milyon dollar olub. Aqrar-sənaye məhsullarının ixracında isə 4,7 faiz artım qeydə alınıb və nəticə 209,5 milyon dollara çatıb. Bu iki istiqamətin ümumi göstəricisi isə 823,9 milyon dollar təşkil edib ki, bu da ötən ilin eyni dövrünə nəzərən 21,3 faiz çoxdur.

Beynəlxalq reytinq agentliklərinin diqqət mərkəzində olan Azərbaycan məhz bu kimi göstəricilərlə, qeyri-neft sektorundakı uğurlarla diqqət mərkəzinə gəlir. Son dövrlərdə kredit reytinqlərinin yüksəlməsi, büdcə profisitinin qorunması, valyuta ehtiyatlarının artması və makroiqtisadi sabitliyin saxlanılması ilə qlobal maliyyə dairələrində müsbət imic formalaşdırır. Moody's, Fitch və S&P kimi aparıcı qurumların hesabatlarında Azərbaycanın fiskal dayanıqlığı, maliyyə yastığı və tədiyə balansı imkanları xüsusi vurğulanır.

Bütün bunlar göstərir ki, Azərbaycanın iqtisadi inkişafı qlobal miqyasda etibarlı tərəfdaş imici qazanmaqla xarakterizə olunur. Bu gün ölkəmizin adı beynəlxalq reytinq agentliklərinin hesabatlarında müsbət kontekstdə çəkilirsə, bu, aparılan iqtisadi islahatların, düzgün fiskal siyasətin və uğurlu geoiqtisadi strategiyanın real nəticəsidir.

*Nurlana ABDALOV*
*XQ*

# Əmtəəlik qaz hasilatı artıb

**Yanvar – avqust aylarında Azərbaycanda, ümumilikdə, 33 milyard 584,2 milyon kubmetr təbii qaz hasil olunub.**



Dövlət Statistika Komitəsinin məlumatına əsasən, bunun 25 milyard 831,4 milyon kubmetri əmtəəlik qaz təşkil edib. Hesabat dövründə təbii qaz hasilatı ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,7 faiz, əmtəəlik qaz hasilatı isə 2,8 faiz artıb.

2025-ci ilin ilk 8 ayında qaz kondensatı da daxil olmaqla 18 milyon 391,3 min ton xam neft çıxarılıb. Bunun da 18 milyon 349,5 min tonu əmtəəlik neft olub. Cari ilin yanvar-avqust aylarında əmtəəlik neft hasilatında ötən ilin eyni dövrü ilə müqayisədə 4,7 faiz azalma qeydə alınıb.

*XQ*

**Bakı və Abşeronun su təminatı üçün dəniz suyunun duzsuzlaşdırılması layihəsinə start verilib. Bu barədə İqtisadiyyat Nazirliyinin layihələrin idarə olunması şöbəsinin müdiri Zamir Dibirov Bakı Su Həftəsi çərçivəsində keçirilən 2-ci Beynəlxalq Su Təsərrüfatı Sərgi və Konfransında məlumat verib.**



# Ölkəmizdə dəniz suyunun şirinləşdirilməsinə başlanılıb

### Ekspert rəyi



**Əmir ƏLİYEV,**
**ETN Coğrafiya İnstitutunun şöbə müdiri,**
**coğrafiya elmləri doktoru,**
**professor**

**Dəniz suyunun duzsuzlaşdırılması ilə bağlı böyük beynəlxalq təcrübə mövcuddur. Xəzər dənizinə gəldikdə isə, bu təcrübədən ilk dəfə 1960-cı illərdə Qazaxıstanda istifadə olunub. O zaman burada tikilmiş böyük zavodda duzsuzlaşdırılmış sudan, təxminən, 1 milyon əhali istifadə edib. Həmin su məişətdə, kənd təsərrüfatında, yaşıllıqların suvarılmasında və digər sahələrdə geniş tətbiq olunur.**

Bu təcrübə dünyanın su qıtlığı müşahidə olunan ölkələrində, xüsusən də Hind okeanı sahillərində geniş yayılıb. Hətta bəzi şirkətlər, məsələn, Hind Okeanı və Fars Körfəzi ərazilərində neft çıxarılan platformalarda belə, duzsuzlaşdırılmış sudan istifadə edirlər.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin bu sahə ilə bağlı imzaladığı sərəncam xüsusi əhəmiyyət kəsb edir. Bildiyiniz kimi, Azərbaycan Cənubi Qafqazda su ehtiyatları baxımından ən az inkişaf etmiş ölkələrdən biridir. Bu səbəbdən Xəzər dənizindən əldə ediləcək duzsuzlaşdırılmış sudan geniş istifadə etmək mümkündür. Məsələn, Bakı şəhəri və ətraf ərazilərdə əhalinin 60 faizindən çoxu Xəzər sahilindəki su potensialından faydalanmaq imkanı əldə edə bilər. Bu baxımdan Xəzər sahilində belə bir zavodun tikintisi su qıtlığının aradan qaldırılmasına mühüm töhfələr verəcək. Çünki əhalimizin suya olan tələbatı bunun hesabına təmin olunacaq.

Yeri gəlmişkən, ölkəmizdə də bu sahədə təcrübə mövcuddur. Salyan rayonunun Xıdırlı kəndində İsrail mütəxəssisləri tərəfindən tikilmiş zavodda ildə, təxminən, 5 milyon ton dəniz suyu duzsuzlaşdırılır. Mən özüm orada olmuşam və suyun keyfiyyətinin yüksək olduğunu şəxsən görmüşəm. Bu sudan geniş istifadə etmək mümkündür. Qeyd etmək istəyirəm ki, Xəzər dənizinin suyunun duzsuzlaşdırılmasının bir sıra əlavə üstünlükləri var. Hər şeydən əvvəl, Xəzər suyunun duzluluğu dünya okeanlarının suyundan, təxminən 4 dəfə azdır. Bu səbəbdən enerji sərfi digər ölkələrdəki duzsuzlaşdırma proseslərinə nisbətən xeyli aşağıdır.

Ümumilikdə, belə bir layihənin Bakı şəhəri və Xəzər sahilində həyata keçirilməsi böyük əhəmiyyət kəsb edəcək. Duzsuzlaşdırılmış su həm içməyə yararlı olacaq, həm də məişətdə istifadə ediləcək. Bu da şirin su ehtiyatlarına qənaət etməyə imkan yaradacaq. Hazırda biz içməli suyu paytaxta uzaq məsafələrdən böyük vəsait hesabına gətiririk. Sirr deyil ki, bəzi ərazilərdə su çatışmazlığı müşahidə olunur. Duzsuzlaşdırılmış dəniz suyu isə əhalinin tələbatının ödənilməsinə imkan yaradacaq. Hesab edirəm ki, təkcə Abşeronda deyil, Xəzərin cənub və şimal sahillərində də belə zavodların tikilib istifadəyə verilməsi müsbət hal olar. Bu, əhalinin su tələbatının ödənilməsi üçün son dərəcə vacibdir.

"Alternativ su mənbələrinin idarə edilməsində innovativ yanaşmalar" adlı panel müzakirəsində çıxış edən şöbə müdiri bildirib ki, layihə çərçivəsində həm şəhər və sənaye sularının təmizlənməsi, həm də kənd təsərrüfatı məqsədli su istifadəsinin səmərəliliyi təmin olunacaq. Onun sözlərinə görə, layihədə özəl investorların iştirakı suyun istehsalı və istifadəsində səmərəliliyi artırır, dövlət isə yalnız zəmanət təminatı həyata keçirir.

Sentyabrın 12-də iqtisadiyyat naziri Mikayıl Cabbarovla Səudiyyə Ərəbistanının "ACWA Power" şirkətinin baş icraçı direktoru Marko Arçelli arasında keçirilmiş görüşdə ölkəmizdə həyata keçirilən dəniz suyunun duzsuzlaşdırılması layihəsinin icra vəziyyəti müzakirə edilib. Görüşdə su ehtiyatlarının səmərəli idarə olunması və dayanıqlı inkişaf məqsədləri çərçivəsində gələcək potensial layihələr ətrafında fikir mübadiləsi aparılıb. Nazir bu barədə "X" sosial şəbəkə hesabında yazıb: "Bu kimi təşəbbüslərin ölkədə dövlət-özəl tərəfdaşlığının inkişafı, yüksək texnoloji bilik və innovasiyaların transferi baxımından əhəmiyyətini vurğuladıq".

Son illər ölkəmizdə su ehtiyatlarından səmərəli istifadənin təkmilləşdirilməsi, içməli su təchizatının yaxşılaşdırılması və bu sahəyə yeni texnologiyaların cəlb olunması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkənin su təhlükəsizliyi, əhalinin içməli su ilə təminatının artırılması və bu sahəyə yeni texnologiyaların cəlb edilməsi məqsədilə 2023-cü il aprelin 12-də imzaladığı "Dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı sahəsində pilot layihənin həyata keçirilməsi tədbirləri haqqında" sərəncamı xüsusi əhəmiyyət daşıyır.

Ötən müddətdə dəniz suyunun duzsuzlaşdırılması layihəsinə dair tədbirlərin koordinasiyalı icrasının təmin edilməsi üçün aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə işçi qrup yaradılıb, bununla bağlı ətraflı müzakirələr aparılıb. Eyni zamanda, layihə üzrə müvafiq sənədlərin hazırlanması istiqamətində lazımi işlər görülüb, investorların cəlb olunması üçün müsabiqənin keçirilməsi qərara alınıb. İqtisadiyyat Nazirliyinin elan etdiyi müsabiqəyə əsasən dövlət-özəl tərəfdaşlığı çərçivəsində dəniz suyunun duzsuzlaşdırılması zavodunun inşasını həyata keçirəcək şirkətlər müəyyənləşdirilib.

Səudiyyə Ərəbistanının "ACWA Power" şirkətinin rəhbərlik etdiyi konsorsiumun təklifi müsabiqədə 1-ci yeri tutub. Yeri gəlmişkən, "ACWA Power" şirkətinin rəhbərlik etdiyi konsorsiumun digər üzvü Türkiyənin "IC İÇTAŞ İNŞAAT SANAYİ VE TİCARET A.Ş." şirkətidir. Müsabiqədə 2-ci və 3-cü sıralarda isə müvafiq olaraq İsrailin "IDE Water Assets Ltd" və Birləşmiş Ərəb Əmirliklərinin "Metito Utilities Limited" şirkətləri yer alıb.

Xatırladaq ki, layihə çərçivəsində konsorsium tərəfindən qoyulacaq investisiya hesabına Sumqayıt Sənaye Parkında gündəlik istehsal gücü 300 min kubmetr su olan zavodun tikintisi planlaşdırılır. Müəssisənin 2,5 il ərzində tikilməsi nəzərdə tutulur. Müqaviləyə əsasən, layihənin müddəti 27,5 ildir. Belə ki, konsorsium layihəni bu müddətdə idarə etdikdən sonra müəssisə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin idarəetməsinə keçəcək.

Layihə Bakı şəhəri və Abşeron yarımadasının içməli suya artan tələbatını təmin etmək, şirin su mənbələrini şaxələndirmək, içməli su təchizatı sahəsində beynəlxalq təcrübəni və texnologiya transferini stimullaşdırmaq və xarici sərmayə cəlbi baxımından mühüm töhfədir. Eyni zamanda, pilot layihənin uğurlu icrası ölkəmizdə gələcəkdə dövlət-özəl sektor tərəfdaşlığı çərçivəsində infrastruktur layihələrinin reallaşdırılmasına əlverişli imkan yaradacaq.

*Mirbağır YAQUBZADƏ*
*XQ*

*15 Sentyabr Bilik Günüdür*

# Dərsliklər, sadəcə, kitab deyil, bilik xəzinəsinin qızıl kərpicləridir

## *Onların daim təkmilləşdirilməsi isə savadlılığı yüksəldir*

**Hər il məktəblərə yeni dərsliklər təqdim olunur. Dəyişən dərsliklər, dəyişməyən sualları yenidən gündəmə gətirir: Yeniliklər şagirdlərin ehtiyaclarına cavab verirmi, yoxsa yalnız proqramdakı dəyişikliklərlə məhdudlaşır?**




Təhsil mütəxəssisləri qeyd edirlər ki, dərsliklərin həcmi, mövzu seçimi və təqdimat üsulu birbaşa şagirdlərin dərsi mənimsəmə sürətinə, analitik düşünmə və tətbiqetmə bacarığına təsir göstərir. Xüsusilə, aşağı siniflər üçün ağır mətnlər və sıx qrafik strukturlar şagirdləri dərsdən uzaqlaşdırmaq riski yaradır. Digər tərəfdən, regionlara dərsliklərin vaxtında paylanması, çap keyfiyyəti, səhv və ya köhnəlmiş məlumatların mövcudluğu kimi texniki problemlər hələ də aradan qaldırılmayıb. Bu isə təhsildə bərabərliyi ciddi təsir göstərən faktorlardandır.

Mövcud problemlər daha innovativ və müasir yanaşmaların zəruriliyini gündəmə gətirir. Son illərdə dərsliklərin elektron versiyalarının istifadəyə verilməsi, onların vizual materiallarla zənginləşdirilməsi təhsil sistemində modernləşmə istiqamətində atılan əhəmiyyətli addımlardandır. Elektron resurslar məlumatın sürətli və sərbəst əldə olunmasını təmin edir, elm və təhsil sahələrində araşdırma imkanlarını genişləndirir. Onlar həm də aktual məlumat, interaktiv tədris və qlobal əməkdaşlıq üçün vasitədir. Əlbəttə, bu proses hələ də inkişaf mərhələsindədir və atılan addımların təhsilin keyfiyyətinin yüksəlməsinə mühüm töhfə verdiyi müşahidə olunur.

**Təhsil sahəsindəki çağırışlar fonunda, Təhsil Nazirliyi qarşıdakı tədris ili üçün dərsliklərin yenilənməsi və keyfiyyətinin artırılması istiqamətində görülmüş işlər barədə məlumat verib:**

– 2025/2026-cı tədris ili üçün ümumi təhsil pilləsi üzrə 49 adda dərslikdə məzmun təkmilləşdirilməsi və yenilənməsi həyata keçirilmişdir. Həmin dərsliklər IX və XI siniflər istisna olmaqla, digər siniflər üzrə müxtəlif fənləri əhatə edir. Belə ki, yeni tədris ilində “Rus dili 2”, “Alman dili 2”, “Azərbaycan dili 6”, “Riyaziyyat 6”, “Azərbaycan tarixi 6”, “Coğrafiya 7”, “Fizika 8”, “Biologiya 8” və s. dərsliklər hazırlanmışdır. Yeni dərsliklər qabaqcıl təhsil institutlarının tətbiq etdikləri müasir öyrətmə üsullarından da istifadə edilməklə hazırlanıb. Həmin dərsliklərdə müasir yanaşmalardan və yeni pedaqoji texnologiyalardan geniş istifadə edilir.

Yeni dərsliklər şagirdlərdə əlavə nəzəri biliklərin əvəzinə, yaş xüsusiyyətlərinə uyğun zəruri bilik və bacarıqların formalaşdırılmasını hədəfləmişdir. Ümumi təhsil müəssisələrinə dərsliklər, tədris ilinin başlanmasına 3-5 ay əvvəldən məktəblərin tələbatına əsasən paylanılır. Məktəblərin dərslik tələbatı formalaşdırılarkən yeni tədris ilinə olan şagird sayı, eləcə də məktəbin kitabxana fondunda olan dərsliklərin sayı da nəzərə alınır.

**Yeni tədris ilində Təhsil İnstitutunun təşəbbüsü ilə hazırlanmış dərsliklərdən ümumtəhsil müəssisələrində istifadəyə start veriləcək:**

– Dərsliklərin məzmunu şagirdlərin yaş və sinif xüsusiyyətlərinə uyğunlaşdırılıb. İbtidai siniflərdə (6–9 yaş) mətnlər sadə, qısa və gündəlik həyatdan nümunələrlə izah olunur. Orta təhsil səviyyəsində (10–14 yaş) mövzular daha çox təcrübə, müşahidə və sadə hesablamalara əsaslanır. Tam orta təhsil səviyyəsində (15–17 yaş) mürəkkəb anlayışlar, qanunauyğunluqlar, riyazi modellər və nəzəri ümumiləşdirmələrə geniş yer verilir. Yeni dərsliklər bir il pilot siniflərdə sınaqdan keçirilir və ölkənin bütün regionlarını əhatə edir.

Pilot siniflərinin şagirdləri dərslik və iş dəftəri, müəllimləri isə dərslik və metodik vəsaitlə təmin olunur. Sınaq müddətində siniflərdə ildə iki dəfə – birinci və ikinci yarımilin sonunda – ARTİ-nin uyğun fənlər üzrə mütəxəssisləri və dərslik müəllifləri monitorinqlər aparır. Dərslik və metodik vəsaitin elektron versiyası (PDF) TRİMS.edu.az portalında yerləşdirilir və ictimai müzakirəyə çıxarılır.

Monitorinqin nəticələri, ictimai müzakirədən (DİM-in ekspertləri, universitetlərin professor-müəllim heyəti, elmi tədqiqat institutları və fənn müəllimləri) və Elm və Təhsil Nazirliyinin ekspertlərinin rəylərinin təhlili əsasında təkmilləşdirmələr aparılır. Bütün dərsliklərin və metodik vəsaitlərin PDF formatı TRİMS.edu.az portalında yerləşdirilir. Dərsliklər iki hissədə hazırlanır: I hissə birinci yarımildə, II hissə isə ikinci yarımildə istifadə olunur. Texniki ölçüsü A4 formatındadır, mətnlərin həcmi və sıxlığı isə şagirdlərin yaş səviyyəsinə uyğun tərtib olunub.

**Təhsil eksperti Kamran Əsədov bildirdi ki, yeni dərsliklərin uğurlu tərəflərinə baxmayaraq, bir sıra çatışmazlıqlar da gözə çarpır:**

Son illərdə Azərbaycanda dərsliklərin yenilənməsi təhsil sahəsində diqqətçəkən mövzulardan biridir. Nazirlik tərəfindən aparılan islahatlar müəyyən müsbət nəticələr doğursa da, prosesin effektivliyi hələ tam deyil. Statistik göstəricilər göstərir ki, 2015-ci ildən bəri dərsliklərin böyük hissəsi yenilənib və elektron variantları hazırlanıb. Lakin dərsliklərin dil və üslubunda aydınlıq çatışmazlığı, faktoloji səhvlər və fənlər üzrə çətinlik balansının pozulması hələ də müşahidə olunur.

Maliyyə tərəfinə nəzər salsaq, hər il dövlət büdcəsindən dərsliklərin hazırlanması və çapı üçün təxminən 25–30 milyon manat vəsait ayrılır. 2023-cü ildə bu məbləğ 28 milyon manat olub və onun 65 faizi çap işlərinə, 20 faizi müəllif qonorarı və ekspertiza xərclərinə, 15 faizi isə elektron resursların hazırlanmasına yönəlib. Bu vəsaitin istifadəsi dərslik siyasətinin həm keyfiyyətə, həm də rəqəmsal resurslara yönəldiyini göstərir.

Dünya təcrübəsi ilə müqayisədə bu rəqəm yüksək deyil. Məsələn, Estoniyada dövlət hər şagird üçün illik dərslik xərci təxminən 80 avro təşkil edir ki, bu, Azərbaycan göstəricisindən iki dəfə çoxdur. Bununla belə, ölkəmizdə pulsuz dərslik təminatının qorunması sosial bərabərliyin gücləndirilməsi baxımından mühüm addımdır və müsbət qiymətləndirilməlidir.



Müəllimlərin yeni dərsliklərlə işləməsi vərdişləri də sürətlənir: gənc nəsil yeni sistemə daha tez uyğunlaşsa da, yaşlı müəllimlər üçün bu hələ çətin prosesdir. Şagirdlərin dərs yükü də nəzərdə tutulandan artıqdır və fəaliyyət tapşırıqları ilə birlikdə həftədə 40 saata çatır ki, bu, beynəlxalq standartlardan yüksəkdir. Maliyyə təminatı olsa da, yenilənmiş dərsliklərin tətbiqi və elektron resursların istifadəsi hələ tam effektiv deyil.

Müəllimlərin prosesə ayaqlaşması üçün davamlı təlimlərin miqyasının artırılması vacibdir. Şagirdlərin dərs yükünün balanslaşdırılması istiqamətində isə əlavə tədbirlər görülməlidir. Elm və Təhsil Nazirliyinin bu sahədə ardıcıl siyasəti təqdir olunmalıdır, çünki məqsəd dərsliklərin sadəcə yenilənməsi deyil, həm də onların keyfiyyətinin beynəlxalq standartlara uyğunlaşdırılmasıdır. Bu siyasət faydalıdır, yaxın illərdə irəliləyişlərin daha da genişlənməsi gözlənilir və təhsil sisteminin dayanıqlılığına mühüm töhfə verəcək”.

Ekspertin dediklərinə onu da əlavə edək ki, yenilənmiş dərsliklər, elektron resurslar və müasir pedaqoji yanaşmalar təhsil sistemində yeni üfüqlər açır. Lakin hər uğurlu addımın arxasında hələ görməli işlər, həllini gözləyən çağırışlar dayanır. Faktiki səhvlər, dərs yükünün balanssızlığı və müəllimlərin adaptasiyası kimi məsələlər göstərir ki, islahatlar prosesi davamlı olmalı, hər mərhələdə diqqət və dəqiqlik əksini tapmalıdır.

***Fidan ƏLİYEVA***
***XQ***

*Bəkir Nəbiyev – 95*

# Ədəbiyyatşünasın xatirəsi anıldı



**Dünən AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, “Xalqlar dostluğu”, “Şöhrət” və “İstiqlal” ordenli akademik Bəkir Nəbiyevin 95 illiyinə həsr olunan “Bəkir Nəbiyev və ədəbiyyatşünaslığın aktual problemləri” adlı elmi sessiya keçirilib.**

Əvvəlcə ədəbiyyatşünas alimin elmi yaradıcılığından bəhs edən sərgi nümayiş olunub.

Mərasimi giriş sözü ilə AMEA-nın prezidenti, Ədəbiyyat İnstitutunun direktoru akademik İsa Həbibbəyli açaraq XX əsr Azərbaycan ədəbiyyatşünaslıq elminin görkəmli simalarından olan akademik Bəkir Nəbiyevin zəngin fəaliyyətindən söz açıb, onun fundamental əsərləri ilə elmimizə böyük töhfələr verdiyini, ictimai fikrin inkişafında əvəzsiz xidmətlər göstərdiyini bildirib.

Akademik Bəkir Nəbiyevi ustad ədəbiyyatşünas alim kimi səciyyələndirən AMEA rəhbəri onun Firudin bəy Köçərli haqqında yazılmış ilk monoqrafik əsərin müəllifi olduğunu vurğulayıb. Qeyd edib ki, arxiv materallarına əsaslanan bu kitab zaman keçsə də, dəyərini qoruyub saxlayır.

Azərbaycan ədəbi-elmi ictimaiyyəti tərəfindən akademik Bəkir Nəbiyevin, əsasən tənqidçi ədəbiyyatşünas kimi qəbul edildiyini söyləyən AMEA-nın prezidenti bildirib ki, alimin ədəbi tənqidi irsi ədəbiyyatşünaslığımızın yarım əsrdən çox salnaməsini təşkil edir.

Akademik İsa Həbibbəyli qeyd edib ki, taleyini Azərbaycan Milli Elmlər Akademiyası ilə bağlayan görkəmli alim AMEA-da müxtəlif vəzifələrdə çalışıb, Nizami adına Ədəbiyyat İnstitutunda kiçik elmi işçi, elmi katib, baş elmi işçi, şöbə müdiri vəzifələrini tutub. O, 1971-1987-ci illərdə Nizami adına Ədəbiyyat Muzeyinin direktoru, 1987– 2001-ci illərdə Ədəbiyyat, Dil və İncəsənət bölməsinin akademik-katibi, 2002-ci ildən ömrünün sonunadək isə Nizami adına Ədəbiyyat İnstitutunun direktoru olub.

“Akademik Bəkir Nəbiyev səmərəli elmi-təşkilati fəaliyyətlə yanaşı, yüksəkixtisaslı kadrların yetişdirilməsində də böyük əmək sərf etmişdir”, – deyən AMEA rəhbəri onun rəhbərliyi altında çox sayda fəlsəfə və elmlər doktorlarının hazırlandığını, alimin Azərbaycan filologiyasında mükəmməl elmi məktəb yaratdığını vurğulayıb.

O, ədəbiyyatşünas alimin “Əməkdar elm xadimi” fəxri adına, “Şöhrət” və “İstiqlal” ordenlərinə layiq görüldüyünü, Azərbaycan Respublikasının Dövlət mükafatı ilə təltif edildiyini diqqətə çatdırıb.

Dünya Söz Akademiyasının İdarə Heyətinin sədri professor Hayrettin İvgin çıxış edərək akademik Bəkir Nəbiyevlə bağlı xatirələrini bölüşüb, onun zəngin mənəvi keyfiyyətlərindən, xeyirxah əməllərindən və yüksək vətənpərvərliyindən söz açıb.

Daha sonra AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru akademik Teymur Kərimli, Ədəbiyyat İnstitutunun baş elmi işçisi professor Qəzənfər Paşayev, şöbə müdiri professor Asif Rüstəmli, institutun aparıcı elmi işçisi filologiya elmləri doktoru, dosent Esmira Fuad məruzələrlə çıxış ediblər.

Tədbirdə görkəmli alimin həyat və yaradıclığından bəhs edən videoçarx nümayiş etdirilib.

Sonda akademik Bəkir Nəbiyevin ailəsi adından çıxış edən oğlu Sadıq Nəbiyev atasının xatirəsinə göstərilən hörmət və ehtirama görə tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirib.

***Qabil YUSİFOĞLU***
***XQ***

# Tarixi abidədən qanunsuz istifadə yolverilməzdir

**Bakı şəhərində yerləşən tarix-mədəniyyət abidələrinə keçirilən baxış zamanı Yasamal rayonu, Zərgərpalan küçəsi, 48 ünvanında yerləşən və yerli əhəmiyyətli memarlıq abidəsi kimi dövlət mühafizəsinə götürülmüş (inventar nömrəsi 3574) hamamın qanunsuz istifadə olunduğu müəyyən edilib.**



Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətindən XQ-yə verilən məlumatda bildirilib ki,araşdırma zamanı təqdim edilən icarə müqaviləsinin müddətinin bitdiyi məlum olub. Qanunvericiliyə əsasən, tarix və mədəniyyət abidələrinin elmi, mədəni, dini, xidməti və turizm məqsədləri üçün istifadəsi, onların icarəyə verilməsi və yerli əhəmiyyətli memarlıq abidələrinin özəlləşdirilməsi Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin razılığı ilə həyata keçirilməlidir. Həmin qeyri-yaşayış sahəsinin istifadəsi, o cümlədən icarəyə verilməsi aidiyyəti üzrə razılaşdırılmadan aparıldığı müəyyən edilib. Aşkar edilib ki, sözügedən qeyri-yaşayış sahəsi ilə bağlı 2021-ci ilin əvvəlində tarixli, icarə müqaviləsi bağlansa da, Bakı Kommersiya Məhkəməsinin qətnaməsinə əsasən, müqaviləyə 7 iyun 2023-cü il tarixindən xitam verilib. Buna baxmayaraq, abidədən qanunsuz istifadə halları davam etdirilib. Dövlət Xidməti tərəfindən görülən tədbirlər nəticəsində abidədən qanunsuz istifadənin qarşısı alınıb.

***Mehparə ƏLİYEVA***
***XQ***

# Sumqayıtın yeni tələbələri ilə görüş

**Gənclik şəhərində builki qəbul imtahanlarında 650-dən yuxarı bal toplayan məzunlarla görüş keçirilib.**

Sumqayıt Dövlət Dram Teatrında təşkil edilən görüşdə Abşeron-Xızı Regional Təhsil İdarəsinin müdiri İlhamə Abdullayeva bildirib ki, ötən tədris ilində Sumqayıt şəhəri üzrə 4 min 467 nəfər ümumtəhsil məktəbinin 11-ci sinfini bitirərək məzun olub. Onlardan 3 min 916 nəfəri ali məktəblərə sənəd verib və 2 min 786 nəfəri imtahandan uğurla keçərək, ölkənin müxtəlif universitetlərinə qəbul edilib. Şəhər üzrə 69 məzun 650-dən, 23 məzun 670-dən, 11 məzun isə 680-dən yuxarı bal toplayıb. Ümumilikdə 194 məzun 600-dən yuxarı nəticə göstərib.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov ölkəmizdə dövlətin təhsilə göstərdiyi diqqət və qayğıdan danışıb, bu sahənin Prezident İlham Əliyevin daimi diqqət mərkəzində olduğunu vurğulayıb. Şəhər rəhbəri əlavə edib ki, Sumqayıtda təhsil infrastrukturu ilbəil ən müasir tələblərə uyğunlaşdırılır, yeni məktəb binaları tikilir, mövcud məktəblər əsaslı təmir olunur, sinif otaqları və laboratoriyalar ən



müasir avadanlıqlarla təchiz edilir. O, şəhər ictimaiyyətini yeni tədris ili münasibətilə təbrik edərək, biliklərə səylə yiyələnən şagirdlərin gələcəkdə cəmiyyətə böyük faydalar verəcəyinə əminliyini bildirib. İcra başçısı görüşə dəvət edilən, 650-dən yuxarı bal toplayaraq tələbə adını qazanan gənclərin uğurlarının həm öz ailələri, həm də bütün Sumqayıt üçün böyük fərəh olduğunu bildirib və onlara təbriklərini çatdırıb.

Digər çıxış edənlər də ali məktəblərə yüksək balla qəbul olunmuş tələbələrə uğurlar diləyiblər. Bildirilib ki, Sumqayıt təmsilçiləri uzun illərdən bəri ali məktəblərə qəbulda, beynəlxalq olimpiadalarda fərqlənirlər. Builki qəbul imtahanları da məhsuldar olub. III ixtisas qrupu üzrə Təbiət Elmləri Təmayüllü Gimnaziyanın məzunu Aytac Baxşəliyeva uğur əldə edib. O, hər iki mərhələnin cəminə görə, 691,8 bal toplamaqla ən yüksək nəticə göstərən 7 abituriyentdən biridir. 11 və 35 nömrəli məkəblərin hər birinin 4 sinfinin, 27 nömrəli məktəbin isə 1 sinfinin bütün şagirdləri imtahanda 100 faiz nəticə göstəriblər. Sumqayıt şəhər Təbiət Elmləri Təmayüllü Gimnaziyanın məzunları olan əkiz bacılar - Ayan və Nigar Məmmədlilər də bu il qəbul imtahanlarında yüksək nəticə göstəriblər – hər ikisi 660-dan yuxarı bal toplayaraq Azərbaycan Tibb Universitetinin “Müalicə işi” fakültəsinə qəbul olunub.

Görüşün sonunda 650 baldan yüksək nəticə göstərən tələbələrə qiymətli hədiyyələr təqdim edilib.

Xatırladaq ki, daha öncə Sumqayıt şəhər rəhbərliyi tələbə adını qazanmış şəhid övladları ilə də görüşüb. Zakir Fərəcov Vətən Müharibəsi qəhrəmanı, şəhid Sübhan Cəbrayılovun oğlu Rahim Cəbrayılovu, 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif olunmuş şəhid Ramil Ağayevin övladı Zəhra Ağazadəni və III dərəcəli “Rəşadət” ordenli şəhid Elvin Zakirovun qızı Yağmur Zakirovanı təbrik edib, onlara elm-bilik yollarında nailiyyətlər arzulayıb.

***Əli NƏCƏFXANLI***
***XQ***

*Beynəlxalq həyat*

# “Qərb-2025” Qərbə gücünü göstərir

## *Rusiya–Belarus hərbi təlimləri NATO-nu qayğılandırdı*

**Rusiya və Belarusun birgə strateji təlimləri “Qərb-2025” rəsmi olaraq sentyabrın 6-da başlayıb. Təlimlərin məqsədi hərbi kontingentlərin birgə fəaliyyətini sınaqdan keçirmək, komandanlıq və qərargahların təcrübəsini artırmaq, regional və koalisiya qüvvələrinin qarşılıqlı əməkdaşlığını təkmilləşdirməkdir. Təlimlər həm Belarus, həm də Rusiya ərazisində, eyni zamanda, Baltik və Barens dənizlərinin akvatoriyalarında həyata keçiriləcək.**



Təlimlərdə iştirak edən hərbi qulluqçuların ümumi sayı açıqlanmır. Lakin Litva hərbi kəşfiyyatının məlumatına görə, təxminən, 30 min hərbçi iştirak edəcək. Belarus ərazisində isə 8 min hərbçi, o cümlədən 2 min rus əsgəri yerləşdiriləcək. Belarus Müdafiə Nazirliyinin məlumatına görə, manevrlərin əsas hissəsi Minsk vilayətində keçiriləcək və NATO ölkələri ilə sərhəddən uzaqda olacaq, lakin bəzi təlimlər Polşa və Litva yaxınlığında, yeni möhkəmləndirilmiş müdafiə xətlərinin yerləşdiyi ərazilərdə baş tutacaq.

Təlimlərin ssenarisi açıqlanmır, lakin məlumata görə, “Qərb-2025” çərçivəsində Rusiyanın taktiki nüvə vasitələrinin və yeni orta mənzilli raket sistemi “Oresnik”in istifadəsinin planlaşdırılması simulyasiya ediləcək. Hazırda atışlar nəzərdə tutulmayıb, əsas diqqət qərarların qəbulu və nüvə silahlarının hərəkəti, habelə tətbiqi üzrə ssenarilərin işlənməsinə yönəldilib.

Eyni zamanda, NATO ölkələri də öz hərbi manevrlərini həyata keçirirlər. Baltik regionunda keçirilən TARASSIS təlimlərinə 11 ölkə, o cümlədən Böyük Britaniya, Norveç, eləcə də NATO-ya yeni qoşulan İsveç və Finlandiya qatılır. Polşa və Litva sərhəd təhlükəsizliyini gücləndirmək məqsədilə ayrıca hərbi manevrlər aparır. Bu şəraitdə Rusiya və Belarus sərhədləri yaxınlığında, NATO ilə sərhəd ölkələrdə əhəmiyyətli sayda hərbi qüvvə yerləşdirilib, məsələn, yalnız Polşada 30 mindən çox hərbçi mövcuddur.

NATO təlimlərində xüsusi diqqət Suvalk koridorunun müdafiəsinə yönəldilib. Təxminən, 100 kilometr uzunluğunda olan bu torpaq zolağı Polşa-Litva sərhədində, Belarus və Kalininqrad arasında yerləşir və Baltik ölkələrinin digər NATO ölkələri ilə yeganə quru əlaqəsini təmin edir. Potensial münaqişə zamanı bu strategiya əhəmiyyətli rol oynayacaq və buna görə də Polşa və Litva ərazini möhkəmləndirir. Hazırkı şəraitdə Latviya və Litva hava məkanını sərhədlərinin şərq hissəsini, Polşa isə Belarusla sərhədini tamamilə bağlayıb. Polşa Daxili İşlər Naziri Marçin Kerviniski bu addımı “təxribatların qarşısını almaq” məqsədilə olduğunu izah edib.

Eyni zamanda, 10 sentyabr gecəsi Rusiyaya məxsus olduğu iddia edilən dronların Polşanın hava məkanına daxil olması gərginliyi daha da artırıb. NATO aviasiyası dronların bir qismini məhv edib, hadisə region təhlükəsizliyi və alyansın kollektiv müdafiə qabiliyyətini diqqət mərkəzinə çıxarıb. Bu insident, həmçinin NATO-Rusiya qarşıdurması fonunda hər iki tərəfin hərbi mövqelərinin test edildiyini göstərir. ABŞ prezidenti Donald Tramp hadisəni “səhv ola bilər” kimi qiymətləndirsə də, bu yumşaq yanaşma Avropada və ABŞ daxilində müzakirələrə yol açıb. Polşa Xarici İşlər Naziri Radislav Sikorski Moskva ilə dialoqun nəticəsiz olduğunu vurğulayıb.

Analitiklər bildirirlər ki, NATO-Rusiya qarşıdurmasının dərinləşməsi dünya təhlükəsizlik arxitekturasına uzunmüddətli təsir göstərə bilər. Qərb ölkələri müdafiə xərclərini artıraraq kollektiv təhlükəsizlik strategiyasını gücləndirirlər. Bunun isə beynəlxalq hüququn tətbiqinə və güc balansına əsaslanan yeni reallıqların formalaşmasına təsir edəcəyi gözlənilir. Eyni zamanda, lokal münaqişələrin qlobal güclərin qarşıdurma meydanına çevrilmə ehtimalı artır və nəticədə dünya daha çox parçalanmış təhlükəsizlik sistemi və “soyuq müharibə” atmosferi ilə üzləşir.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

*Təqvim yada salır*

# Ədalət arzularımızın “Ədalət” çırağı



**Ötən əsrin 90-cı illərinin başlanğıcında ölkədə yüksələn milli azadlıq hərəkatının təlatümlü dalğasında işıq üzü görmüş “Ədalət” qəzetinin 35 yaşı tamam olub. Bu münasibətlə Azərbaycan Mətbuat Şurasında keçirilən yubiley məclisində dövlət müstəqilliyi ərəfəsində ilk demokratik nəşrlərdən olmuş bu qəzetin ölkədə azad media prinsiplərinin dirçəldilib inkişaf etdirilməsində xidmətləri diqqət mərkəzində oldu.**

Məclisdə Mətbuat Şurasının sədri Rəşad Məcid bildirdi ki, 1991-ci il iyulun 26-Azərbaycan Hüquqşünaslar İttifaqının nəşri kimi fəaliyyətə başlamış “Ədalət” qəzeti tezliklə müstəqillik uğrunda ümumxalq mübarizəsinin cəsarətli söz tribunalarından biri oldu. Milli mətbuatımızın demokratik ənənələrini sürətlə dirçəldən nəşr zəngin mənəvi dəyərlərimizə sahib olmağın örnəklərini də önə çəkdi, cəmiyyətdə sosial ədalət dəyərlərini uca tutdu. Xalqımızın 1988-ci ildən düçar olduğu və sağalmaz yaraya çevrilmiş Qarabağ bəlası da “Ədalət”in aparıcı və daimi mövzularına çevrildi.

Bildirildi ki, yeni yaranmış bir çox nəşrlər sonrakı illərdə sıradan çıxsa da, kökü cəmiyyətin dərin qatına işləmiş “Ədalət” böyüyüb boy atdı, 35 yaşa çatdı. Qəzet bu gün tərəqqi və yüksək rifah quruculuğuna, beynəlxalq nüfuzumuzun artmasına, düşmən dairələrin çeşidli təxribatlarının cavablandırılmasına layiqli informasiya dəstəyi verir.

Bütün bunlaın 35 il əvvəl yurdsevər ziyalının – istedadlı yazıçı-publisist Aqil Abbasın və tanınmış hüquqşünas Adil Minbaşının məsləkə çevirdikləri hədəflər olaraq qəzetin sonrakı yolunu müəyyən etdiyini söyləyən MŞ sədri qəzetin kollektivini səmimi təbrik etdi, onlara bundan sonra da milli mediamızın inkişafında yeni uğurlar arzuladı. Sonra Rəşad Məcid Mətbuat Şurasının yubiley diplomunu qəzetin təsisçisi və ideya rəhbəri Aqil Abbasa təqdim etdi. Qocaman və fəal əməkdaşlar isə Şuranın təşəkkürnamələri ilə mükafatlandırıldılar.

Azərbaycan Mətbuat Şurası Ahıl Jurnalistlər Məclisinin sədr müavini əməkdar jurnalist Əminə Yusifqızı, qəzetin veteranlarından əməkdar jurnalistlər Aydın Ağazadə və Rəşid Faxralı, yubilyar nəşrin əməkdaşları Əbülfət Mədətoğlu, Nicar Rüstəmov, Asif Talıboğlu, Mətbuat Şurasının əməkdaşı İlqar Tağıyev və başqaları hazırda tanınmış publisist İradə Tuncayın baş redaktorluğu ilə fəaliyyət göstərən “Ədalət”in ölkəmizdə ədalətli cəmiyyətlə bağlı ictimai fikrin formalaşmasında səmərəli fəaliyyətini, geniş oxucu auditoriyası qazandığını vurğuladılar, təbriklərə qoşuldular.

Milli Məclisin deputatı Aqil Abbas əvvəllər baş redaktoru, sonradan isə təsisçisi olduğu “Ədalət”in keçdiyi yola, xidmətlərinə verilən yüksək qiymətə görə Mətbuat Şurasının rəhbərliyinə və media təmsilçilərinə təşəkkür etdi, qəzetin öz məsləkinə daim sadiq qalacağını bildirdi.

***Tahir AYDINOĞLU***
***XQ***

**Redaksiyadan: “Xalq qəzeti”nin kollektivi də bu yaxınlarda 106 yaşı tamam olmuş ölkənin ən qocaman gündəlik nəşri olaraq, fəaliyyətinin son 35 ilində onunla yanaşı addımlamış, milli mətbuatımızın yeni format və imicinin formalaşmasında peşəkarlıq nümunəsi göstərmiş “Ədalət” qəzetində çalışan həmkarlarımızı təbrik edir, kollektivə yaradıcılıq uğurları arzulayır.**

*Sağlamlıq*

# Aspirin “yaxşı”dır, amma həmişə yox!

**Asetilsalisil turşusu – aspirin (AST) və AST tərkibli preparatlar günümüzdə ən çox istifadə olunan dərman maddələrindəndir. Əksər insanlar həkimlərin təyinatı, bəzən də digər şəxsin məsləhətilə, tromboz riskinə görə, soyuqlamalarda, bəzən də qandurulducu kimi bu preparatı profilaktik olaraq, hətta, gündəlik qəbul edirlər. Bu dərmanın elmi cəhətdən orqanizmə təsirini, fayda və zərərini öyrənmək məqsədilə XQ-nin səhiyyə eksperti, tibb elmləri doktoru Musa Qəniyevdən müsahibə aldıq. Professor preparatla bağlı indiyədək fərqli bildiklərimizə aydınlıq gətirdi:**



**– Alimlər tərəfindən dərmanın təsirinin molekulyar mexanizminin incələnməsi təsdiq edib ki, onun profilaktik məqsədlə uzunmüddətli qəbulu əsassız və çox təhlükəlidir. Yəni aspirinin istifadə imkanları heç də deyildiyi və bizim beyinimizə yeridildiyi kimi deyildir. Əsl həqiqət fərqlidir.**

Aspirin tibbdə istifadəyə 1899-cu il fevral ayının 1-də “Bayer” firması tərəfindən hərarətsalıcı, iltihabəleyhinə və ağrıkəsici dərman maddəsi kimi tövsiyə olunmuşdur. Keçən əsrin 60-cı illərindən başlayan, xüsusən 1980–1990-cı illərdə aparılan tədqiqatlarla AST-nin trombositlərin aqreqasiyasını blokada etdiyini və tromb mənşəli infarkt və insult kimi xəstəliklərin baş verməsi və bu xəstəliklərdən ölüm faizinin azaldığı sübut edildi. Nəticədə AST antitrombotik terapiyada “qızıl standart” elan olundu və “qanı durulaşdıran maddə” kimi gündəlik istifadəsi bu gün də davam edən ənənə halını aldı.

Preparatın antitrombotik təsiri, trombosit mənşəli siklooksigenaza fermentini blokada etməsinin nəticəsi kimi, trombositlərin zədələnmiş damar endotelinə aqreqasiyasının qarşısını alması ilə əlaqədardır.

İlkin tədqiqatlarda müəyyən olundu ki, preparat trombositlərin aqreqasiyasına yüksək dozalarda (gündəlik 1–1,5 qram) təsir göstərir. Sonralar antitrombotik təsirinin 30–50 mq dozada başladığı, 100 mq dozada optimallaşdığı və dozanın artırılması (1500 milliqrama qədər) fonunda yüksələn xətt üzrə getdiyini təsdiqlədi. Daha sonra meta-analiz, 300–325 milliqram dozada preparatın antitrombotik potensialının yüksək dozasına ekvivalent olduğunu sübut etdi.

**– Aspirinin gündəlik və uzunmüddətli qəbulunun əsassız və təhlükəli olduğunu dediniz. Hansı təhlükəni nəzərdə tutursunuz?**

– Məlumdur ki, gündəlik qəbulda aspirinin ən qorxulu əlavə effektlərindən biri, məlum fermentin blokadası fonunda trombun içərisindəki polimorfnuklear leykositlərin aktivləşməsinin nəticəsi olan mədə-bağırsaq traktı mənşəli daxili qanaxma




törətməsidir. Bu hal bir qayda olaraq, preparatın permanent (fasiləsiz, gündəlik) qəbulu fonunda müalicənin ilk 3 ayından sonra meydana çıxır. Belə ki, AST ilə müalicə alan, normal şəxslərin 50–70 faizində gün ərzində 1–6 milli miqdarında gizli mədə qanaxması baş verir. Əgər qanın laxtalanması kritik səviyyəyə enərsə, qəflətən baş verən güclü daxili qanaxma ölümlə nəticələnir. Odur ki, dozasından asılı olmayaraq, aspirinin gündəlik istifadəsi yolverilməzdir.

Qeyd etdiyim kimi, AST-nin yüksək effektiv antitrombotik dozası 300–325 milliqramdır. Bu dozada preparat trombosit mənşəli siklooksigenaza fermentini daxilə qəbuldan 1 saat sonra geridönməz şəkildə blokada edir. Trombositlər çəyirdəyə (nüvə) malik olmadığından, fermentin fəallığı yalnız 7–10 gündən, yəni, yeni trombositlər əmələ gələndən sonra bərpa olunur. Başqa sözlə desək, söylədiyim dozada AST-nin tromboz əleyhinə təsiri 7–10 gün müddətinə saxlanılır. Bu səbəbdən, proflaktik məqsədlə AST-nin ən tez halda 5 gündən bir qəbul edilməsi tövsiyə olunur.

**– Ümumdünya Səhiyyə Təşkilatının bu barədə hər hansı tövsiyəsi varmı?**

– Amerika alimləri hələ 2007-ci ildə aspirinin təyinini dozasından asılı olmayaraq gündəlik qəbulunu məsləhət görmürdülər. Lakin sonralar, şübhəsiz ki, məlum maraqlar səbəbindən Ümumdünya Səhiyyə Təşkilatı və Amerika Birləşmiş Ştatları Preventiv Xidmətlər İş Qrupunun (USPSTF) protokol və tövsiyyə sənədləri aspirinin profilaktik mədsədlə gündəlik istifadəsini məqbul hesab etdi. İddia olundu ki, hazırda profilaktik məqsədlə istifadə olunan aspirin preparatları (məsələn, Aspirin Kardio), bağırsaqlarda həll olan dərman formasında buraxılır və təhlükəsizdir. Halbuki, bu halda AST ilkin qaraciyər baryerini keçərkən müəyyən faiz nisbətində inaktivləşsə də, analoji mexanizmlə daxili qanaxma törədə bilir. Digər tərəfdən, bağırsaqlarda hidrogen göstəricisi – Ph-in uzunmüddətli turşuluğa doğru dəyişməsi, həm də yoğun bağırsaqda onkoloji fəsadlara səbəb ola bilər.

Odur ki, aspirindən istifadə bütün hallarda effektivlik və risk faktorlarının müqayisəli təhlili əsasında, yalnız fasiləli qəbul formasında və mütləq şəkildə həkim nəzarəti altında aparılmalıdır.

***Müsahibəni qələmə aldı:***
***Zərifə BƏŞİRQIZI***
***XQ***

**Ləğv prosesində olan “Salyan Nəqliyyat” ASC səhmdarlarının nəzərinə!**

15 oktyabr 2025-ci il saat 14.00-da Salyan rayonunun, Aşağı Noxudlu kəndində ləğv prosesində olan “Salyan Nəqliyyat” ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Növbədənkənar ümumi yığıncağın gündəliyi:

1. Ləğv prosesində olan “Salyan Nəqliyyat” ASC-nin ləğvetmə balansının və qalıq əmlakının iştirakçılar arasında bölünməsi planının təsdiq edilməsi.

Ləğv prosesində olan “Salyan Nəqliyyat” ASC-nin təsviyəçisi.

"Xaçmaz-Kəndnəqliyyat" ASC səhmdarlarının nəzərinə!

15 oktyabr 2025-ci il saat 10.00-da "Xaçmaz-Kəndnəqliyyat" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı Xaçmaz şəhəri, Nəriman Nərimanov küçəsi 1 nömrəli ünvanda keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1. Yeni sədrin seçilməsi və gündəlikdəki digər məsələlər.

Yığıncaqda səhmdarların özlərinin və qanuni vərəsələrinin iştirak etmələri vacibdir.

**"Xaçmaz-Kəndnəqliyyat" ASC-nin idarə heyəti**

“Azərbaycan Hava Yolları” QSC

***“AZAL”-ın vebsayt və mobil tətbiqi üçün “UX/Uİ” dizayn xidmətinin satın alınması məqsədilə***

**AÇIQ TENDER ELAN EDİR**

"Azərbaycan Hava Yolları" QSC-nin vebsayt və mobil tətbiqi üçün“UX/Uİ“ dizayn xidmətinin satın alınması məqsədilə açıq tenderində iştirakçılar veronika.oborskaya@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 30 sentyabr 2025-ci il saat 15.00-dəkdir .

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Prosedur üzrə əlaqələndirici şəxs – Veronika Oborskaya, İnnovativ və marketinq məhsullarının təchizatı şöbəsinin layihə rəhbəri, veronika.oborskaya@azal.az, iş – (+99412) 4972600 daxili 4258.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 195 (30889) 13 sentyabr 2025-ci il, şənbə

## İDMAN

# Ölkəmiz Türk Dövlətləri Universiadasının qalibidir

**Qırğızıstanın İssık-Kul vilayətinin Çolpon-Ata şəhərində keçirilən III Türk Dövlətləri Universiadasında Azərbaycan ümumi nəticələrə görə birinci olub.**



Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkiyənin iştirakı ilə təşkil olunan yarışlarda sərbəst güləş, yunan-Roma güləşi, cüdo, şahmat, stolüstü tennis, voleybol və futzal olmaqla ümumilikdə 6 idman növündə 500-ə yaxın idmançı mübarizə aparıb.

5 idman növündə təmsil olunan ölkəmiz fərdi yarışlarda 9 qızıl, 7 gümüş və 5 bürünc medal qazanıb.

Komanda yarışlarına görə isə yunan-Roma güləşində birinci, sərbəst güləş, stolüstü tennis və futzalda ikinci, cüdo və şahmatda isə üçüncü yer əldə olunub.

Beləliklə, Azərbaycan medal sayı və komanda nəticələrinin ümumi göstəricisinə əsasən birinci yeri tutaraq Universiadanın qalibi olub.

# İsraillə idman əməkdaşlığı

**Azərbaycan və İsrail arasında gənclər və idman sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub.**



Gənclər və İdman Nazirliyindən verilən məlumata görə, nazir Fərid Qayıbov İsrailin fövqəladə və səlahiyyətli səfiri Ronen Krauszu qəbul edib. Qonağı salamlayan nazir onu ölkəmizdəki diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edib və uğurlar arzulayıb.

Görüşdə Azərbaycan və İsrail arasında gənclər və idman sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub, ikitərəfli əlaqələrin genişləndirilməsi və birgə layihələrin həyata keçirilməsi barədə fikir mübadiləsi aparılıb.

# Klublarımızın Avropa reytinqi

**Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyasının (IFFHS) açıqladığı reytinq siyahısına əsasən, Azərbaycan klublarının Avropa təmsilçiləri arasındakı mövqeyi bəlli olub. Dünya reytinqində 96-cı pillədə qərarlaşan "Qarabağ" (154,75 xal) "köhnə qitə"də 64-cü sıradadır.**




79,25 xalı olan "Sabah" (dünyada 302-ci) Avropada 175-ci, "Araz-Naxçıvan" (70,25 xalla 355-ci) 206-cı, "Zirə" (68 xalla 380-ci) isə 224-cü pillədə qərarlaşıb.

Xatırladaq ki, 506 klubun yer aldığı siyahıya Fransa təmsilçisi PSJ (543 xal) başçılıq edir.

*Qabil YUSİFOĞLU*
*XQ*



# İman sahiblərinin inanc ünvanı

**Bəzən bir məkanın daşları danışar, divarları dua edər, səssizliyi qəlbi titrədər. Xəzər rayonunun Şüvəlan qəsəbəsində yerləşən Mir Mövsüm ağa ziyarətgahı da məhz belə bir yerdir – illərin, nəsillərin və duaların qovuşduğu, inamın torpaqla birləşdiyi müqəddəs bir ocaqdır...**

Burada Bakı bölgəsinin inanılmış seyidlərindən olan Ağa Seyidəli Mir Abutalıb oğlu Mir Mövsümzadə (Mir Mövsüm ağa) dəfn olunub. Mir Mövsüm ağa 1883-cü ildə doğulmuş, 1950-ci ildə vəfat etmişdir. Onun məzarı üstündə ilkin olaraq kiçik məqbərə inşa edilmişdir, daha sonra (1992-1994 illərdə) möhtəşəm türbə kompleksi ucaldılmışdır. Türbə kompleksinin daxilində Mir Mövsüm ağanın məzarı ilə yanaşı, bacısı Mir Səkinə xanım və qardaşı Mir Kazım ağanın məzarları da mövcuddur. Kompleks qəbiristanlıq ərazisində olduğundan tikinti işlərinin çox hissəsi əl əməyilə həyata keçirilib, texnikadan istifadə məhdud olub. Türbə klassik Şərq memarlıq üslubunda tikilib: göy rəngli gümbəzlər, naxışlarla işlənmiş divarlar və sakitliyin içində səslənən dualar...

Mir Mövsüm ağanın qəbrinin üzərində inşa edilən ziyarətgah bu gün böyük bir kompleksə çevrilib. Hər il minlərlə adam bu müqəddəs məkana axışır. İnsanlar onun ruhuna dua edərək, ümidlə, inamla ora üz tuturlar. Ziyarətə gələnlərin dilində bir dua, bir səs var: "Allahım, Mir Mövsüm ağa hörmətinə bizə kömək ol". Bu, xalqın inamından doğan bir çağırışdır. İnsanlar burada öz dərdlərini dilə gətirməzlər, çünki bilirlər ki, bura sükutun içində danışan bir məkandır.

Bu müqəddəs məkanı ziyarət etmək üçün bir daha yolumu o ocağa salıram. Hər zaman olduğu kimi, yenə insan izdihamı yaşanırdı. Ziyarətgaha gələnlərin gözlərində ümidsizliklə ümid arasında itmiş bir baxış görünürdü. Kimisi xəstə övladı üçün dua edir, kimisi müşküllərinin həlli üçün niyyət diləyir, kimi də sadəcə, içindəki narahatlığa çarə axtarırdı.



Ziyarətgahda çalışan xanıma yaxınlaşıb Ağa haqqında bildiyi məlumatları bizimlə bölüşməyini xahiş etdim. Ruqiyyə xanım dedi: "Mir Mövsüm ağa özü bir möcüzə olub. Uşaqlıqdan danışa bilməsə də, onun baxışları danışıb. İnsanların qəlbinə sözsüz yol tapıb. Yanına gələn xəstələrə şəfa, ümidsizlərə ümid verib. İnsanlar onu görmək üçün uzaq-yaxın demədən gəlirlər. Bəziləri şəfa tapır, bəziləri rahatlıq, bəziləri isə sadəcə dua edir. Gördüyünüz kimi, bura həmişə bax belə insanla dolu olur. Artıq 10 ildən çoxdur ki, burada çalışıram. Çox görmüşəm niyyətlərinin qəbul olub, nəzir paylayanları. Bir hadisəni də deyim, yəqin eşitmiş olarsız. Bir rusiyalı qadının övladı olmurmuş. Yuxuda görür ki, Azərbaycanda Mir Mövsüm ağa adlı bir ocaq var və ziyarətinə getsə, övlad dünyaya gətirəcək. Çox keçmir, qadın ziyarətə gəlir və bir ildən sonra övladı olur. Həmin qadının Rusiya mətbuatında bu barədə geniş müsahibəsi dərc olunub".

Ziyarətgahda olarkən bir neçə insanın da bu ocağa olan inanclarıyla bağlı fikirlərini öyrəndim. Ziyarətçi Esmira Əliyeva: "Mən Mərdəkanda yaşayıram, hər dəfə sıxıntıya düşəndə bura üz tuturam. Sanki bu ocaqda etdiyim duaları Tanrı eşidir, mən çətinliklərdən asanlıqla çıxıram".

Qucağında övladını qucaqlayıb oturan bir atanın ümid dolu baxışları diqqətimi çəkir. Müsahibim Elməddin Səfiyev dedi: "Məcburi köçkün kimi Bakıya gələnə qədər evimizdə yalnız bir seyidin adını eşitmişdim: Seyid Lazım ağa. Bakıya gələndən sonra seyid Mir Mövsüm ağanın möcüzəli insan kimi tanındığını və bu ziyarətgahda uyuduğu üçün buranın çox müqəddəs məkan olduğunu öyrəndim. Mənim də övladım xəstədir, həkimlərdə müalicəsini davam etdirsəm də, bu ocağa cox inandığım üçün mütəmadi olaraq oğlumla bura gəlib tezliklə şəfa tapmasını diləyirəm. İnanıram ki, inancla müalicənin vəhdətində balam tezliklə sağlamlığına qovuşacaq. Cünki qonşum danışırdı ki, övladı ağır xəstə imiş, bura tez-tez gəlib dua edərmiş. Övladı sağalıb, indi böyük kişidir, ailəlidir. Çox ümidliyəm ki, Mir Mövsüm Ağa mənim balama da şəfa verəcək".

Bəli, Mir Mövsüm ağanın qeyri-adi xüsusiyyətləri xalq arasında dildən-dilə keçərək onu canlı ikən müqəddəsə, vəfatından sonra isə əfsanəyə çevirdi. O, zamanın içində zamandan kənar bir varlıq kimi yaşadı – adi bir insan kimi doğuldu, amma qeyri-adi bir iz qoydu.

Bu ziyarətgahda dualar qəlbdən gəlir, dilə düşmədən qəbul olur sanki. Bəzən insan bir ruh, təmiz bir nəfəs, bir dua axtarır. Mir Mövsüm ağa ziyarətgahı bu ehtiyacın cavabıdır. O, dinin sərt qaydalarından daha çox, imanın təcəssümüdür. Bu ziyarətgahda insanlar Allaha yalvarmaq üçün bir din alimi, bir şeyx axtarmır – bir nur axtarır və o nuru Mir Mövsüm ağanın adında, məzarında, ətrafdakı səssizlikdə tapırlar.

Mir Mövsüm ağa ziyarətgahı zamanla böyüdü, abadlaşdırıldı, amma ən böyük dəyişməyən dəyəri – inam idi. Bu inam illərlə sovet təqiblərinə tab gətirdi, ideologiyaların, dövrlərin dəyişməsinə baxmayaraq, sarsılmadı. İnsanlar heç vaxt onu unutmadı – çünki bu, unudulması mümkün olmayan bir mənəviyyat ocağıdır.

Bu gün də, sabah da bu yer mövcud olacaq. Nəsillər bir-birini əvəz edəcək, amma bir şey dəyişməyəcək: buranın insanların inanc yeri olması.

*Nurəngiz ADİLQIZI*
*XQ*

# Paytaxt məktəblərində 505 min 766 şagird oxuyacaq

**Yeni tədris ilində Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən ümumi təhsil müəssisələrində, ümumilikdə, 505 min 766 şagird təhsil alacaq. Qurumun media və ictimaiyyətlə əlaqələr sektorundan XQ-yə bildirildi ki, paytaxt məktəblərinin I sinfində 39 min 622, IX sinfində 47 min 438, XI sinfində 35 min 134, XII sinfində isə 124 şagird məşğələlərə başlayacaq.**



Məktəbəhazırlıq qruplarına 21 min 491 beşyaşlının qəbul olunması nəzərdə tutulur. Məktəbəqədər təhsil müəssisəslərinə isə 35 min 028 uşaq cəlb edilib. 28 min 127 müəllim bağça və uşaq evlərində məktəbəqədər təhsil müəssisəslərində isə 4 min 149 tərbiyəçi-müəllim çalışır.

Xatırladaq ki, Bakıda 673 təhsil müəssisəsi, 9 məktəbdənkənar müəssisə fəaliyyət göstərir.

*XQ*

**"Protean Construction "ASC -nin balansında olan aşağıdakı texniki vasitələrin qeydiyyat şəhadətnamələri itdiyi üçün etibarsız sayılır:**

| | |
|---|---|
| 1. Asfalt yayan Vögele 1900-2 | 90-N-642 |
| 2. CAT 232D frontal mini yükləyici | 10-AB-369 |
| 3. Liugong CLGB614 vərdənə | 10-X-209 |
| 4. CAT 330 tırtıllı ekskavator | 10-AD-682 |
| 5. Liugong CLGB230 buldozer | 10-AC-943 |
| 6. CAT 330 tırtıllı ekskavator | 10-AC-761 |
| 7. CAT 330 tırtıllı ekskavator | 10-AD -541 |
| 8. Bomaq BW-24 | 90-M-131 |
| 9. CAT 966GC frontal yükləyici | 10-AF-287 |
| 10.CAT 232D3 mini yükləyici | 10-AD-543 |
| 11. Liugong CLGB230 buldozer | 10-AB-372 |


## Hava

# Bakıda və Aranda yağış, dağlarda sulu qar

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətdən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gündüzdən bəzi yerlərdə fasilələrlə yağış yağacağı ehtimal olunur. Arabir güclənən şimal-qərb küləyi əsəcək.**

Havanın temperaturu gecə 17-19, gündüz 22-24 dərəcə isti olacaq. Atmosfer təzyiqi 762 millimetr civə sütunundan 766 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 70-75 faiz, gündüz 55-65 faiz təşkil edəcək.



Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qara keçəcəyi, gecə və səhər bəzi yerlərdə duman olacağı ehtimal olunur. Şərq küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 16-20, gündüz 22-27, dağlarda gecə 3-7, gündüz 7-12 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3430
SİFARİŞ 1741
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mehparə ƏLİYEVA
Çapa imzalanmışdır 00:00